# VƏHHABİ SUALLARINA

# CAVABLARIMIZ



MÜƏLLİF: ƏLİ ƏTAİ İSFƏHANİ
TƏRCÜMƏ EDƏN:
MƏHƏMMƏD TURAN

VƏHHABİ SUALLARINA

# CAVABLARIMIZ

MÜƏLLİF: ƏLİ ƏTAİ İSFƏHANİ
TƏRCÜMƏ EDƏN: MƏHƏMMƏD TURAN

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...Vəhhabi suallarına cavablarımız**
**Müəllif:................................Əli Ətai İsfəhani**
**Tərcümə edən:..........Məhəmməd Turan**
**Nəşr edən:..................................Faiz**
**Çap növbəsi:....................Birinci**
**Çap tarixi:..................2005**
**Tiraj:.................3000**

Bismillahir-Rəhmanir-Rəhim

## ÖN SÖZ

Allah-taala buyurmuşdur:

**“Həqiqətən Allah bütün pislikləri siz əhli-beytdən uzaq etmək, sizi pak qərar vermək istəyir.”**[1]

Allahın Rəsulu (s) buyurur: **“Ey insanlar, mən sizin üçün iki qiymətli əmanət qoyuram: Allahın kitabı və Əhli-beytim (ailəm). Bu iki şeydən tutun ki, heç vaxt azmayasınız. Lətif və xəbərdar Allah mənə xəbər verərək əhd etdi ki, bu iki şey kövsərdə mənə çatanadək bir-birindən ayrılmaz.”**[2]

Həzrət (s) başqa bir hədisdə belə buyurur: **“Mənim Əhli-beytim Nuhun gəmisi kimidir, ona sığınan qurtular, ona arxa çevirən həlak olar.”**[3]

Bizim şiələr Həcc səfərində olarkən sünni qardaşların bə’zi əməlləri onlarda sual doğurur. Onlar sünnə əhli ilə şiələr arasındakı əqidə və əməl fərqlərinin kökünü bilmək üçün möhtərəm ruhanilərə suallar verirlər.

2003-ci ildə fərdi ümrə mövsümü Mədinədə olarkən Ayətullah-üzma Fazil Lənkəraninin hey’ətində şər’i suallara cavab vermək üçün tapşırıq aldım. Bir qrup ruhani diqqəti cəlb edən ixtilaflı məsələləri araşdırıb, onları qısa izahlarla zəvvarlara çatdırmağımı istədilər. Mən bu kitabla həmin istəyi imkan qədərində yerinə yetirdim.

Xatırladım ki, bu kitab Mədinədə olarkən yazılmış və sünni mənbələrdən “Səhihe-Buxari”, “Səhihe-Müslim kitablarından, “Məscidün-nəbi” kitabxanasından və İbn Bazın yazılarından

---

[1] Əhzab surəsi, ayə 33.

[2] “Came əhadisuş-şiə”, ayətullah-üzma Birucerdi, c.1, müqəddimə, 1-ci çap, s. 32

[3] Həmin mənbə, c. 1, s. 28

istifadə edilmişdir. Əvvəlki iki kitabı sünnilər, sonuncunu isə vəhhabilər mö'təbər hesab edirlər.

On il olar ki, Ayətullah İştiharidi adı çəkilən hey'ətlə Həccə gəlir və ətrafdakılar onun əxlaq və elmindən faydalanırlar. Bu kitabın bir nüsxəsini ona təqdim etdim. Kitabı oxuyub, bə'zi qeydlərini bildirdi. Onun qeydləri kitabın sonunda olduğu kimi dərc edilib. Kitabda Ayətullah Qulamriza Sələvatinin məsləhətləri də imkan daxilində nəzərə alınıb.

Hər iki alimə göstərdikləri diqqət və qayğıya görə təşəkkür edir, onlara Allahdan uzun və bərəkətli ömür, daha artıq yardım arzulayıram.

## *AYƏTULLAH-ÜZMA BİRUCİRDİNİN BƏYANINDA ƏHLİ-BEYTƏ İTAƏT ZƏRURƏTİ*

"Bir müsəlmanın, hətta Əhli-beytin hakimiyyət və canişinliyinə e'tiqadı olmasa da, dini işlər və ilahi vəzifələrdə, əməl və e'tiqadda onlara itaətin zəruriliyinə şəkk etməsi layiq deyil. Çünki bu əmr həzrət Peyğəmbər (s) tərəfindən "Səqəleyn" hədisində bəyan olunmuşdur. Səqəleyn hədisini şiə və sünnilər yekdil olaraq qəbul edir, böyük İslam alimləri bu hədisin mö'təbərliyini təsdiqləyirlər. Həzrət Peyğəmbər (s) ilahi maarif, dini vacibat, Peyğəmbər (s) sünnəsi və xalqın ehtiyac duyduğu hər şeyi Əhli-beytə tapşırmışdır. Bu səbəbdən də Əhli-beyt Qur'ani-məcidlə eyni ağırlıqda təqdim olunmuş, onlara itaət dəfələrlə tövsiyə edilmiş, onların hidayətinə üz tutmaq tapşırılmış, onların elm və biliyindən öyrənmək sifariş olunmuş, onlara arxa çevirmək qadağan edilmişdir.

Bu hədislərdən bə'zisi şiə və sünnilərin yekdil olaraq qəbul etdiyi səqəleyn hədisi kimi məşhurdur. Bu hədis peyğəmbər səhabələrinin otuz iki nəfəri tərəfindən nəql olunmuşdur. Şiə alimlərindən əlavə yüz həştad nəfər sünni alimi, mühəddisi öz kitablarında bu hədisi nəql etmişlər.

Mərhum Ayətullah Birucirdi tərcümə etdiyim bu müqəddimədən sonra "Səqəleyn" hədisini məşhur sünni

kitablarından nəql etmiş, onun mə'nasını araşdırmış və sonra buyurmuşdur:

"Qeyd etdiklərimizin nəticəsi bu oldu ki, həzrət Peyğəmbər (s) şər'i işlərdə və ilahi vəzifələrdə Əhli-beytə üz tutmağı vacib buyurmuş, Əhli-beytə bağlılığın vacibliyini tə'kid etmiş və bu əmri müxtəlif tə'birlərlə elə əsaslandırmışdır ki, onun inkarı mümkün, ona arxa çevirmək caiz sayılmır."

Bir sözlə, mübarək "Səqəleyn" hədisini əksəriyyət nəql etmişdir və bu şərif hədis mə'sum imamların (ə) imamət və xilafətini sübuta yetirir, eləcə də, ağıllı və insaflı adamlar üçün heç bir şübhə yeri qalmır.

Səqəleyn hədisindən əlavə, həm şiə həm də sünnilərin mütəvatir şəkildə nəql etdiyi bir çox hədislərdə bildirilir ki, həzrət Peyğəmbər (s) müsəlmanların qurtuluşunu Əhli-beytə itaətdə görmüşdür. Bu qəbildən olan "Səfinə" hədisində Əbuzər nəql edir ki, həzrət Peyğəmbər (s) buyurmuşdur: **"Mənim Əhli-beytim Nuhun gəmisi kimidir, ona sığınan qurtular, ona arxa çevirən həlak olar."** Ayətullah Birucirdi bu hədisi sünnilərin bir neçə tanınmış kitablarından nəql edərək buyurur: "Bu hədisi yüzdən çox böyük alim öz kitabında rəvayət etmişdir."

Əhli-beytə itaətin zəruriliyi haqqında rəvayətlər kifayət qədər çoxdur. Amma kitabın həcmini nəzərə alaraq "Səqəleyn" və "Səfinə" hədislərini nəql etməklə kifayətlənirik. Şiə fəqihləri bu iki hədisə, xüsusi ilə də "səqəleyn" hədisinə istinad edərək şər'i hökmlər və fiqhi fətvalarını Əhli-beytə müraciətlə sübuta yetirirlər.

## *KAMİLLİK ZİRVƏSİ VƏHDƏT İŞIĞINDA*

Xatırlamalıyıq ki, vacib əmrlərin ən mühümü müsəlmanların birliyi və təfriqədən çəkinməkdir. Allah-təala buyurur: **"Hamınız bir yerdə Allahın ipindən yapışın və parçalanmayın. Allahın verdiyi ne'məti xatırlayın ki, bir-birinizə düşmən ikən qəlblərinizi birləşdirdi və Onun ne'məti sayəsində qardaş oldunuz. Oddan ibarət**

**uçurumun kənarında olduğunuz vaxt O sizi xilas etdi. Allah ayələrini sizə aydınlaşdırır ki, bəlkə, haqq yola dönəsiniz."**[1] Bu ayəyə əsasən, hər bir müsəlman Qur'an və Əhli-beytə sarılmaqdan əlavə, müsəlmanlarla bir olmalı və vəhdət halında Allahın ipindən yapışmalıdır. Kimsə Allahın xüsusi ne'məti və kamal zirvəsinə çatmağın əsası olan birlikdən qəflətdə qalmamalıdır. İxtilaf və düşmənçilik odla dolu uçurum kənarında hərəkət kimidir. Allah-təala süstlük və gücsüzlük səbəbi olan təfriqədən çəkinməyə çağırır: **"Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz."**[2] Başqa bir ayədə oxuyuruq: **"Birlikdə sülhə gəlin, şeytanın yolu ilə getməyin, çünki o sizin aşkar düşməninizdir."**[3]

## *HƏM BİRLİYİN, HƏM DƏ İXTİLAFLARIN SƏBƏBKARI ALİMLƏRDİR*

Şübhəsiz ki, xalq kütlələri alimlərə, təbliğatçılara və natiqlərə tabedirlər. Əgər alimlər həmrəy olub, təəssübdən, inaddan, mənəm-mənəmlikdən uzaq şəkildə, yalnız insanların hidayət və islahı üçün həqiqəti desələr və yazsalar, cəmiyyətdə parçalanma və bədbinlik olmaz. Amma alimlər cılız məqsədlərlə çıxış edəndə, təfriqəçi olanda müsəlmanların birliyinə və inkişafına ümid qalmır. Belə olsa, İslam ümməti heç vaxt vəhdət ləzzətini dadmayacaq, kimsə Allah istəyincə kamilliyə yetişməyəcək.

Bütün bunları nəzərə alaraq, Qur'ani-kərim hər kəsdən əvvəl alimləri birliyə çağırır, onları ixtilaf təhlükəsindən xəbərdar edir və cəhənnəm əzabı ilə qorxudur: **"Aşkar dəlillərdən sonra parçalanıb, ixtilaf törədənlərdən olmayın. Onları böyük əzab gözləyir. Bə'zi üzlərin ağ, bə'zi üzlərin qara olacağı gündə üzüqaralara deyiləcək: İman gətirdikdən sonra kafir oldunuz? Kafir olduğunuza görə əzabı dadın."**[4] Qur'an həqiqətin bəyanını, gözəl mübahisə və dəlilləri tə'rif

---

[1] "Ali-İmran", 103
[2] "Ənfal", 46
[3] "Bəqərə", 208
[4] "Ali-İmran", 105, 106

edir: **"De ki, haqlısınızsa, dəlilinizi gətirin."**[1] İnsanlar gözəl nəsihətə təşviq olunur: **"İnsanlarla gözəl şəkildə mübahisə et"**[2]. Amma həqiqət aşkarlandıqdan sonra davam edən ixtilaf çirkin nəfs istəklərindən doğur və bu ixtilafın məs'uliyyəti alimlərin üzərinə düşür: **"Kitab verilmiş şəxslər haqqı bildikdən sonra paxıllıq səbəbindən ixtilafa başladılar."**[3]; **"Onlar yalnız bildikdən sonra həsəd səbəbindən ayrıldılar."**[4]

Hamıya aydındır ki, zülm, təcavüz, parçalanma İslam dünyasını heç vaxt səadətə aparmayacaq. Ona görə də nüfuz sahibi olan alimlər müsəlmanlar arasında vəhdət yaratmaq üçün çalışmalı, bu birliyin tə'mini üçün şübhə yaradan suallara cavab verməli, təfriqə doğuracaq söhbətlərdən çəkinməlidirlər. Əlbəttə ki, alimlər həqiqəti gizlətməməlidirlər. Həqiqəti gizlətmək xalqı azğınlığa düçar edir. Alimlər təfriqəyə yol vermədən həqiqəti bəyan etməli, xalqı aydınlığa çıxarmalıdırlar.

Əlinizdəki kitabda təfriqəyə səbəb olacaq söhbətlərdən çəkinərək, həqiqəti dəlillərlə, gözəl şəkildə bəyan etməyə çalışmışıq. Suallara imkan daxilində səliqəli və məqbul mənbələr əsasında cavab verməyə sə'y göstərilib. **"Əfv edib vaz keçsinlər. İstəmirsinizmi Allah sizi bağışlasın?!"**[5]

## *SUAL - CAVABLAR*

**Sual 1:** Nə üçün biz şiələr dəstəmazda üzü yuduqdan sonra qolları yuxarıdan aşağıya yuyur və ovcumuzdakı dəstəmaz suyu ilə (təri) ilə başın qabağına məsh çəkirik, ayaqlarımızın üstünə də əlimizdə qalmış dəstəmaz təri ilə məsh edirik; amma sünnilər bizdən fərqli olaraq, (bə'ziləri) başa qulaqlarla birlikdə məsh edir, ayaqları isə məsh əvəzinə yuyurlar?

---

[1] "Bəqərə", 111
[2] "Nəhl", 125
[3] "Ali-İmran", 19
[4] "Şura", 14
[5] "Nur", 22

**Cavab:** On iki imamçı şiələrlə sünnilər arasında bə'zi vacib dəstəmaz hökmlərində fərq var:

1.Şiə fiqhində üzü yuxarıdan aşağıya yumaq vacibdir. Bə'ziləri üzün yuxarıdan aşağıya yuyulmasını ehtiyat hesab edir.[1] Amma sünnə əhli yekdil olaraq belə hesab edir ki, üzü yuxarıdan aşağı yumaq müstəhəbdir.[2]

2.Bizim fiqhdə qolları (dirsəkdən aşağı) yuxarıdan aşağıya yumaq vacibdirsə, sünnilər yekdil olaraq bildirirlər ki, insan əlləri yuxarıdan aşağıya və ya aşağıdan yuxarıya yumaqda azaddır, eləcə də, aşağıdan (barmaqların başından) yuxarıya yumaq müstəhəbdir.[3]

3.Bizim fiqhdə başın qabağını məsh etmək vacibdir. Amma bu barədə sünnilər arasında fikir ayrılığı var. Bildiyiniz kimi, sünni məzhəbi maliki, hənbəli, hənəfi, şafei olmaqla dörd qrupa bölünür.

Hənbəlilərin fikrincə, bütün başa qulaqlarla birlikdə məsh edilməlidir. Onlar qulaqları başa aid edir və bu barədə rəvayət də göstərirlər.[4]

Hənəfilərin fikrincə, başın dörddə birini məsh etmək vacibdir.

Şafeilərin əqidəsinə görə, hər nə qədər olsa başın bir hissəsinə məsh çəkmək vacibdir.[5]

Sünnilərin bə'ziləri isə belə hesab edirlər ki, məsh əvəzinə baş yuyulsa və ya ona su tökülsə, kifayət edər.[6]

---

[1] "Urvətül-vusqa", dəstəmazın əməlləri fəsli

[2] "Əl-fiqh ələl məzahibil-xəmsə", s. 35, "Əl-fiqh ələl məzahibil-ərbəə" 1-ci cild, fəraizul vuzu səh. 54. "Səlatul-mumin", əl-Qəhtani,, Əl-qəhtani c. 1, s.41-42.

[3] "Əl-fiqh ələl məzahibil-xəmsə", s. 35, "Əl-fiqh ələl məzahibil-ərbəə" 1-ci cild, səh. 65. "Səlatul-mumin", əl-Qəhtani,, Əl-qəhtani c. 1, s.41-42.

[4] "Səlatul-mumin", əl-Qəhtani,, Əl-qəhtani c. 1, s.45.

[5] "Əl-fiqh ələl məzahibil-xəmsə", s. 36-37, "Əl-fiqh ələl məzahibil-ərbəə" 1-ci cild, fəraizul vuzu səh. 53. "Səlatul-mumin", əl-Qəhtani,, Əl-qəhtani c. 1, s.42-46.

[6] həmin mənbə

4.Şiə fiqhinə görə ayaqların üstünə məsh çəkmək vacibdirsə, sünnilər yekdil olaraq ayaqların yuyulmasını vacib hesab edirlər.[1]

Beləcə, şiələrlə sünnilər arasında dörd məsələdə fikir ayrılığı var:

1.Biz üzün yuxarıdan aşağıya yuyulmasını vacib bilir, onlar isə müstəhəb hesab edirlər. Bizim dəlilimiz Peyğəmbərin (s) dəstəmazda üzünü yuxarıdan aşağıya yumasını bildirən rəvayət və imamın (ə) əmrini çatdıran hədisdir: "Üzünüzü yuxarıdan aşağıya yuyun"[2].

Sünnə əhli isə bildirir ki, "fəğsilu vucuhəkum"( "üzünüzü yuyun") ayəsi[3] üzü yumağı əmr etmiş və yuxarıdan aşağıya yumaq məsələsinə toxunmamışdır. Onların fikrincə, üzün necə yuyulması barədəki rəvayətlər bu hökmü vacib yox, müstəhəb edə bilər.

2.Biz əlləri yuxarıdan aşağıya yuyulmasını vacib bilir, onlar isə müstəhəb hesab edirlər. Bu hökm üçün dəlilimiz həzrət Peyğəmbərin (s) dəstəmazda əllərini yuxarıdan aşağıya yumasını nəql edən rəvayət və imamın (ə) uyğun ayənin təfsiri zamanı bir buyuruğudur: "Əllər yuxarıdan aşağıya yuyulmalıdır."[4]

3.Biz başa məsh edilməsini vacib və müəyyən bilirik. Sünnilər isə hətta öz aralarında bu barədə fərqli əqidədədirlər. Başın qabaq hissəsinin bir miqdarına məsh çəkilməsi barədə rəvayətlərdən birində Zürarə imam Baqirdən (ə) soruşur: "Başın və ayaqların bir hissəsinə məsh çəkilməsini haradan bilirsiniz?" İmam buyurur: "Ey Zürarə bu hökmü Allahın Rəsulu (s) buyurmuş və bu barədə ayə nazil olmuşdur. Allah "üzünüzü yuyun" buyurduqdan sonra sözünə davam edərək "başınıza məsh edin" əmr etmişdir. "Bi ruusikum" kəlməsinin əvvəlindəki

---

1 həmin mənbə
2 "Vəsailüş-şiə", 15-ci fəsil, hədis-22.
3 "Maidə", 6
4 "Vəsailüş-şiə", 19-cu fəsil, hədis-1.

"bi"-hərfindən başa düşürük ki, məsh başın bə'zi hissəsinə aiddir."

Beləcə, ayənin özündən də mə'lum olur ki, başın bir hissəsinə məsh vacibdir. Amma sünnə əhli uyğun ayəni fərqli anladığından öz aralarında ixtilafa düçar olmuşlar. Onlardan bə'ziləri belə bir rəvayət nəql edirlər ki, həzrət Peyğəmbər (s) əlini qabaqdan arxaya və təkrar arxadan qabağa gətirməklə bütün başa məsh çəkirmiş.[1] Başqa bir rəvayətdə isə qulaqların da başdan hesab edildiyi bildirilir.[2] Digər bir rəvayətdə isə şəhadət (səbbabə) barmağın qulağa daxil edilib, orta barmağı qulağa çəkmək lazım bilinir.[3] Amma bu hökm müstəhəb hesab edilir.

Uyğun ayədən görünür ki, üzün yuyulması ilə başa məsh çəkilməsi arasında əsas fərq "bi"-hərfidir. Sünni alimlərindən bir çoxu "bi" hərfini "bə'zi" mə'nasında qəbul etsələr də, bə'zi alimlər həmin mə'nanı təsdiq etmirlər.[4]

4.Şiələr ayaqlara məsh çəkilməsini vacib bilirlərsə, sünnilər yekdil şəkildə ayaqların yuyulmasını vacib hesab edirlər.

İstinad etdiyimiz ayəyə bir daha nəzər salaq. "Maidə", 6: "ya əyyuhəlləzinə amənu iza qumtum iləs-səlati fəğsilu vucuhəkum və əydidəkum iləl-mərafiqi vəmsəhu biruusikum və ərculəkum iləl-kə'bəyn." Ayənin tərcüməsi: "Ey iman gətirən kəslər namaza durduğunuz vaxt üzünüzü və dirsəyədək əlinizi yuyun; başınıza və dikinədək ayağınıza məsh çəkin." Şiələr ayəni yuxarıdakı kimi tərcümə etmişlər. Amma sünnilər belə hesab edirlər ki, "yuyun" əmri baş və ayağa da aiddir. Ona görə də ayəni belə tərcümə edirlər: "Üz və əllər kimi ayaqlarınızı da yuyun." Cavab olaraq deməliyik ki, ayədə yuyun əmri yalnız üz və əllərə aiddir. Ərəb dilinin qrammatikasından xəbərdar olanlar deyilənləri daha yaxşı anlaya bilərlər.

---

1 "Səhihe-Buxari", h.185, Səhihe-Müslim, hədis-235.
2 "Səlatul-mumin, əl-Qəhtani", cild -1, s.45
3 həmin mənbə, s. 42
4 "Əl-fiqh ələl məzahibil-xəmsə", c. 1, s. 65.

**Sual 2:** Nə üçün şiələr gündəlik (yovmiyyə) namazları üç vaxtda, sünnilər isə beş vaxtda qılırlar?

**Cavab:** Həqiqətən də, gündəlik namazların beş vaxtda qılınması bildirilmişdir və həzrət Peyğəmbər (s) çox zaman namazlarını beş vaxtda qılmışdır. Şiə fiqhinə görə də namazı beş vaxtda qılmaq fəzilətlidir. Amma "Səhihe Müslim"[1] və "Səhihe Buxari"[2] də göstərildiyi kimi, həzrət Peyğəmbər (s) bə'zən günorta və ikindi, eləcə də, şam və xiftən namazlarını ardıcıl qılmışdır. Sünnilərin "Töhfətul-ixvan" adı ilə tanınmış kitabında da bu rəvayət nəql olunur: "İbn Abbasdan soruşdular ki, nə üçün Peyğəmbər (s) günorta və ikindi, şam və xüftən namazlarını bir yerdə qıldı? İbn Abbas dedi: Allahın rəsulu öz ümmətindən bir nəfərin də əziyyət çəkməməsini istədi."[3]

**Sual 3:** Nə üçün şiələr sübh namazı üçün yalnız fəcr tülusu zamanı, sünnilər isə həm tüludan bir saat əvvəl, həm də tülu vaxtı azan verirlər?

**Cavab:** Şiə fiqhində bütün hökmlər Qur'ana, Peyğəmbərin (s) göstərişi və əməllərinə əsaslanır. Fəqihlər bütün bu bilikləri mə'sum Əhli-beyt (ə) vasitəsi ilə əldə edirlər. Kimsə öz təsəvvürünə və istəyinə əsasən ibadət ixtira edə bilməz. Şiə fəqihlərinin əlində tüludan qabaq azan vermək barədə heç bir dəlil yoxdur və bu işi bid'ət, haram sayırlar. Amma sünnilər öz kitablarındakı bə'zi rəvayətlərə[4] əsaslanaraq, tüludan qabaq azan verir və bildirirlər ki, bu azan obaşdanlığa durmaq, gecə namazı qılmaq, qüsl vermək istəyənləri oyatmaq üçündür.[5]

**Sual 4:** Nə üçün biz şiələr azan və iqamədə "əşhədu ənnə əmirəlmö'moninə əliyyən vəliyyullah" deyirik və sünnilər bizə

---

[1] Babul-cəm`i beynəs-səlateyni, hədis 705, səh-314.

[2] Səhih Buxari, kitabul Məvaqit, babu tə`xiriz-zöhri iləl əsri, hədis 543 və babul vəqtil-məğrib, hədis 562 və əbvabut-tətəvvui, fəsl 30, hədis 1174.

[3] "Töhfətul-ixvan", Ben Baz, s. 174

[4] Səhih Buxari, Kitabul əzan, bab 13, əl-əzan qəbləl fəcr, hədis 621.

[5] "Səlatul-mumin", əl-Qəhtani,, əl-Qəhtani, c. 1, s.149 və əl-fiqhu ələl məzahibil ərbəəti, cild 1, şürutil əzan, səh-314.

e'tiraz edərək soruşurlar ki, məgər Allahın vəlisi (imamı, tə'yin etdiyi rəhbər) var?

**Cavab:** Şiə fiqhində belə bir rəvayət var ki, tövhid və həzrət Məhəmmədin (s) risalətinə şəhadət veriləndə həzrət Əlinin (ə) vilayətinə (imamlığına) də şəhadət verilsin. Rəvayətlərdən mə'lum olur ki, əvvəlki iki şəhadət üçüncüdən ayrı deyil və bu şəhadətlər arasında bağlılıq var. Azan və iqamə haqqındakı rəvayətlərdə bunun tə'kid olunmaması, zahirən, onun qeyri-zəruriliyi ilə yox, hansısa bir maneə ilə bağlıdır. Bütün bunlara baxmayaraq, imamət və vilayətə şəhadət şiələrin əsas şüarlarındandır və on iki imamçı şiələr lap qədimdən bu şüarla tanınmışlar.

"Tövzihil-məsail" risaləsində buyurulduğu kimi, həzrət Əlinin (ə) vilayətinə şəhadət vermək azan və iqamənin tərkib hissəsi deyil. Biz şiələr bu şəhadəti vacib hesab etməklə deyil, təbərrük məqsədi ilə deyirik. Əlinin (ə) vilayətinə şəhadət verməyimizin mə'nası budur ki, Məhəmməd (s) Allah tərəfindən peyğəmbər seçildiyi kimi, Əli (ə) də Allah tərəfindən imam seçilmişdir.

Amma sünnə əhli vilayət və imamət inancına müxalif olub, Əlinin (ə) imamətini təsdiq edəcək sözləri dilə gətirmirlər. Çoxlarına hətta başqa mə'nalar bildirən "əli" kəlməsini işlətmək ağır gəlir. Şiələr Qur'an tilavətini başa çatdırdıqda "sədəqəllahul-əliyyul-əzim" deyirlər. "Bəqərə" surəsinin 255-ci ayəsindəki "huvəl-əliyyul-əzim" – "Odur ən uca və böyük varlıq" ifadəsində "əliy" Allahın ucalıq sifətini bildirir və həzrət Əli (ə) ilə heç bir əlaqəsi yoxdur. Buna baxmayaraq, "əli" sözündən çəkinərək sünnilər hətta Qur'an tilavətindən sonra "sədəqəllahul-əzim" deyirlər.

## *MƏSCİDÜN-NƏBİDƏ AZAN*

"Məscidün-nəbi" Mədinə şəhərindəki Peyğəmbər (s) məscididir. Bu məsciddə böyük şiə alimlərindən biri, sünnə əhli camaat namazını başa vurduqdan sonra azançıya şiələr kimi azan verməsini buyurur. Bu vaxt bir qrup şiə də həmin alimin arxasında namaz üçün dayanır. Azançı "əşhədu ənnə

əmirəlmö'kininə əliyyən vəliyyullah" dedikdə məscid mə'murları onu tutub aparmaq istəyirlər. Alim bu işə mane olub, azançının günahkar olmadığını bildirir və məscidin böyüklərini tələb edir. Məscidin böyükləri gəldikdə şiə alimi deyir: "Biz şiələrin müstəqil fiqhi (şəriət qanunları) var və öz qanunlarımıza əməl edirik. Bizim fiqhimizə görə, həzrət Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verdikdən sonra təbərrük olaraq həzrət Əlinin (ə) imamətinə də şəhadət verə bilərik. Biz öz fiqhimizə əməl edirik. Siz də bunun əvəzinə Əbubəkr və Ömərin haqqına şəhadət verin!" Mə'murlar şiə aliminin bu sözlərini təbəssümlə qarşılayıb, ondan uzaqlaşırlar.

## *BİR MÜBAHİSƏ*

Məscidün-nəbidə bir misirli sünni mənə dedi: "Siz şiələr "əliyyən vəliyyullah" deyirsiniz. Məgər Allahın vəliyə (imama, rəhbərə) ehtiyacı var?" Cavabında dedim: "Siz "Muhəmmədən rəsulullah" demirsinizmi?" Bildirdi ki, deyirik. Dedim ki, məgər Allahın rəsula (elçiyə) ehtiyacı var? Dedi: "Biz o mə'nada deyirik ki, Məhəmmədin (s) Allah tərəfindən risaləti var." Dedim: "Əliyyən vəliyyullah"-ın da mə'nası budur ki, Əlinin (ə) Allah tərəfindən imaməti var və sizin də kitablarda buna oxşar sözlərlə qarşılaşırıq. Məsələn, Buxarinin "Səhih"ində bildirilir ki, Ömər "mən Əbu-Bəkrin vəlisiyəm" demişdir. [1] Mə'lumdur ki, ölünün vəliyə ehtiyacı yoxdur. Ömər demək istəmişdir ki, o Əbu-Bəkr tərəfindən vəli, yə'ni rəhbər tə'yin olunmuşdur. Bunu da qeyd edək ki, Əbu-Bəkr və Ömərin xalqa rəhbər tə'yin etmək səlahiyyəti yox idi. Əbu-Bəkr hansı ixtiyarla xalqa vəli seçməli idi?

Şiələrin əqidəsinə görə, Əli (ə) Allah tərəfindən Peyğəmbərin (s) vasitəsi ilə imamət və rəhbərliyə tə'yin olunmuşdur. Əslində sünnilər Öməri Peyğəmbərin yox, Əbu-Bəkrin xəlifəsi kimi tanımalı və "şəhadət verirəm ki, Ömər Əbu-Bəkrin vəlisidir" deməlidirlər. Əgər belə demirsinizsə, (sünniyə müraciətlə dedim) Ömərin rəhbərliyini inkar edirsiniz."

---

[1] "Səhihe Buxari", xüms kitabı, s. 513

Həmsöhbətim gülümsündü və "Səhihe Buxari"dən gətirdiyim dəlil müqabilində bir söz deyə bilmədi. "Bəs Əlinin (ə) Allah tərəfindən tə'yin olunmasına dəliliniz nədir?" –deyə soruşdu. Bildirdim ki, dəlilimiz çoxdur. Nümunə olaraq bir Qur'an ayəsini misal çəkdim: **"Sizin vəliniz (rəhbəriniz) yalnız Allah, Onun rəsulu və iman gətirib namaza duran, rüku halında zəkat verənlərdir."**[1]

İstər şiə, istər bir çox sünni təfsirçiləri bildirirlər ki, rüku halında üzüyünü fəqirə verən Əlidir və bu ayə onun haqqında nazil olmuşdur.[2] Əllamə Əmininin "Əl-ğədir", Şərəfüddin Amilinin "Əl-müraciat" kitabına baxa bilərsiniz. Sonra həzrət Əlinin (ə) vilayətini sübut edən hədislər misal çəkdim. Həmsöhbətim mübahisəni davam etdirməyə meylli olsa da, onun yoldaşı "daha kifayət edər" deyib, əlindən tutdu və xudahafizləşib getdilər.

**Sual 5:** Nə üçün biz də sünnilər kimi sübh azanında **"əssəlatu xəyrun minənnovm"** demirik?

**Cavab:** Şiə fiqhində və Əhli-beyt (ə) rəvayətlərində belə bir cümlə barədə mə'lumat olmadığından onu azanda deməк caiz deyil, bid'ətdir. Amma bə'zi qeyri-mö'təbər sünni mənbələrində bildirilir ki, həzrət Peyğəmbər (s) azanı öyrədərkən sübh namazında bu cümlənin deyilməsini əmr etdi.[3] Bə'zi rəvayətlərdə isə bu cümlənin Ömər və onun oğlu Əbdullah tərəfindən azana artırıldığı bildirilir.[4] Ən əsası isə sünnilərin "Səhihe Buxari", "Səhihe Müslim" kimi mö'təbər kitablarında bu barədə heç bir mə'lumat verilmir.[5] Dörd sünni məzhəbi yekdil olaraq azanda bu cümlənin deyilməsini müstəhəb hesab edir.[6]

---

[1] "Maidə", 5
[2] "Təfsire Dürrül-Mənsur"
[3] "Töhfətul-ixvan", Ben Baz, Əbdül Əziz ben Əbdüllah ben Baz, s. 79
[4] "Əl-əzan", Əbi Hatəm, s. 45
[5] Səhihe Müslim, Kitabus-səlati, babu sifətil-əzani, hədis 379. Səhih Buxari, Kitabul əzan.
[6] "Əl-fiqh ələl məzahibil-ərbəə", c.1, s. 312.

Bəli, sünnə əhli öz fiqhini Peyğəmbər Əhli-beytindən (ə) götürmədiyi üçün bir çox xətalara düçar olmuşdur. Allah-təala hər kəsi həqiqi Peyğəmbər (s) sünnəsinə müvəffəq etsin.

**Sual 6:** Nə üçün sünnilər də bizim kimi azanda "həyyə əla xəyril-əməl" demirlər?

**Cavab:** Şiələr öz ibadət üsulunu Peyğəmbər (s) Əhli-beytindən öyrənir. Şiə fiqhinin müraciət etdiyi rəvayətlərdə iki dəfə "həyyə əla xəyril-əməl", yə'ni "əməllərin ən xeyirlisinə (namaza) tələs" deyilməsi zəruri bilinir. Sünnilərdə də belə bir rəvayət var, amma onlar bu rəvayəti zəif hesab edir və azanda həmin cümləni işlətmirlər.[1]

Bəli, şiələr peyğəmbər sünnəsini onun Əhli-beytindən öyrənirsə, sünnilər bu sünnəni kənar şəxslərdən əxz edirlər.

**Sual 7:** Nə üçün şiələr həzrət Peyğəmbərin adı çəkiləndə salavat deyir, sünnilər isə demirlər?

**Cavab:** Qur'anda buyurulur: **"Həqiqətən, Allah və onun mələkləri peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər, siz də ona salavat göndərin və layiqincə salamlayın."** [2] Bu ayədən əlavə bir çox rəvayətlərdə müsəlmanlara tapşırılır ki, həzrət Peyğəmbərin (s) adı, ləqəbi və künyəsi deyilərkən salavat göndərsinlər. Sünnilərin ən mö'təbər kitablarından olan "Səhihe Müslimdə" nəql olunur ki, həzrət Peyğəmbər buyurdu: "Müəzzin azan deyəndə azanın cümlələrini onun kimi deyin və mənə salavat göndərin. Həqiqətən, mənə salavat göndərən kəsə Allah on salavat göndərər."[3]

Buna əsasən də şiələr Peyğəmbərin (s) adı çəkilərkən ona salavat göndərməyi özlərinə vəzifə bilirlər. Sünnə əhli isə hətta azanda Peyğəmbərin adı çəkilərkən salavat çəkməməklə savabdan məhrum olurlar. Bu məhrumiyyət Əhli-beytdən uzaq düşənlərin cəzasıdır.

---

[1] "Kitabul-əzan", Əbi Hatəm, s. 54-60.
[2] "Əhzab" surəsi, ayə 56.
[3] "Səhihe Müslim", namaz kitabı, s. 198

**Sual 8:** Nə üçün şiələr azan deyilən kimi ara vermədən namaza başlayır, sünnilər isə azandan sonra bir qədər səbr edib, namaz qılırlar? Məgər azan deyiləndə hələ namazın şər'i vaxtı olmur, yoxsa başqa bir səbəb var?

**Cavab:** Onların səbr etməsi nafilə namazının qılınması və namaz qılanların camaat namazına toplanması üçündür. Şiələr də nafilə namazı qıldıqda bu namazdan sonra vacib namazı qılırlar. Ümumiyyətlə, sünnə əhli namazın şər'i vaxtına kifayət qədər diqqətlidir.

İmam Sadiqə (ə) sual verdilər ki, sünnilərin azanı ilə namaz qılmaq olarmı? İmam (ə) buyurdu: **"Bəli, onlar namazın vaxtına çox diqqətlidirlər."**[1]

Bununla belə, azan deyilən kimi namaz qılmaq olar, çünki azan şər'i vaxtda deyilir. Sübh və günorta azanlarından fərqli olaraq, axşam (şam) azanına münasibətdə şiələr və sünnilər arasında ixtilaf var. Sünnilərin nəzərincə, şam namazının və iftarın vaxtı günəş batanda çatır. Ona görə də günəş batan kimi azan deyirlər. Amma şiə fəqihlərinin nəzərincə, günəş batandan sonra şərqdəki qızartı insanın başı üstən keçdikdən sonra azan vaxtı olur. Beləcə, sünnilər şam azanı dedikdə biz namaz qıla bilmərik. Onların azanından təqribən 12 dəqiqə sonra namaz qılıb, iftar edə bilərik.

**Sual 9:** Nə üçün şiələr camaat namazında qabaq cərgədə yer olduğu halda arxada və ya tək dayanıb namaz qılırlar? Sünnilər isə həmişə cəm halda dayanır və şiələrin bu hərəkətinə e'tiraz edirlər...

**Cavab:** Şiə fiqhinə görə, sıralarda yer olduqda tənha dayanmaq məkruhdur (bəyənilmir) və namazın savabını azaldır. Eləcə də, müstəhəbdir ki, sıralar nizamlı olsun, çiyin-çiyinə dayananlar arasında məsafə qalmasın. Sünnilər isə bu işləri vacib sayır, bə'zən isə tənha duranların namazını batil hesab edirlər.

---

[1] "Vəsailüş-şiə", c. 5, s. 378, bab 3, hədis 1.

Bunu da qeyd etməliyik ki, hənbəli məzhəbinə görə, kişilərə gündəlik namazı məsciddə camaatla qılmaq vacibdir, hətta üzrsüz olaraq camaat namazında iştirak etməyənlər cəzaya layiqdirlər.[1] (Mə'lum olduğu kimi, vəhhabilər adətən özlərini hənbəli hesab edirlər). Eləcə də, camaatdan arxada tənha dayanan kəsə qarşı şübhə yaranır ki, bu şəxs camaat namazında iştirak etmir.

Bir daha qeyd edək ki, mö'minlər namaz qaydalarına əməl etməli, namazın savabını azaldacaq işlərə yol verməməli, məzhəbə qarşı mənfi fikir yaratmamalı, qabaq sırada yer olarkən ayrıca sıra təşkil etməməli, tənha dayanmamalıdırlar.

### *YADDAŞ*

Mə'lum oldu ki, sünnə əhli camaat namazında iştirakı vacib sayır, onun qaydalarına xüsusi diqqət yetirir, camaat namazının saymazlıq üzündən tərk edilməsini böyük günah hesab edir. Şiələr də çalışmalıdırlar ki, Məscidül-haram və Məscidün-nəbidə qat-qat artıq savaba malik namazlara hazır olub, azan vaxtı hamı məscidə tələsdiyi zaman dükan-bazarda gəzməsinlər. Bu namazlarda iştirak etmək istəməyənlər göz qabağında qalmasalar daha yaxşıdır.

**Sual 10:** Nə üçün sünnilər namazda həmd və surənin əvvəlində "bismillahir-rəhmanir-rəhim" demir və ya asta deyirlər?

**Cavab:** Şiələrin əqidəsinə görə, "Bismillahir-rəhmanir-rəhim" Qur'an surələrinin tərkib hissəsidir. "Tövbə" surəsindən başqa bütün surələr "bismillahir-rəhmanir-rəhim"lə başlayır. Əgər həmd və surəni "Bismillahir-rəhmanir-rəhim"siz başlasaq, surə natamam olar.

Bu məsələdə sünnilərin bir qismi şiələrlə həmfikirdirlər. Sünnilərin bə'ziləri isə yalnız "Nəml" surəsinin "Bismillahir-rəhmanir-rəhim"lə başladığını qəbul edir. Malikilər isə belə düşünürlər ki, ümumiyyətlə, namazda "Bismillahir-rəhmanir-

---

[1] "Töhfətul-ixvan", Ben Baz, s. 96 və "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1 səh-405.

rəhim" deyilməməlidir.[1] Beləcə, dörd sünni məzhəbini təşkil edən malikilər uyğun ifadəni namazda işlətmir, hənəfilər ya demir, ya da astadan deyir, şafeilər ucadan deyir, hənbəlilər ucadan demirlər.[2] Belə bir nəticəyə gəlirik ki, sünnilər arasında namaz qılarkən "bismillahir-rəhmanir-rəhim" demək təqiyyəyə zidd deyil.

**Sual 11:** Nə üçün şiələr namazda əllərini yana salır, sünnilər isə qarşı tərəfdən üst-üstə qoyurlar?

**Cavab:** Şiə fiqhində sübut olunub ki, həzrət Peyğəmbər (s) və mə'sum imamlar (ə) namazda əllərini yana salmışlar. Əhli-beyt rəvayətlərində əlləri üst-üstə qoymaq qadağan edilir. İmam Baqir (ə) bir şəxsə buyurur: "Əllərini üst-üstə qoyma, çünki atəşpərəstlər belə edirlər."[3]

Rəvayətlərdə bildirilir ki, namaz halında əlləri budların üzərinə qoymaq müstəhəbdir. Əgər bir şəxs əlləri üst-üstə qoymağı namaz qaydası bilərək belə edərsə namazı batil olar. Bu məsələdə sünnilər arasında cüz'i fərqlər də olsa, onların əksəriyyəti bu işi müstəhəb hesab edir. "Səhihe Buxari" və "Səhihe-Müslim"də [4] bu barədə cəmi bir rəvayət nəql olunmuşdur. Rəvayətdə bildirilir ki, həzrət Peyğəmbər (s) qiraət halında olarkən sağ əlini sol əlinin üstünə qoymuşdur. Sünnilərin bə'zisi əlləri sinənin üstündə, bə'ziləri isə göbəkdən aşağı üst-üstə qoymağı zəruri bilirlər.[5] Sünnə əhli belə hesab edir ki, əlləri üst-üstə qoymaq Allah qarşısında təvazö və kiçiklik əlamətidir. Onlar Allahdan qeyrisinin qarşısında əlin sinəyə qoyulmasını caiz hesab etmirlər.[6] Bə'ziləri isə belə hesab

---

[1] "Misbahul-munir", Həmd surəsinin təfsiri.
[2] "Səhihe-Müslim", namaz kitabı, s.204
[3] "Vəsailüş-şiə"
[4] Səhih Buxari, Kitabul əzan, səh-120, Səhih Müslim, Kitubs-səlati, səh-205, hədis 401.
[5] "Töhfətul-ixvan", Ben Baz, Ben Baz, s. 82, sual 25.
[6] "Fəzlul-Mədinə", Əbdül Möhsin ben Həmdül İbad s. 43

edirlər ki, əllər qəlbi (ürəyi) qorumaq məqsədi ilə üst-üstə qoyulur. Malikilər isə namazda şiələr tək əllərini yana salırlar.[1]

**Sual 12:** Nə üçün həmd surəsindən sonra sünnilər "amin" deyir, biz isə demirik?

**Cavab:** İslam hökmlərinə görə şəriətə nə isə artırıb azaltmaq olmaz. Həmddən sonra Peyğəmbər (s) və imamların "amin" deməsi barədə sübut olmuş xəbər yoxdur. Amma mö'təbər bir rəvayətdə imam Sadiq (ə) buyurur: **"İmamın arxasında namaz qıldığınız vaxt o, həmdi oxuduqdan sonra "amin" yox, "əlhəmdulillahi rəbbil-aləmin" deyin"**[2]

Şiə fiqhində "amin" kəlməsi namazın mətnindən sayılmır. Bu kəlməni mətndən sayaraq deyən kəs bid'ətə yol verir və namazı batil edir. Sünnə əhli isə öz kitablarındakı rəvayətlərə əsaslanaraq "amin" deyilməsini müstəhəb sayır və deyirlər ki, Peyğəmbər (s) bu işi özü görmüş və digərlərinə də əmr etmişdir. Qeyd ektmək lazımdır ki, onlar bu sözü Həmd surəsinin bir növ dua olması və ya duanın qəbulu üçün demirlər. Bu iş təkcə Əbu Hüreyrənin hədisinə istinadən yerinə yetirilir.[3]

**Sual 13:** Nə üçün camaat namazının birinci və ikinci rək'ətlərində yalnız imam, bə'zi sünnilərdə isə iqtida edənlər də həmd oxuyur?

**Cavab:** Şiə fəqihləri yekdil olaraq bu fikirdədirlər ki, camaat namazında əvvəlki iki rək'ətdə yalnız imamın həmd oxuması kifayətdir. Bu məsələyə münasibətdə sünnilər arasında fikir ayrılığı var. Bütün Ərəbistanın müftisi Əbdullah ibn Baz deyir: "Camaat namazında iqtida edənə (mə'muma) həmd oxumaq vacibdir." Şafeilər də belə hesab edir. Malikilər iqtida edənlərin həmd oxumasını günorta və ikindi namazında müstəhəb, şam və xüftən namazında isə məkruh sayırlar. Hənəfilər isə ümumiyyətlə iqtida edənin həmd oxumasını məkruh bilir. Hənbəlilər isə bildirirlər ki, həmd oxumaq günorta və ikindi

---

[1] "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1, s. 231

[2] "Vəsailüş-şiə", fəsil 17, hədis 1.

[3] "Əl-misbahul-munir", Həmd surəsinin təfsiri, Səhih Buxari, Kitabul əzan, fəsil 111, hədis 780.

namazlarında müstəhəb, şam, xüftən və sübh namazlarında imamla birlikdə oxumaq məkruhdur.[1] "Səhihe Buxari" və "Səhihe Müslim"də də namazın hər rək'ətində həmd oxumağın vacibliyini bildirən rəvayətlər var.[2] Sünnə əhli arasındakı bu ixtilaf səbəbindən onların camaat namazında kimi həmdi ucadan oxuyur, kimi astadan deyir, kimisi də susur.

### *YADDAŞ*

İqtida etmək istəməyən şəxslər deyilənləri nəzərə alaraq, onlar kimi namaza daxil olub, həmdi də onlar kimi deyə bilərlər. Belə olsa, həm təqiyyə saxlanılar, həm də e'tiraz bildirilməz.

**Sual 14:** Nə üçün şiələr yovmiyyə namazlarında həmddən sonra surəni tam oxuyur, sünnə əhli isə hər hansı surədən bir neçə ayə oxumaqla kifayətlənirlər?

**Cavab:** Şiələr mö'təbər rəvayətlərə və fəqihlər icmasının rə'yinə görə həmddən sonra hər hansı surəni tam oxuyurlar. Sünnə əhlinin fikrincə, rəvayətlərdən surəni tam oxumaq zərurəti hasil olmur.[3] Ona görə də onlar bə'zən bütöv surə, bə'zən də bir neçə ayə oxuyurlar.

**Sual 15:** Nə üçün şiələr möhürə, daşa, torpağa və ya həsirə səcdə edir, sünnilər isə bunu zəruri saymırlar?

**Cavab:** Şiə fəqihləri həzrət Peyğəmbər (s) və imamların buyuruqlarına əsasən fətva vermişlər ki, səcdə edilən şey ya torpaq, ya da torpaqdan göyərən və yeməli, geyməli olmayan, mə'dəndən çıxmamış şey olmalıdır. Bir sözlə xalı-xalça və digər dünya malları insanın diqqətini cəlb etdiyindən onun ixlasını azaldır. Belə şeylərə səcdə qadağandır.[4] Möhür heç bir xüsusiyyətə malik olmadığından və onu gəzdirməklə təmizliyə riayət etmək mümkün olduğundan onunla namaz qılmaq münasib bilinmişdir. Şiəlikdə möhürdən əlavə daşa, mərmər döşəməyə, ağaca, həsirə kağıza, gil təsbehə səcdə etmək caizdir.

---

[1] "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1, s. 228
[2] "Kitabul-əzan", h. 756
[3] "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1, s. 254
[4] "Vəsailüş-şiə", fəsil 1, hədis 1.

Sünnilər isə hər şeyə, eləcə də xalçaya səcdə etməyi düzgün sayırlar. Onlarda da səcdə yerinə aid şərtlər var. Məsələn, səcdə yeri quru olmalı, yumşaq olmamalıdır.[1]

Məscidün-nəbidə bir vəhhabi dedi: "Nə üçün şiələr məscidin daş döşəməli hissəsində namaz qılırlar? Məgər behişt oradadır." Cavabında dedim: Əvvəla, şiələr öz fəqihlərinin fətvasına əsasən daş döşəmə üzərində namaz qılırlar. İkincisi, siz də belə etməlisiniz, çünki mö'təbər kitabınız olan "Səhihe Buxari"də nəql olunur ki, Allahın Rəsulu (s) buyurmuşdur: "Yer mənim üçün səcdə və təyəmmüm yeri qərar verilmişdir."[2] Amma sizin üstündə namaz qıldığınız xalılar yer deyil və siz Allahın rəsulunun göstərişinə əməl etmirsiniz. Bundan əlavə xalılar daim ayaq altında olduğundan onlara səcdə etmək sağlamlığa zərərdir. Mən əlimdəki gil təsbehə səcdə edərəm, amma o çirkli xalçaya yox. Siz də ona səcdə etməyin.

Həmsöhbətim gülümsünüb dedi: "Bizim fiqhimizdə xalıya səcdə etmək caizdir."

Soruşdum ki, əgər bu xalılar yaş olsa, ona səcdə edərsənmi? Bildirdi ki, xeyr, quru bir tərəfə gedərəm. Dedim ki, məgər həmin quru yer behiştdir?! İşarəmi başa düşüb gülümsündü. Soruşdu ki, bəs nə üçün bə'zi şiələr xalıya səcdə edir? Dedim: onlar siz vəhhabilərin qorxusundan belə edirlər. Bə'zi şiə fəqihlərinin fətvasına görə vəhdəti qorumaq, təfriqədən çəkinmək məqsədi ilə Məkkə və Mədinə kimi yerlərdə xalıya səcdə etmək olar.

Bu izahımdan xoşhal olan həmsöhbətim dedi: "Mən vəhhabi deyiləm, malikiyəm. İşin nə yerdə olduğunu bilmək istəyirdim." Sonra vəhhabilərə nifrətini bildirdi və dedi ki, onlar təəssübkeş və quru adamlardır.

**Sual 16:** Nə üçün şiələr ikinci səcdədən sonra təşəhhüd olmadıqda bir qədər oturub, sonra qalxırlar, sünnilər isə "əllahu əkbər" deyib, dərhal dururlar?

---

[1] "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1, s. 232

[2] "Səhihe-Buxari", təyəmmüm kitabı, fəsil 1, hədis 335.

**Cavab:** Şiə fiqhində Peyğəmbər (s) və imamların ikinci səcdədən sonra oturması barədə mö'təbər rəvayətlər var. Bu rəvayəti əsas götürərək bə'zi fəqihlər bu işi vacib, bə'ziləri isə müstəhəb hesab edirlər. Amma sünnilər öz kitablarında belə bir rəvayətin olmasına baxmayaraq ikinci səcdədən sonra dərhal qalxırlar.[1] Müfti Əbdullah ibn Baz fətva vermişdir ki, ikinci səcdədən sonra azca oturmaq müstəhəbdir. O deyir: "Sübut olub ki, həzrət Peyğəmbər (s) ikinci səcdədən sonra azca oturar, sonra qalxarmış."[2] Bütün bunlara baxmayaraq, sünnə əhli uyğun qaydaya riayət etmir.

**Sual 17:** Nə üçün şiələr bütün namazlarda qunut tutduğu halda, sünnilər belə etmirlər?

**Cavab:** Şiə kitablarında qunutun müstəhəbliyi və fəzilətinə dəlalət edən mö'təbər rəvayətlər var. Peyğəmbər (s) və imamların (ə) qunut tutduğunu nəzərə alaraq şiələr bütün namazlarda qunut tuturlar.

Sünnə əhlinin mö'təbər mənbələrində də həzrət Peyğəmbərin (s) xüsusi ilə şam və xüftən namazlarında qunut tutduğu bildirilir.[3] Malikilər həmin rəvayəti əsas götürərək sübh namazında qunut tutmağı müstəhəb hesab edirlər.[4]

**Sual 18:** Nə üçün şiələr namazın təşəhhüdündə salavat göndərir, sünnilər isə yox?

**Cavab:** Sünnilər də kitablarındakı rəvayətlərə əsaslanaraq namazlarının təşəhhüdündə, meyit namazında, həzrət Peyğəmbərin (s) ziyarətində salavat göndərirlər.[5] Onlar deyirlər: "Duanın qəbul olma səbəblərindən biri onun sonunda Məhəmməd və onun ailəsinə salavat göndərməkdir.[6]

Xoşbəxtlikdən, biz şiələr başqa vaxtlar da salavat çəkirik və bu bizi tanıtdıran ilahi şüarlardandır. Qur'anın bu barədəki

---

[1] "Səhihe-Buxari", əzan kitabı, fəsil 143, s. 133, hədis 824.
[2] "Töhfətul-ixvan", Ben Baz, s. 38
[3] "Səhihe-Buxari", kitabul vətr, fəsil 7, hədis 1001-1004.
[4] "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1.
[5] "Səlatul-mumin", əl-Qəhtani,, əl-Qəhtani, c. 1, s.257
[6] "Təfsirul-əşrul-axir", s. 119

əmrini və rəvayətləri nəzərə alaraq istər namazda, istərsə də başqa vaxtlar salavat göndərilir. İmam Sadiq (ə) buyurmuşdur: "Salavat namazı tamamlaşdırır və onsuz namaz namaz deyil."[1] Sünnilərin belə bir feyzdən məhrum olmasına təəssüf edirik.

**Sual 19:** Nə üçün biz şiələr həzrət Məhəmməd (s) ailəsinə də ("ali-Muhəmməd") salavat göndərir, sünnilər isə yalnız Peyğəmbərin (s) özünə salavat göndərməklə kifayətlənirlər?

**Cavab:** Şiələr bu məsələdə sünnilərin də nəql etdikləri rəvayətə əsaslanırlar. Nəql olunur ki, həzrət Peyğəmbərdən (s) necə salavat göndərmək barədə soruşulduqda buyurdu: "Deyin "əllahummə səlli əla muhəmmədin və ali muhəmməd" Bu rəvayət sünnə əhlinin Qur'andan sonra ən mö'təbər kitabı sayılan "Səhihe Buxari"də nəql olunur.[2] Eyni hədis "Səhihe Müslim" kitabında da nəql edilmişdir.[3] Sünnə əhlinə bütün namazların təşəhhüdündə, meyit namazlarında, Peyğəmbərin (s) ziyarətində, cümə namazının xütbəsində bu şəkildə salavat göndərmək tapşırılır. Dörd sünni məzhəbindən birinin imamı olan Şafei öz şer'ində deyir:

Allahın Rəsulunun Əhli-beytinə
Məhəbbəti Qur'an vacib buyurmuş.
Əhli-beytə salam göndərməyənin
Namazını dərgahından ayırmış

Sünnə əhli də şiələr tək ali-Məhəmmədə salavat göndərməli olduqları halda, bu əmrə yalnız yuxarıda sadalanan hallarda əməl edirlər. Adi halda salavat göndərən sünnə əhli yalnız Peyğəmbərin (s) adını çəkir. Əhli-beyt, xüsusi ilə də həzrət Zəhra haqqındakı hədislərə e'tinasızlıq təəccüb doğurur. "Səhihe Müslimin" müəllifi Müslim ibn Həccac Peyğəmbər (s) ailəsinə, xüsusən də həzrət Fatiməyə (s) məhəbbəti ilə seçilir. O,

---

[1] "Urvətul-vusqa", fəslun fi-zəkatil-fitrəti.
[2] "Səhihe-Buxari", də`vət kitabı, h.6357
[3] "Səhihe-Müslim", namaz kitabı, h.405-406.

səhabələrin fəzilətlərindən danışır, hər dəfə onların adını çəkəndə hörmət və "rəziəllahu ənh" işlədir. Müəllif yalnız Fatimənin (s) adını çəkərkən "əleyhəssəlatu vəssəlam" sözlərini qeyd edir.[1] Olsun ki, Müslim ibn Həccac həzrət Peyğəmbərin (s) "Fatimə mənim tənimin yarısıdır buyuruğunu nəzərə almışdır. Doğrudan da, Qur'an Peyğəmbərə (s) salam göndərməyi əmr edirsə və Fatimə (s) Peyğəmbərin təninin yarısıdırsa, nə üçün ona salam göndərilməməlidir.

İstənilən vəchlə Əhli-beytin adını çəkməməyə çalışan sünnə əhli zəruri yerlərdə bu işə məcbur olduqda ya astadan deyir, ya da səhabələri də əlavə edərək diqqəti yayındırır. Hansı ki, sünni fiqhinə görə Məhəmməd və ali-Məhəmmədə salam göndərmədən ibadətlər və dualar qəbul olunmur.

**Sual 20:** Nə üçün şiələr ucadan, sünnilər isə astadan salavat çəkirlər?

**Cavab:** Şiələrin bu məsələdə əsaslandıqları rəvayətlərdə bildirilir ki, nifaqı aradan qaldırmaq üçün salavatı ucadan deyin. Diqqətli olmaq lazımdır ki, salavatın ucadan çəkilməsi başqalarına mane olmasın, kiminsə diqqətini namaz və duadan ayırmasın, sakitlik və nizamı pozmasın. Sünnilərin astadan salavat çəkməsinin səbəbi əvvəlki sualın cavabında aydınlaşdırıldı. Onların bu işdə şiələrə qadağa qoymasının iki səbəbi var: Onların fikrincə, Peyğəmbərin (s) yanında ucadan danışmaq caiz deyil. Dəlil olaraq Qur'an ayəsi göstərirlər: **"Həqiqətən, Allahın rəsulunun yanında astadan danışanlar ürəkləri təqva üçün sınağa çəkilənlərdir."**[2] Eləcə də, sünnə əhli birlikdə, xorla dua oxunmasını qeyri-şər'i və bid'ət bilir.[3] Onlar zikr və duaların yavaşdan deyilməsini müstəhəb sayırlar. "Səhihe Müslim"də nəql olunur ki, həzrət Peyğəmbər (s) buyurdu: "Ey camaat, özünüzə gəlin, siz uzaq və eşitməyən kəsi çağırmırsınız, O sizinlədir."[4]

---

[1] "Səhihe-Müslim", səhabənin fəziləti kitabı, s.1056
[2] "Hucurat" surəsi, ayə 3
[3] "Töhfətul-ixvan", Ben Baz, Ben Baz, s. 134
[4] "Səhihe-Müslim", zikr və dua kitabı, fəsil 13 s.1143, hədis 2703

# ƏTRAFLI BİR MÜBAHİSƏ

Məscidün-nəbidə (Mədinədə) hörmətli bir şiə alimi məscidə daxil olarkən onu görən digər şiələr uca bir salavat çəkdilər. Məscidin mə'murları bu işə mane olmağa çalışdılar. Vəhhabilərdən biri mənə yaxınlaşıb, "bu haram işin nə üçün qarşısını almırsınız" deyə, e'tiraz etdi. Dedim: "haramdır" demə, de ki, namaz qılanların diqqətini yayındırır, başqalarının rahatlığını pozur. Biz ruhanilər xalqa anlatmışıq ki, ümumi ibadət yerlərində belə işlər İslam əxlaqına ziddir.

Vəhhabi müsahibim öz mövqeyində israrla dayanıb, "hucurat" surəsinin 3-cü ayəsini dəlil göstərdi. Dedim: əvvəla, bu ayə əxlaq ayəsidir. Nadan və ədəbsiz adamlar Peyğəmbərə qarşı qeyri-münasib hərəkətlərə yol verdiklərindən Allah-təala onları əxlaqlı olmağa rəğbətləndirir. Bu ayə Peyğəmbərin (s) yanında səsini ucaldanlara aiddir. Peyğəmbərə (s) salavat göndərmək isə ona hörmətsizlik yox, ehtiram nişanəsidir. İkincisi, əgər ayə ucadan danışmağı qadağan edirsə, nə üçün riayət etmirsiniz. **"İnsanlara yaxşı işlər görməyi əmr edir, özünüzü unudursunuz."**[1] Üçüncüsü, ayədə Peyğəmbərin yanında səsi qaldırmaqdan danışılır. Peyğəmbərin (s) məzarından kənar yerlər isə nəzərdə tutulmur.

Vəhhabi dedi: "Biz deyilənlərə riayət edirik, astadan dua oxuyur, astadan danışırıq." E'tiraz edib, dedim: "Xeyr, riayət etmirsiniz. Azançının səsi bir neçə səs gücləndirici ilə ətrafı bürüyür, iqamədə, camaat namazında bərkdən deyir, bərkdən "amin" oxuyursunuz. Səsiniz məsciddən bayırda da eşidilir. Əgər siz "amin" deməyi dua sayırsınızsa, salavat da duadır. Ayə və rəvayətlərə görə isə dua astadan oxunsa daha münasibdir. Demək, siz "amin"i ucadan deməklə Qur'an və Peyğəmbər (s) sünnəsinə qarşı çıxır, öz müftiniz Əbdullah ibn Bazın dediklərinə əməl etmirsiniz."

---

[1] "Bəqərə", 44

Müsahibim çox narahat oldu. Ətrafda xeyli adam toplaşıb, bizi dinləyirdi. Mən isə ucadan və sərt danışırdım. O, işarə etdi ki, astadan danışım. Mən onun əlini tutub cavab istəyirdim.

Dedi: "Biz hansı ayə və rəvayətə zidd hərəkət edirik?"

Dedim: **"Səhər-axşam yalvararaq, səsini qaldırmadan Allaha dua et və qafillərdən olma"**[1] ayəsinə! Axı sizin öz kitablarınızda Peyğəmbərin (s) ucadan duanı nəhy etdiyi nəql olunur. Elə şiə mənbələrində də belə rəvayətlər var: "Ən yaxşı dua xəlvəti duadır..."[2]

Vəhhabi çıxılmaz vəziyyətdə qalıb dedi: "Mən onu bilirəm ki, peyğəmbər "amini" ucadan deməyi tapşırıb."

Dedim: "Məgər Peyğəmbər (s) astadan dua oxumağı tapşırmaqla Qur'anın və öz göstərişlərinin ziddinə çıxıb? Məgər yekdil olaraq qəbul etdiyiniz müfti deməyibmi ki, uca səslə cəm halda zikr demək bid'ətdir?!'[3] İndi de görüm, səsgücləndirici ilə azan vermək, ucadan "amin" demək bid'ət deyil? Siz bununla Qur'ana və Peyğəmbər (s) buyuruqlarına qarşı çıxmırsınızmı? Necə olur ki, istisna hallarda şiələrin cəm halda salavat çəkməsi bid'ət sayılır, amma sizin hər gün təkrar etdiyiniz bu işlər bid'ət sayılmır?!"

Söhbət bu yerə çatanda vəhhabi həmsöhbətim əlini əlimdən çəkib, sür'ətlə uzaqlaşdı...

**Sual 21:** Nə üçün şiələr təşəhhüd halında əlləri dizlərdə (budlarda), barmaqları bitişik saxlamağı müstəhəb bilir, sünnilər isə baş barmaqlarını hərəkət etdirirlər?

**Cavab:** Biz əllərimizi və barmaqlarımızı Peyğəmbər (s) və Əhli-beyt (ə) göstərişlərinə əsasən tuturuq. Sünnilər isə "Səhihe Müslim"də Peyğəmbərdən nəql olunmuş iki rəvayəti əsas götürürlər. Rəvayətlərə görə, həzrət Peyğəmbər (s) təşəhhüd zamanı baş barmağı ilə işarə etmişdir. Amma sünni məzhəbləri arasında bu mövzuda ixtilaf var. Malikilər təşəhhüd zamanı barmaqların tərpədilməsini müstəhəb hesab edirlər.

---

[1] "Ə'raf", 205
[2] "Nurus-səqəleyn", c.3, s. 321
[3] "Töhfətul-ixvan", Ben Baz, s. 134

Hənəfilər təşəhhüdün sonunda "la ilahə" deyərkən barmağı yuxarıya tutur, "illəllah" deyərkən aşağı salırlar. Barmağın yuxarıya qaldırılması inkara, aşağıya salınması təsdiqə işarədir. Barmaq bir növ dilin dediklərini müşayiət edir.[1] Hənbəlilər də Allahın adı çəkilərkən barmaqla işarə edirlər. Şafeilər isə "illəllah" deyərkən baş barmağı yuxarıya qaldırır, birinci təşəhhüddə ayağa qalxanadək, sonuncu təşəhhüddə namazın sonunadək barmağı yuxarı tuturlar.[2]

**Sual 22:** Nə üçün şiələr üzləri qibləyə olan halda yalnız bir dəfə salam deyir, amma sünnət əhli üzünü sağa və sola çevirməklə iki salam oxuyurlar?

**Cavab:** Şiə fiqhinə görə, namaz qılan hətta namazın salamında üzünü qiblədən döndərməməlidir və döndərərsə, namaz batil olar. Amma sünnilər öz kitablarındakı rəvayətə əsaslanaraq, namazın salamında üzü sağa və sola çevirməyi müstəhəb hesab edirlər.[3] Sünnə əhlinin bə'ziləri bir salamı kifayət hesab etsələr də, əksəri iki salamı vacib bilir. Hətta bir salam verilərkən namazı batil hesab edirlər.[4]

Bəli, əgər onların namazı başqa cəhətdən batil deyilsə də, bilərəkdən namazda qiblədən çıxmaq namazın batil olması üçün kifayət edir. Peyğəmbər (s) Əhli-beytindən üz döndərməyin nəticəsi budur.

Şiə fiqhində buyurulur ki, namaz qılan "əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh" deyərkən qiblədən çıxmamaq şərti ilə gözü və ya qaşı ilə sağ tərəfə işarə edərək salam versin. Eləcə də, camaat namazında iqtida edənin solunda başqa iqtida edən olarsa həmin şəkildə sol tərəfə işarə ilə salam verilir. İkinci salam pişnamaz üçün müstəhəb deyil. Vacib ehtiyata görə sağa və sola salam verərkən məqsəd bu olmamalıdır ki, kiməsə salam verilir. Tək namaz qılan şəxs qəlbindən keçirə bilər ki, əməl yazan iki mələyə salam verir. Camaat namazında pişnamaz iki

---

[1] "Səlatul-mumin", əl-Qəhtani,, əl-Qəhtani, s.224.
[2] Əl-fiqhu ələl məzahibil ərbəəti, cild 1, səh-265.
[3] "Səhihe-Müslim", məscid kitabı, h.582
[4] "Töhfətul-ixvan", Ban Baz, s. 112

mələk və iqtida edənlərə, iqtida edən isə pişnamaz və iqtida edənlərə salam verdiyini qəlbindən keçirə bilər.[1]

**Sual 23:** Nə üçün şiələr namazın salamından sonra üç dəfə təkbir deyir və təkbir deyərkən əllərini yuxarı qaldırırlar?

**Cavab:** Şiə fiqhində müstəhəbdir ki, namazın salamından sonra üç dəfə təkbir deyilsin və hər təkbirdə əllər qulaqlar bərabərinədək qaldırılsın. Ümumiyyətlə, şiəlikdə namazın birinci və sonrakı təkbirlərini deyərkən əlləri qaldırmaq müstəhəbdir. Sünnilər isə yalnız birinci təkbir, rükudan əvvəlki və sonrakı təkbir, ikinci rək'ətə durarkən deyilən təkbirdə əlləri qaldırmağı müstəhəb sayırlar. [2]

Sünni müftisi ibn Baz deyir ki, yalnız bu dörd halda əlləri qaldırmaq olar.[3]

**Sual 24:** Nə üçün şiələr namaz vaxtı qarşılarından keçən adama mane olmadıqları halda, sünnilər bu işə sərt şəkildə əks-əməl göstərirlər?

**Cavab:** Şiə fiqhinə görə, gəliş-gediş olan yerdə namaz qılan şəxs müstəhəbdir ki, qarşısına təsbeh kimi bir şey qoymaqla arakəsmə yaratsın. Namaz qılanın bundan başqa vəzifəsi yoxdur. Sünnə əhlinin bir hissəsi isə namaz qılanın qarşısından keçməyi haram bilir, bə'zən isə bu namazı batil sayırlar. [4] Hənəfilər və malikilər bildirirlər ki, qarşıdan keçənə mane olmaq lazımdır. Namaz qılanın qarşısından keçməyi şafeilər haram, hənbəlilər isə məkruh sayırlar və deyirlər ki, qarşıdan keçənə işarə ilə mane olmaq lazımdır.[5]

Mö'minlərə tövsiyə olunur ki, sünnə əhlinin e'tiqadına hörmətlə yanaşıb, namaz halında onların qarşısından keçməsinlər. Əgər bir sünni müsəlman bu işə görə sizə e'tiraz edərsə, bu e'tirazı qərəzli saymayın. Qeyd etməliyik ki,

---

[1] "Urvətul-vusqa", məsələ 5-6.

[2] Əl-fiqhu ələl məzahibil ərbəəti, cild 1, səh-249. "Səlatul-mumin", əl-Qəhtani,, əl-Qəhtani, s.252

[3] "Töhfətul-ixvan", Ben Baz, Ben Baz, s. 90

[4] "Səhihe-Buxari", namaz kitabı, fəsil 100-101

[5] "Əl-fiqh ələl-məzahibil-ərbəə", c. 1

Məscidül-həram və Məscidün-nəbidə böyük izdiham olduğundan sünnilər həmin yerlərdə namaz qılanın qarşısından keçməyi caiz sayırlar.[1]

**Sual 25:** Nə üçün şiələr Məscidün-nəbidə sünnilərə nisbətən Qur'an oxumağa daha az məşğul olurlar?

**Cavab:** E'tiraf etməliyik ki, şiələr onlara tövsiyə olunduğu qədər Qur'an oxumurlar. Ziyarət və digər işlərə Qur'an oxumaqdan daha çox vaxt ayırılır. Amma bu münasibətin digər səbəbləri də var:

Kə'bədə Qur'an qiraəti məclisi təşkil etmək üçün şiələrə mane olunur.

Əksər şiələr qeyri-ərəb olduqlarından Qur'anın mə'nasını anlamır və yalnız savab xatirinə Qur'anı oxuyurlar. Onlar bildirirlər ki, Qur'an həmişə bizimlədir, amma Peyğəmbər (s) və Əhli-beytin ziyarətinə hər vaxt nail olmaq olmur.

Mühüm səbəblərdən biri budur ki, çoxları Qur'an oxumağın, xüsusilə də onun nazil olduğu yerdə bu işə məşğul olmağın dəyərini anlamır, mə'nasız söhbətlərlə vaxt keçirirlər.

### *YADDAŞ*

Qeyd etməliyik ki, Məscidül-həramdan sonra ən fəzilətli məscid Məscidün-nəbidir. Orada qılınan namaz başqa məscidlərdə qılınan on min namaza bərabərdir. Rəvayətlərdən mə'lum olur ki, namaz və ziyarət məqsədi ilə o müqəddəs məkanda olmaq xüsusi savaba malikdir.

İmam Sadiq (ə) buyurur: " Məscidün-nəbidə gücünüz çatdığı qədər namaz qılın. Bu sizin üçün çox xeyirlidir. İnsanlar dünya işində zirəklik göstərənləri tə'rif edirlərsə, görün axirət işində zirəklik göstərənlərin tə'rifi nədir."[2]

Bir şəxs nəql edir ki, imam Sadiq mənə belə buyurdu: "Peyğəmbər (s) məscidində nə qədər bacarırsansa çox namaz qıl. Bu şərif məkanə gəlmək hər vaxt mümkün olmur."[3]

---

[1] "Töhfətul-ixvan", Ben Baz, s. 88

[2] "Vəsailüş-şiə", c. 10, s. 274, fəsil 11, hədis 2.

[3] Həmin mənbə, c. 10, s. 264, fəsil 4, hədis 6.

Sünnə əhlinin daha çox Qur'an oxuması həqiqətdir və bunun bə'zi səbəbləri var:

Sünnə əhlinin əksəri ərəb olduğundan Qur'anın mə'nasını anlayır. Bu səbəbdən də onlar Qur'an oxumaqdan daha çox ləzzət alırlar.

Şiələrdə hər namazdan sonra məxsus dualar var. Sünnilərdə belə dualar olmadığından onlar daha çox Qur'an oxuyurlar.

Sünnilər, xüsusi ilə də vəhhabilər ziyarətə bir o qədər də əhəmiyyət vermirlər. Vəhhabi böyüklərindən biri deyir: "Mən neçə illər ardıcıl peyğəmbər məscidinə getsəm də, bir dəfə olsun belə peyğəmbərə salam vermədim, onu ziyarət etmədim."

Belə görünür ki, başqa məzhəblərin Qur'an oxumağa daha çox imkanları olur.

**Sual 26:** Nə üçün şiələr Peyğəmbəri (s) ziyarət edərkən sünnilər e'tiraz edib deyirlər ki, dua edəndə üzünüzü qəbrə yox, qibləyə tutun?

**Cavab:** Şiə kitablarındakı rəvayətlərdə Peyğəmbər (s) Əhli-beyti (ə) buyurur: "Ziyarətçi öz ziyarətindən sonra üzünü qibləyə tutub, dua üçün əllərini qaldırsın və Allah-təaladan diləyini istəsin. Belə dua qəbul olmağa daha layiqdir."[1]

Buna əsasən, möhtərəm ziyarətçilərin dua zamanı üzünü qibləyə tutması müstəhəbdir. Bu əmr təkcə Peyğəmbərin ziyarətinə yox, bütün mə'sumların (ə) ziyarətinə aiddir. Üzü qəbrə dayanıb Allaha dua edən şəxs şər'i cəhətdən xilaf iş görmür, sadəcə, müstəhəb bir işi tərk etmiş olur.

Sünnə əhli isə belə hesab edir ki, dua zamanı üzü qəbrə dayanan adam dua üçün əllərini qaldıra bilməz.[2] Ona görə də uyğun halda dua üçün əlini qaldırana mane olurlar. Onların nəzərincə bu iş xilafdır və nəhy əz münkər (qadağa) lazımdır.

Ümid edirik ki, möhtərəm şiələr müstəhəbbi əmələ riayət edərək dua vaxtı üzü qibləyə dayanacaq və sünnilərin e'tirazına şərait yaratmayacaqlar.

---

[1] "Vəsailüş-şiə", fəsil 6, hədis 1.
[2] "Səlatul-mumin", əl-Qəhtani,, əl-Qəhtani, s.1391

**Sual 27:** Nə üçün Bəqi qəbristanlığından bayırda şiələrin namaz qılması e'tiraza səbəb olur?

**Cavab:** Sünni məzhəbi alimlərindən bə'ziləri qəbir kənarında namaz qılınmasını bid'ət sayır, onun şirkə apardığını bildirirlər.[1] Güman ki, onlar şiələrin Bəqi ətrafında qıldıqları namazı da qəbir kənarındakı namaz kimi qiymətləndirirlər. Hətta İbn Bazın fətvasına görə, qəbir olan məsciddə namaz qılmaq düzgün deyil.[2] O deyir ki, qəbir kənarında namaz qılan adama mane olmaq lazımdır. Maraqlıdır ki, Məscidül-həram və Məscidün-nəbidə xeyli qəbir olduğu halda, nə üçün həmin yerlərdə namaz qılmaq haram edilməyib? Görən neçə illər Məscidün-nəbidə Peyğəmbərin (s) və başqa iki şəxsin qəbri kənarında namaz qılmış Aişə haqqında nə düşünürlər?

Yaxşı olar ki, bütün deyilənləri nəzərə alaraq, əziz mö'minlər yersiz ittihamlara səbəb olmamaq üçün namazlarını Məscidün-nəbidə qılsınlar. Məscidün-nəbidə qılınan namaz kənarda qılınan on min namaza bərabərdir.

### *İKI YADDAŞ*

1.Sünnə əhli iddia edir ki, günün müəyyən saatlarında namaz qılmaq olmaz. Guya, sübh namazından günəş doğanadək və ikindi namazından gün batanadək namaz qılmaq nəhy (qadağan) olunub. Bəqi kənarında həmin vaxtlarda namaz qılanlar həm də bu cəhətdən ittiham edilə bilərlər. Əhli-beyt aşiqləri diqqətli olmalı, öz hərəkətləri ilə Əhli-beyti (ə) qınaq altda qoymamalıdırlar. Ümumiyyətlə, harada və nə vaxt namaz qılmaq barədə alimlərə müraciət etmək lazımdır.

2.Bə'zi şiələr Məscidün-nəbidə camaat namazını bitirən kimi öz sübh namazlarını qılmağa başlayırlar. Sübh namazından sonra gün doğanadək namaz qılınmasını caiz saymayan sünnə əhli bu işə pis baxır. Ona görə də ehtiyat üçün sübh namazını

---

[1] "Töhfətul-ixvan", Ben Baz, s. 14 və 68.

[2] "Töhfətul-ixvan", Ben Baz, s. 14 və 68

təzələmək istəyənlər bu işi camaat namazından qabaq görməlidirlər. Belə olsa bədgümançılıqlar da aradan qalxar. Əlbəttə ki, deyilənlər camaat namazı bitdikdən sonra məscidə daxil olanlara aid deyil.

**Sual 28:** Nə üçün şiələr Əbu-Bəkrə qarşı biganə olduğu halda, sünnilər onu sevir, hətta xütbə oxuyarkən onu ağlayaraq yad edirlər?

**Cavab:** Şiələrin Əbu-Bəkrə biganə münasibətini əsaslandırmaq üçün sünnilərin iki mö'təbər kitabı olan "Səhihe Müslim" və "Səhihe Buxari"yə müraciət edirik:

"Həzrət Peyğəmbər (s) buyurdu: Fatimə (s) mənim tənimin yarısıdır, onu qəzəbləndirən kəs məni qəzəbləndirmiş olur."[1]

Başqa bir hədisdə buyurulur: "Aişə deyir ki, Peyğəmbərin (s) vəfatından sonra Fatimə Əbu-Bəkrdən Peyğəmbərdən qalanları irs istədi. Əbu-Bəkr dedi ki, Peyğəmbər (s) "bizdən kimsə irs aparmaz və bizdən nə qalsa, sədəqədir", buyurub. Əbu-Bəkrin sözləri Fatiməni qəzəbləndirdi və o Əbu-Bəkri tərk etdi, həyatı boyu onunla danışmadı. Fatimə Peyğəmbərdən (s) sonra altı ay yaşadı.[2]

"Səhihe-Müslim"də nəql olunur ki, həzrət Peyğəmbər (s) minbərdən buyurdu: "Mənim qızım tənimin yarısıdır. Onu narahat edən məni narahat edir, Fatiməni incidən məni incidir.[3]

Sual olunur ki, Fatimənin sözünü rədd etməkdən böyük əziyyət nədir? Fatimə öz iddiasının sübutu üçün şahid gətirməyə məcbur edilir, şahid gətirdikdə isə yenə də inkar olunur.[4] Aişə bildirir ki, Əbu-Bəkrdən sonra Ömər Mədinədən Peyğəmbərə (s) çatacaq büdcəni Əli və Abbasın ixtiyarına verdi, amma Fədək və Xeybərdən çatası pay saxlanıldı.[5]

Bəli, mə'lum olur ki, həzrət Fatimənin (s) tələbləri haqlı imiş. Bunu bilə bilə Əbu-Bəkr Fatiməyə az da olsa, ata mülkündən

---

[1] "Səhihe Buxari", fəsil 12, s.626, hədis 3714.
[2] "Fərzul-xums", s. 512, hədis 3092 və 3093.
[3] "Səhihe-Müslim", s. 1056, hədis 2449.
[4] "Səhihe-Buxari", s. 626, hədis 3712.
[5] Həmin mənbə, Fərzul-xums, s. 512, hədis 3093

vermәkdәn imtina etmişdir. Tutaq ki, Peyğәmbәrdәn (s) qalan mülk müsәlmanlara çatır, mәgәr Fatimәyә (s) bir müsәlman kimi nәsә vermәk olmazdımı?! Sünnilәr isә birtәrәfli mühakimә yürütdüklәrindәn Əbu-Bәkrin yalnız müsbәt tәrәflәrini görür, hәtta öz mö'tәbәr kitablarını belә ciddi mütaliә etmirlәr. Belәcә, Fatimәnin mәzlumiyyәtinә ağlamalı olanlar ona zülm edәnә ağlayırlar.

## *MÜBAHİSƏ*

Bir gün bir sünni Əbu-Bәkrә e'tinasızlığımın sәbәbini soruşdu. Dedim ki, biz sizә tә'rif olunan imanlı vә mәrhәmәtli Əbu-Bәkrә yox, Fatimәyә әzab verib, onu qәzәblәndirmiş Əbu-Bәkrә biganәyik. Bәlkә dә, Peyğәmbәr (s) qızının dünyadan vaxtsız köçmәsinin әsas sәbәbkarı elә hәmin şәxs olmuşdur. Siz dә bizim kimi **"sizdәn yalnız Əhli-beytimә dostluq istәyirәm"**[1] ayәsini nәzәrә alaraq eyni münasibәtdә olmalısınız.

Hәmsöhbәtim dedi: "Fatimәni incitmәk caiz olmasa da, onu incidәnә biganәlik düzgün deyil."

Ona "Fatimәni incidәn mәni incidir" hәdisini vә **"Allahı vә onun rәsulunu incidәnlәrә Allah dünya vә axirәtdә lә'nәt edәr"** [2] ayәsini xatırlatdım. O, eşitdiklәrindәn әsәbilәşib, qulaqlarını tutdu vә mәndәn uzaqlaşdı.

Bәli, şiәlәri Əbu-Bәkrә mәnfi münasibәtә vadar edәn mәhz sünnә әhlinin mö'tәbәr kitablarındakı bә'zi әhvalatlardır. Ortada qәrәzçilik vә tәәssüb yoxdur. Sünnә әhli bu hәqiqәti dәrk etmәk üçün öz kitablarını ciddi araşdırmalıdır.

**Sual 29:** Nә üçün şiәlәr qәbir ziyarәtinә kişili-qadınlı getdiyi halda, sünnilәr qadınla kişi arasında fәrq qoyurlar?

**Cavab:** Şiә fiqhinә görә qәbir ziyarәti hәm kişi hәm dә qadın üçün müstәhәbdir vә onlar arasında fәrq qoyulmur. Amma sәbirsizlik etmәmәk şәrt sayılır. Çünki qәbir ziyarәtindә mәqsәd ibrәt götürmәk, axirәt barәdә düşünmәk vә bağışlanma istәyidir.

---

[1] "Şura", 23
[2] "Əhzab", 57

Bu məsələyə münasibətdə sünnilər arasında ixtilaf var. Hənbəli və şafeilər deyir: "Qəbir ziyarəti istər yaşlı, istərsə də gənc qadınlar üçün məkruhdur. Onların getməsi fəsada səbəb olsa, haramdır." Hənəfi və malikilər isə belə deyir: "Evdən çıxması fəsad doğurmayan yaşlı qadınlar üçün ziyarət müstəhəbdir. Amma evdən çıxması fəsad doğuran gənc qadınlar üçün ziyarət haramdır."[1]

Bu ixtilafdan mə'lum olur ki, onların bu məsələ barədə yetərli dəlili yoxdur. Vəhhabilərin üz tutduğu müfti İbn Baz isə belə deyir: "Qadınlar üçün qəbir ziyarəti haramdır."[2] İbn Baz bu fətvasında qeyri mö'təbər bir rəvayəti dəlil göstərir: "Allahın Rəsulu (s) qəbir ziyarətinə gedən qadınlara lə'nət oxudu."[3]

Amma bu rəvayət bir neçə səbəbdən məqbul deyil:

Dörd sünni məzhəbinin heç biri bu rəvayətə istinad və əməl etmir.

"Səhihe-Buxari" və "Səhihe Müslim"də bu rəvayət nəql olunmur.

həmin mənbələrdə Peyğəmbər (s) zamanı qadınların qəbir ziyarətinə getdiyini xəbər verən rəvayət nəql olunur. Bu rəvayətlərdən birində Aişə deyir: "Bir gecə Allahın rəsulu mənim yatdığımı güman edib evdən çıxdı. Mən onun ardınca gedib, Bəqi qəbiristanlığına döndüyünü və bir qədər durub dua etdiyini gördüm. Evdə ondan soruşdum ki, Bəqi əhlini mən necə ziyarət edim? O, mənə necə ziyarət etməyi (mətni) öyrətdi.[4]

Digər bir rəvayətdə nəql olunur: " Allahın Rəsulu (s) yoldan keçərkən qəbir kənarında bir qadının ağladığını gördü. Həzrət buyurdu ki, Allahdan qorx və səbirli ol. Qadın "çıx get, mənim düşdüyüm müsibətə sən düşməmisən" dedi. Peyğəmbəri tanımayan bu qadına onu tanıtdırdıqdan sonra Həzrətin evinə gedib üzr istədi. Həzrət buyurdu ki, səbir, dəyən zərərdən

---

[1] "Əl-fiqh ələl məzahibil-ərbəə", c. 1.
[2] "Fətvalar məcmuəsi", Ben Baz, c. 13, s. 324
[3] Termizi, "Əl cənaiz", h. 1056
[4] "Səhihe Müslim", əl cənaiz, fəsil 35, s. 412, hədis 974.

qabaqdır."[1] Bu rəvayət "Səhihe-Muslim"də də nəql olunmuşdur. Rəvayətlərdən mə'lum olur ki, Peyğəmbərin (s) dövründə qadınlar qəbir ziyarətinə gedər və ağlayarmışlar. Həzrət (s) bu ziyarəti qadağan etməmiş, sadəcə, qadınları səbirli olmağa çağırmışdır. Sünnə əhlinin kitablarında belə bir rəvayət də nəql olunur ki, Fatimeye Zəhra (s) atasının vaxtında və ondan sonra Həmzəni və Ühüd şəhidlərinin qəbrini ziyarət edər, namaz qılar, dua oxuyar və ağlayarmış.[2]

"Vəsailüş-şiə" kitabında nəql olunur: "Fatimeyi-Zəhra Peyğəmbərdən sonra həftədə iki dəfə Ühüd şəhidlərini ziyarət edərdi. Sünnə əhli nəql edir: "Həzrət Fatimə (s) Allahın rəsulunun dəfnindən sonra qəbirdən bir ovuc götürüb qoxuladı və hüzünlü bir şe'r oxudu.[3] Yenə nəql olunur ki, Aişə Məkkədə qardaşının qəbrini ziyarət edirdi.[4] Başqa bir rəvayətdə nəql olunur ki, Aişə həzrət Peyğəmbərin (s) və Əbu-Bəkrin dəfn olunduğu hücrədə namaz qılar, dua oxuyarmış. Ömər orada dəfn olunduqdan sonra Aişə qəbirlər ilə özü arasında divar tikdirdi. O, deyir: "Hücrədə Ömər dəfn olanadək həmişə üzümü açıq qoyar, yüngül geyinərdim. Elə ki, Ömər dəfn olundu, divar tikilənədək tam örtündüm."[5]

Əhməd Hənbəl nəql edir ki, Aişə dedi: "Peyğəmbərin və atamın dəfn olunduğu hücrəyə girdikdə üzümü açar, düşünərdim ki, dəfn olunanlar ərim və atamdır. Amma Ömər orada dəfn olunduqdan sonra, and olsun Allaha, örtünməmiş o hücrəyə girmədim."[6]

Sünnə əhlinin nəql etdiyi rəvayətlərdən aydın olur ki, Aişə mütəmadi olaraq qəbir ziyarətində olarmış. Aişə, Ömər naməhrəm olduğu üçün qəbirlərlə özü arasında divar

---

[1] "Səhihe-Buxari", əl canaiz, s. 205, hədis 1283.

[2] "Əs-sunənul kubra, Əbddürrəzzaq, c. 3, s. 572 və c. 4, səh-131 və Müstədrəkül-hakim, c. 1, səh-533.

[3] "Ət-tarixul-qəvim", Muhəmməd Tahir əl-Kordi, c. 1, s. 196

[4] "Müstədrəkül-hakim", c. 1, s. 376

[5] "Ət-tarixul-qəvim",c. 1, s. 193

[6] həmin mənbə, s. 208

çəkdirmişdir. Əlbəttə ki, Ömər diri ikən naməhrəm idi və Aişənin bu hərəkətinin heç bir şər'i əsası yoxdur. Aişə bu işi ilə müqəddəs olduğunu göstərmək istəyir, hətta ölüdən də həya etdiyini bəyan edir. Maraqlıdır ki, Aişədən ölüdən nə üçün həya etdiyi soruşulmayıb. Soruşan olmayıb ki, qadın dəvəyə minib Bəsrəyədək kişilərlə birlikdə Peyğəmbərin xəlifəsi ilə döyüşə gedə bilərmi?!

"Səhihe-Buxari"də nəql olunur: "İmam Həsənin oğlu Həsən dünyasını dəyişdi. Onun xanımı qəbri başında xeymə qurub bir il bu xeyməni sökmədi..."[1] Rəvayətdən mə'lum olur ki, ilkin İslam dövrlərində Peyğəmbərin (s) yaxınlarından olan bir qadın il boyu qəbir ziyarətində olurdu və bunu haram bilən, qadağan edən yox idi. Tarix boyu qadınların kişilər kimi həzrət Peyğəmbərin (s) ziyarətində olması göz qabağındadır. Hal-hazırda Məscidün-nəbidə qadınların ziyarəti üçün xüsusi yer ayırılmışdır. Sünni və şiə qadınlar tərəddüdsüz olaraq mə'sumların qəbrini ziyarət edir, ziyarətnamələr oxuyurlar. Ühüd şəhidləri də beləcə ziyarət olunmaqdadır. Qadınların qəbir ziyarətinə getməsini caiz bilməyən, onlara mane olan, "Peyğəmbər (s) belə qadınları lə'nətləyib" deyən vəhhabilərdən soruşmaq lazımdır ki, Həzrət (s) nə üçün bu işdə qızına və xanımına mane olmurdu? Yoxsa bu qadınların müxalif olduğu güman edilir? Mümkündürmü ki, həzrət Peyğəmbər (s) onun, Bəqidə dəfn olunanların, Ühüd şəhidlərinin ziyarətinə gələn qadınları lə'nətləsin? Heç vaxt! Allah müsəlmanları dar düşüncəli, tarix qarşısında kor dayanmış adamların bəlasından qorusun!

**Sual 30:** Şiələrlə sünnilər arasında ixtilaf nə vaxtdan başlamışdır?

**Cavab:** Zahirən bu ixtilaf Allahın Rəsulu (s) ölüm yatağında yatdığı zamandan başlamışdır. Həmin vaxt Həzrətin yanında Ömər də daxil olmaqla bir dəstə adam toplaşmışdı.

---

[1] "Əl-cənaiz", s. 212, hədis 329.

Sünnilərin mö'təbər kitabı "Səhihe Buxari"də azca fərqlə yeddi dəfə nəql olunmuş bir rəvayət var. Rəvayətdə deyilir: "Peyğəmbər (s) xəstə halda ikən buyurdu: "Mənə qələm-kağız verin, bundan sonra azmamağınız üçün bə'zi sözlər yazım." Ömər ibn Xəttab dedi: "Xəstəlik peyğəmbərə qalib gəlmişdir. Allahın kitabı varsa bu kitab bizə kifayətdir." Ömərin bu sözlərindən sonra orada olanlar arasında ixtilaf düşdü. Kimi kağız gətirilməsini istədi, kimi də Ömərin sözlərini təkrarladı. Peyğəmbər (s) buyurdu: ""Qalxın və uzaqlaşın, mənim yanımda didişməyiniz yaxşı iş deyil." İbn Abbas bayıra çıxıb ağladı və dedi: "Bütün bəlalar buradan başladı ki, Peyğəmbəri (s) yazmağa qoymadılar..." Qeyd etdik ki, bu rəvayət yeddi dəfə nəql olunmuşdur: "Kitabətul-elm"[1], "Cəvizul-vəfd"[2], "İxracul-yəhud"[3], "Mərəzun-nəbi"[4], "Mərəzun-nəbi"[5], "Əl-mərəz"[6], "Kərahətul-ixtilaf"[7]

Nümunə olaraq bu rəvayətlərdən birini [8] olduğu kimi nəzərinizə çatdırırıq:

İbn Abbas deyir: Allahın Rəsulu (s) ehtizar (canvermə) halında olarkən onun evində Ömər ibn Xəttab da daxil olmaqla bir qrup adam vardı. Həzrət (s) buyurdu: "Kağız gətirin, bundan sonra yolunuzu azmamağınız üçün sizə bir şey yazım." Ömər dedi: "Dərd Peyğəmbərə (s) qalib gəlmişdir, sizin Qur'anınız var və bu bizə kifayət edər." Evdə olanlar arasında ixtilaf düşdü, onlar didişməyə başladılar. Bə'ziləri "Peyğəmbərə yaxınlaşın, o, azmamağımız üçün bir şey yazsın" deyir, bə'ziləri isə Ömərin sözlərini təkrarlayırdılar. Səs-küyün artdığını görən Peyğəmbər (s) buyurdu: "Qalxın, məndən uzaqlaşın." Həqiqətən də,

---

[1] s. 25, h. 114
[2] s. 504, h. 3053
[3] s. 527, h. 3168
[4] s. 754, h. 4431
[5] s. 554, h.4432
[6] s. 1004, h.5669
[7] s. 1266, h.7366
[8] "Səhihe-Buxari", kərahiyyətul-ixtilaf, s.1266, h.7366

peyğəmbərlə (s) ixtilafın qarşısını alacaq yazı arasında manea yaradılan andan müsibətlər başladı."

Bu rəvayət sünnilərin ən mö'təbər kitablarında nəql olunmuşdur. Kitablardan birinin müqəddiməsində yazılır: "Səhihe-Buxari" Qur'andan sonra İslamın əsas kitabıdır." Elə bu kitabda nəql olunmuş həmin rəvayət bir neçə inkarolunmaz həqiqəti sübuta yetirir:

Həzrət Peyğəmbər (s) yatağı ətrafına toplaşanları, eləcə də bütün müsəlmanları azmaq təhlükəsi qarşısında görürdü.

Məktub yazılmadığı üçün həzrətin (s) ətrafındakılar azğınlıqdan yaxa qurtara bilmədilər, çünki yalnız bu məktub azğınlığın qarşısını ala bilərdi

Həmin gündən ixtilafın bünövrəsi qoyuldu;

həmin gün ilk çəkişmə və düşmənçilik baş verdi;

bu didişmələr Həzrəti (s) o qədər narahat etdi ki, orada olanları rədd etdi

Bu macəraya şahid olan, yazılacaq məktubun əhəmiyyətini dərk edən, bu vəziyyətə ağlayan, bu hadisənin gələcəkdə İslam və müsəlmanlara problem yaradacağını anlayan İbn Abbas bildirir ki, bütün müsibətlər Peyğəmbərin (s) bu məktubu yazmasına maneçilikdən doğdu.

Bəli, bütün ixtilaflar, çəkişmələr, savaşlar məhz Ömərin sözlərindən rişələndi.

## *MÜBAHİSƏ*

Sünnə əhlindən bir nəfər kobud şəkildə mənə müraciətlə dedi: "Siz hamınız azğınlıq içindəsiniz və bunun müqəssiri alimləriniz, xüsusilə də "Üsule-Kafi"nin müəllifi Kuleyni, "Bihar"ın müəllifi Məclisidir." Dedim müsəlmanları doğru yoldan azdıranlar Allahın mərhəmətindən uzaq olsun. Soruşdum ki, müsəlmanları zəlalətə salıb azdıranı tanımağa, ona lə'nət oxumağa hazırsanmı? Razılığını bildirdi.

Dedim "Səhihe-Buxari"ni ən mö'təbər kitab hesab edirsiniz. Qur'andan sonra ən e'tibarlı saydığınız bu kitabda belə bir rəvayət yeddi şəkildə nəql olunub ki, Peyğəmbər (s) ölüm

yatağında olarkən özündən sonra müsəlmanlara yol göstərmək üçün yazmağa kağız istədi. Oradakılardan biri bu işə mane olub dedi ki, peyğəmbərə xəstəlik qalib gəlib və bizə Qur'an bəs edər. Bu söz ixtilaf yaratdı və Peyğəmbərə (s) kağız verilmədi. Sən həmin bu şəxsi tanıyıb, ona lə'nət oxumağa hazırsanmı? Səncə, müsəlmanları azğınlığa salan bu şəxs olmadımı?

Müsahibim susdu. Dedim ki, get "Səhihe-Buxari"ni oxu, gör bu şəxs Kuleyni və Məclisidir, yoxsa başqası.

Həmsöhbətim dedi: "Peyğəmbər (s) bu adamlar getdikdən sonra kağız istəyə bilərdi, bəs nə üçün belə etmədi?

Dedim: "Peyğəmbərə (s) xəstəlik qalib gəlib" deyən şəxs artıq şübhə toxumunu səpmişdi. Peyğəmbər (s) bu məktubu yazsaydı da bir çoxu onu e'tibarlı hesab etməyəcəkdi.

Həmsöhbətim başını aşağı salıb, susdu.

## DİGƏR BİR MÜBAHİSƏ

Başqa iki sünni ilə söhbət zamanı mən uyğun rəvayətə işarə edib dedim: siz sünnə əhli şiələri "rafizi", yə'ni "dönük, azğın" adlandırırsınız. Amma böyüklərinizdən soruşmursunuz ki, azğınlıq və ixtilaf toxumunu kim səpip, Peyğəmbərə (s) son sözü yazmağa kim mane olub? Həmin şəxsi qınamaq əvəzində onu tə'rif edirsiniz və onun günahlarını şiələrin hesabına yazıb lə'nət oxuyursunuz.

Dedilər ki, müsəlmanlar arasında ixtilaf toxumu səpənə lə'nət olsun. Dedim ki, "Səhihe-Buxari"nin "qəvlul-məriz" və "qumu ənni" fəsillərinə müraciət edin və görün ki, Peyğəmbər (s) ölüm yatağında olarkən onun yanında kimlər var idi, Peyğəmbərə (s) son söz yazmaqda kim mane oldu, İbn Abbas nə üçün ağladı?

Nədən söhbət getdiyini anlayıb dedilər: "Hər nə olubsa da, müsəlmanlar Allahın kitabı və Peyğəmbər (s) sünnəsinə əməl etməlidirlər."

Dedim: Əvvəla biz şiələr inanırıq ki, Allahın kitabı və Əhli-beyt yolu ilə nəql olunmuş Peyğəmbər (s) sünnəsinə əməl olunmalıdır. Amma bu sözlər Ömərin "Allah kitabı bizə bəs edər" sözlərinə ziddir. Çünki o Peyğəmbərin (s) sözünə ehtiyac

duymamışdır. İkincisi, əgər Ömərin dediyi kimi, Allahın kitabı bəs edirdisə, nə üçün ixtilaf yarandı? Nə üçün hətta səhabələr arasında fikir ayrılığı yarandı? Məgər Əli (ə) Peyğəmbərin (s) xəlifəsi, Təlhə, Zübeyr və Müaviyə səhabə deyildimi? Məgər Aişə Peyğəmbərin (s) xanımı deyildimi? Yoxsa Peyğəmbər (s) Qur'anı özü ilə aparmışdı? Əgər Qur'an kifayət edirsə, nə üçün Peyğəmbər (s) sünnəsinə üz tutur, özünüzü sünnə əhli sayırsınız?

Dedilər: "Hər nə olubsa da, biz ilkin müsəlmanlar və "la ilahə illəllah, Muhəmmədun rəsulullah" deyənlər haqqında pis danışmamalıyıq."

Dedim: Əgər müsəlman haqqında pis danışmaq caiz deyilsə, nə üçün inamını sübut edən şiələr haqqında pis danışır, onları müşrik sayırsınız? Müsəlmanları iki yerə parçalayana nifrin olsun! Hələ İran şiələrini nə vaxtsa atəşpərəst olduqları üçün qınayanlar da var. Dedilər ki, bu sözlərə görə narahat olmayın, axı siz, doğrudanda, atəşpərəst olmusunuz.

Dedim: Onda siz də nə vaxtsa bütpərəst olmusunuz. Məgər Qur'anda iranlıları atəşpərəstliyə görə məzəmmət edən ayə var? Amma siz ərəbləri bütpərəstliyə görə məzəmmət edən ayələr var: **"Ərəblər "biz iman gətirdik", dedilər. De ki, siz iman gətirmədiniz. "İslamı qəbul etdik", deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır"**[1]; **"Ərəblər küfr və nifaq baxımından daha pis, Allahın öz rəsuluna nazil etdiyi hökmü bilməməyə daha layiqdirlər"**[2]

Dedilər ki, təfsirə baxın, bu ayələr bədəvi ərəblərə aiddir.

Dedim, bəs bu ayəyə nə deyirsiniz: "Ətrafınızdakı bədəvilər və Mədinə əhli arasında nifaqı özünə adət etmiş münafiqlər var..."[3]

Çox narahat oldular və dedilər ki, bu ayələrin zahirinə baxıb nəticəyə gəlmək olmaz.

---

[1] "Hucurat", 14
[2] "Tövbə", 98
[3] "Tövbə", 101

Dedim: siz də şiələrin bə'zi əməllərinə baxıb, onlar haqqında müşrik hökmü çıxarmamalısınız. Əgər şiələr imamların qəbri kənarında namaz qılırlarsa, araşdırma aparmadan onları ittiham etməməlisiniz. Nə üçün məktəblərinizdə uşaqlara və gənclərə şiəliyə zidd mövzular öyrədirsiniz. Onlar şiə gördükdə ona qəzəblə baxırlar.

Hiss etdim ki, xəcalət çəkirlər. Dedilər ki, müsəlmana töhmət vurmaq caiz deyil, həm də ayələri anlamaq üçün təfsirə müraciət etmək lazımdır.

Dedim: Qəbul edin ki, Qur'anın kafir və münafiq ünvanı ilə müraciət etdiyi adamlar ərəblərdir. Amma sizin mö'təbər kitabınız "Səhihe Müslim"də belə bir rəvayət nəql olunub:

"Cumuə" surəsi nazil olanda Allahın Rəsulu (s) bu ayəni oxudu: "Ərəblərdən başqa, hələ onlara qoşulmayanlara da Peyğəmbər (s) göndərmişdir."[1] Oradakılardan biri soruşdu ki, "ərəblərdən başqa" dedikdə kim nəzərdə tutulur? Həzrət (s) bir qədər susdu... Sonra əlini Salman Farsinin çiyninə qoyub buyurdu: "Əgər iman ulduzpərəstlərə ("surəyya") çatsa, bu qismdən kişilər ona sahib olarlar"[2]. Həmin kitabda Əbu Hüreyrənin nəql etdiyi başqa bir rəvayət də var. Xəbər verilir ki, Peyğəmbər (s) buyurdu: "Əgər din ulduzpərəstlərə ("surəyya") çatsa, farslardan bir kişi ona sahib olar.[3]" İndi deyin Ərəbistanda çap olunmuş kitabı gətirim, yoxsa qəbul edirsiniz? Dedilər ki, qəbul edirik doğrudur, amma iranlılar dində olmayan işlər görür, qəbir üstə günbəz tikir, şam yandırırlar.

Dedim: Bu işlər şirk yox, şiə fiqhində müstəhəbdir. Həm də bu işləri təkcə şiələr yox, sünnə əhli olan Misir, Livan, İraq və başqa ölkələrin müsəlmanları da görürlər. Nə üçün gözünüz təkcə bizi görür? Dedilər ki, vəhhabilərin şiəlikdə bid'ət və haram saydığı işləri qabartmaq bizim yox, böyüklərimizin təfsiridir...

---

[1] "Cumuə", 3

[2] "Səhihe Müslim", fəzailus-səhabə, s.1090, hədis 2546.

[3] həmin mənbə, səh-1090, hədis 2547.

Bu adamlarla sonra da qarşılaşdım. Allaha həmd olsun ki, xoş münasibət göstərdilər.

**Sual 31:** Nə üçün şiələr "Ya Rəsuləllah"(s), və ya "ya Əli"(ə) deyərkən sünnə əhli e'tiraz edir və bildirir ki, dünyadan getmiş adamı çağırmaq şirkdir və təkcə "ya Allah" demək olar?

**Cavab:** Bu e'tirazları doğuran İbn Teymiyyə və İbn Bazın "ölüləri çağırmaq şirk və küfrdür" kimi sözləridir.[1] Əvvəla müsəlmanlığın me'yarı şəhadət kəlmələri deməkdir. Həmin kəlmələri deyən şəxsin canı və malı möhtərəmdir, həm də insan belə sözlər deməklə dindən çıxmaz.

"Səhihe Buxari"də Ömər ibn Xəttabdan nəql olunur ki, Peyğəmbər (s) buyurdu: "Mən xalq "la ilahə illəllah" deyənədək onlarla vuruşmağa mə'muram. Kim "la ilahə illəllah" desə malı və canı amandadır..."[2] Bu rəvayət "Səhihe Müslim"də də nəql olunmuşdur.[3]

"Səhihe-Buxari"də belə bir rəvayət də nəql olunmuşdur:

"Allahın Rəsulu (s) Bədr döyüşündə öldürülmüş iyirmi dörd nəfərin cəsədini Bədr quyularından birinə atmağı əmr etdi. Üç gündən sonra səhabələri ilə buradan keçərkən quyuya yaxınlaşıb onları adbaad çağırdı və buyurdu: " Əgər Allaha və onun rəsuluna itaət etsəydiniz, şad olmazdınızmı? Həqiqətən də, biz Allahın və'd etdiyini tapdıq. Siz də Onun və'd etdiyini tapdınızmı?" Ömər Peyğəmbərdən soruşdu ki, cansız cəsədlərləmi danışır? Həzrət (s) buyurdu ki, and olsun o kəsə ki, Məhəmmədin canı onun əlindədir, dediyim sözləri onlar sizdən daha yaxşı eşidir."[4] Başqa bir rəvayətdə nəql olunur ki, Allahın Rəsulu (s) qəbir ziyarətində ölülərə xitabla buyururdu: "Salam olsun sizə, ey qəbir əhli..."[5]

Digər bir rəvayətdə nəql olunur ki, Ömərin oğlu Əbdullah Peyğəmbəri (s), Əbu Bəkri və Öməri ziyarət edərkən dedi:

---

[1] "Töhfətul-ixvan", Ben Baz, Ben Baz, s. 18
[2] "Səhihe-Buxari", istitabətul-murtəddin, s.1193, hədis 6924.
[3] "Səhihe-Müslim", kitabul-iman, s. 73, hədis 20-23.
[4] "Səhihe-Buxari", kitabul-məğazi, s. 671, hədis 3976.
[5] "Səlatul-mumin", əl-Qəhtani,, əl-Qəhtani, s. 139, hədis 153.

"Əssəlamu ələykə ya rəsulallah, əssəlamu ələykə ya Əbu Bəkr, əssəlamu ələykə ya əbəta"[1]

Qeyd edək ki, dünyanın bütün müsəlmanları namazın təşəhhüdündə deyirlər: "Əssəlamu ələykə əyyuhənnəbiyy", yə'ni "salam olsun sənə, ey Allahın rəsulu."

İbn Teymiyyə və İbn Bazın sözlərindən belə çıxır ki, hər gün namazda Peyğəmbərə (s) salam göndərən müsəlmanlar müşrik və kafirdirlər.

## *KİÇİK BİR MÜBAHİSƏ*

Məscidün-nəbidə namazdan sonra üzümü Peyğəmbərin (s) məzarına tutub dedim: "Əssəlamu ələykə ya rəsuləllah". Yanımda dayanan şəxs dedi: "Nə üçün bu qədər uzaqdan "ya rəsuləllah" deyirsən? Bu caiz deyil."

Dedim: Məgər "ya rəsuləllah" kəlməsi ilə "ya əyyuhənnəbiyy" kəlməsi arasında fərq var? Məgər sən hər namazında Peyğəmbərə (s) salam vermirsən?.. Müsahibim səhvini anlayıb, üzr istədi və uzaqlaşdı.

Bə'zən deyirlər ki, şiələr ibadət ünvanı ilə mə'sumları çağırırlar. Hansı ki, kimsə ibadət məqsədi ilə "ya rəsuləllah", "ya Əli" demir.

Qeyd edək ki, sünnə əhli, hətta İbn Teymiyyə və İbn Baz e'tiraf edirlər ki, ölülər ziyarətçilərin səsini eşidir və ruhları qaytarıldığından cavab da verirlər.[2] Amma öz dediklərinə zidd çıxaraq ölüləri çağırmağı onlara ibadət kimi dəyərləndirir və bunu şirk sayırlar.[3] Əslində isə kiminsə ölülərə ibadət etməsi, Peyğəmbəri (s) və Əlini (ə) xaliq sayması gülünc iddiadır.

Məscidün-nəbinin kənarında vəhhabilərdən biri bir şiəyə deyirdi ki, siz Əlini Allah bilir və ehtiyaclarınızı ondan istəyirsiniz. Şiə belə cavab verdi: "Mən özünü Allah sayan Əlini (ə) qəbul etmirəm."

---

[1] həmin mənbə, s. 1395 və Məcmuu fətavi, Ben Baz, c. 9, səh-289.

[2] Məcmuu fətavi, Ben Baz, c. 13, səh-235. "Səlatul-mumin", əl-Qəhtani, s.1391

[3] "Töhfətul-ixvan", Ben Baz, s. 12

## *GENİŞ BİR MÜBAHİSƏ*

Onlardan biri mənə dedi: "Şiələr Peyğəmbərə (s) və Bəqidəki imamlara ibadət edirlər. Üzü qəbirlərə doğru dayanır, əllərini dua üçün açır və onlardan arzularını, xəstələrinə şəfa diləyirlər."

Dedim: "Şiələr dualarında deyirlər: "Çarəsiz qalıb Ona dua edən kəsin duasını qəbul edən, şəri sovuşduran, sizi yer üzünün varisi buyuran Allah daha yaxşı deyilmi?! Məgər Allahdan başqa tanrımı var?![1] Sən hansı əsasla şiələri qınayırsan?! Gəl Məşhəd şəhərinə və gör ki, minlərlə insan imam Rizanın (ə) qəbri arxada qaldığı halda, üzünü qibləyə tutub namaz qılır. Əlbəttə ki, mə'sumların ziyarətindən sonra dua zamanı üzü qibləyə tutmaq müstəhəbdir. Nə edək ki, bə'ziləri bu məsələyə diqqətsiz yanaşır. Amma üzü qəbrə dayanıb dua üçün əlləri qaldırmaq qəbir sahibinə ibadət sayılmamalıdır. Bu adamların hər biri Allaha yalvarır, ya da Peyğəmbər və imamları vasitəçi seçir ki, onlar Allaha vəsilə olsunlar. Heç bir şiə öz arzusunu Peyğəmbər (s) və imamlardan istəmir və anlayır ki, bütün işlər yalnız Allahın əlindədir."

Dedi: "Elə müşriklər də bütləri vasitəçi seçiblər. "Allahı qoyub bütləri dost tutanlar deyirlər ki, bizi Allaha yaxınlaşdırmaları üçün bütlərə ibadət edirik."[2] Şiələr də Allaha yaxınlaşmaq üçün imamları çağırırlar."

Dedim: "Misal gətirdiyin ayədə sualının cavabı var. Həmin ayədə deyilir ki, müşriklər bütlərə ibadət edirdilər. Bəli, bütpərəstlər bütlərə səcdə edir, onlara nəzir boyun alırdılar. Bir şiənin imama səcdə etdiyini görmüsənmi?! Bir şiə risaləsini gözdən keçirsəydin, belə sözlər danışmazdın. Bütün şiə risalələrində bildirilir ki, namaz yalnız "qürbətən iləllah", yə'ni Allaha yaxınlaşmaq məqsədi ilə qılınmalıdır. Belə olmasa namaz, oruc, zəkat, həcc, bir sözlə bütün ibadətlər batildir."

---

[1] "Nəml", 62
[2] "Zumər", 2

Dedi: "Biz şiələrin zahirən əməllərinə baxır, danışdıqlarını eşidirik. Həm də bizə deyirlər ki, şiələr "ya Allah" əvəzinə "ya Əli" çağırır, Hüseyn və Əbülfəzldən kömək istəyirlər."

Dedim: "Əvvəla bir şəxsi çağırmaq ona ibadət etmək deyil. İbadət bir varlığı Allah sayaraq ona tə'zim etməkdir. Şiələr heç vaxt bu məqsədlə Allahdan qeyrisinə tə'zim etmirlər. Sən özün də buna şahid ola bilərsən. Şiələr cümə axşamı "Kumeyl", ramazanda "İftitah" və "Əbu Həmzə", qədr gecələrində "Cuşən-kəbir" dualarını oxuyurlar. Yüz bəndlik duanın hər bəndində "subhanəkə ya la ilahə illa əntə..."sözləri təkrarlanır."

Dedi: "Doğrudurmu ki, şiələr Peyğəmbərdən sonrakı üç xəlifəni lə'nətləyirlər?"

Dedim: "Şiə rəvayətlərində mö'mini lə'nətləmək qadağan olunmuşdur. İmamlarımız buyururlar ki, lə'nət nahaq olduqda şəxsin özünə qayıdır."

Dedi: "Xeyr xəlifələrə lə'nət oxumaq şirk və küfrdən də pisdir. Onlar behişt əhlidirlər və onlara lə'nət oxuyanlar cəzalandırılacaqlar. Bu işin qarşısı alınmalıdır."

Dedim: "Əvvəla şiələr heç vaxt behişt əhlini lə'nətləməmiş və lə'nətləməzlər. İkincisi, de görüm Əli ibn Əbu Talib həmin xəlifələrdəndir, yoxsa yox? O, behişt əhli deyilmi?"

Dedi: "Əlbəttə ki, o, behişt əhlidir və raşidi xəlifələrdəndir."

Dedim: "Bəs nə üçün Müaviyə onu düşmən tutur, onunla vuruşur, ona lə'nət oxumayanları cəzalandırırdı? Nə üçün Mədinə hakimi Mərvan Peyğəmbər (s) səhabələrinə əmr edirdi ki, Əliyə lə'nət oxusunlar?[1] Məgər Əliyə lə'nət oxumaq şirk və küfrdən pis deyilmi? Bundan əlavə, xəlifələrə lə'nət oxumağın şirk və küfrdən pis olması hansı ayədə bəyan olunub? Bəli, mö'minə behişt əhlinə lə'nət oxumaq haramdır. Bunu nəzərə alaraq, şiələr Əliyə lə'nət oxutduran Müaviyə və ali-Mərvana pis baxırlar."

Dedi: "Axı bu barədə rəvayət yoxdur."

---

[1] "Səhihe-Müslim", səhabələrin fəziləti kitabı, s.1042, hədis 2404.

Dedim: "Mö'təbər kitabınız "Səhihe-Müslim"i yaxşı mütaliə et. Bəsrədə, Süffeyndə, Nəhrəvanda həzrət Əli ilə döyüşənlər, onu şəhid edənlər üçün Əliyə (ə) lə'nət oxumaq asan işdir."

Müsahibim bir qədər fikrə gedib, sonra dedi: "Mən bu məsələni hökmən araşdıraram. Bir kitabda oxumuşam ki, şiələr sarı bir keçini dövrəyə alıb, onu Aişə adlandıraraq gülürlər. Doğrudanmı belə edirsiniz?"

Dedim: "Şiələrə qarşı böhtanlardan biri də budur. Şiəliyə qarşı yazılmış kitablarda mən də belə uydurma əhvalatlar oxumuşam. Əslində isə şiəlik ruhu bu səviyyədən çox-çox ucadır. Bəli, Aişənin ikili hərəkətləri şiələri narahat edir və suallar doğurur. Aişə Peyğəmbərin xanımı, "ümmül-mö'minin" olsa da öz hörmətini saxlamamışdır. Hər kəs özünə hörmət etməlidir ki, başqaları da ona hörmət etsin. Ömərin cəsədini naməhrəm hesab edib qəbirlə öz arasına divar çəkən Aişə günlərin bir günü dəvəyə minib, naməhrəm kişilərlə çiyin-çiyinə Peyğəmbərin (s) xəlifəsi ilə savaşa qalxır. Beləcə, Peyğəmbərin (s), həm də özünün hörmətini sındırır."

Dedi: "Bu söhbətlər tarixdə qalıb, yaxşı olar ki, bu barədə danışmayaq."

Təklif etdim ki, söhbətin ardını sabaha saxlayaq. O, razılaşdı və "hələ suallarım var", dedi.

Səhəri gün həmsöhbətimin tək gəlmədiyini gördüm. O bildirdi ki, yanındakı şəxs dostudur və onun da sualları var. Məscidin bir kənarına çəkilib söhbətə başladıq. Dedilər: "Nə üçün şiələr Kərbəla torpağından şəfa istəyir, hətta şəfa üçün xəstəyə bu torpaqdan yedirirlər? Məgər torpaqdan şəfa olarmı?"

Dedim: "Allahın qüdrətinə şəkmi edirsiniz? Balı bir çox xəstəliklər üçün şəfa edən Allah üçün bu iş çətindirmi?[1] Həzrət Yusifin köynəyini onun atasının gözlərinə dərman edən Allah deyildimi?[2] Bu həmin Allahdır ki, Onun hökmü ilə bir parça ət ölüyə toxunan kimi ölü dirilir və öz qatilini tanıtdırır.[3] Musanın

---

[1] Nəhl, 69.
[2] "Yusif", 93-96
[3] "Bəqərə", 67

əsasına böyük güc verən Allah Kərbəla torpağını şəfalı etməyə qadirdir. Ərəb olduğunuz halda Qur'ana bu qədər diqqətsizliyiniz təəccüb doğurur."

Mən ayələri sadaladıqca onlar daha çox təəccüblənirdilər. Axır ki, deyilənləri qəbul etdilər və sonuncu suallarını verdilər:

"Nəzir Allaha aid olduğu halda, nə üçün şiələr imamlarına nəzir edirlər?"

Dedim: "Şiələr nəziri Allaha edir və onun savabını imamlara bağışlayırlar. Şiə fiqhində Allaha yaxınlıq məqsədi nəzirin niyyətində (siğəsində) qeyd olunur. Başqa şəkildə nəziri şiələr doğru saymır."

**Sual 32:** Nə üçün ziyarətə getdiyi, imamların hərəmində namaz qıldığı, nəzir verdiyi üçün şiələr şirkdə ittiham olunur, amma bu işləri onlardan da çox yerinə yetirən sünnilər ittiham olunmurlar?

**Cavab:** Şiələri sünnilər yox, vəhhabilər ittiham edirlər. Eləcə də, vəhhabilər təkcə şiələri yox, onları qəbul etməyən sünniləri də ittiham edirlər. İbn Teymiyyə öz risaləsində bütün müsəlmanları ittiham edir, şiələrə isə xüsusi yer ayırır. Onların sözlərinin məğzi budur ki, şiələr qəbirlərə ibadət edir, qəbir əhli üçün namaz qılır, qəbir əhlindən öz xəstəliklərinə şəfa, düşmənləri üzərində qələbə istəyirlər. Vəhhabilər bütün bu əməlləri bid'ət və şirk hesab edirlər.[1] Bə'zən isə "şiələr Əbu-Bəkr və Ömərə lə'nət oxuyur" deyərək, ədavət saxlayırlar.

## *BÖHTANLARIN KÖKÜ*

İttihamların kökünü tapmaq üçün Ərəbistanın tanınmış müftisi, vəhhabilərin böyüyü İbn Bazın qeydlərini nəzərdən keçirək:

"Qəbir kənarında namaz qılıb, Qur'an oxumaq böyük şirkə səbəb olan bid'ətlərdəndir. Çünki Allahın Rəsulu (s) buyurmuşdur: "Allah yəhudi və məsihilərə lə'nət etsin, onlar öz peyğəmbərlərinin qəbirlərini məscidə çeviriblər."[2];

---

[1] "Töhfətul-ixvan", Ben Baz, s. 10-18
[2] "Töhfətul-ixvan", Ben Baz, s. 10-18

"Peyğəmbər (s) müsəlmanlara xitabən buyurmuşdur: "Agah olun, sizdən əvvəlkilər öz peyğəmbərlərinin və salehlərinin qəbrini məscidə çevirdilər. Ehtiyatlı olun ki, qəbirləri məscid etməyəsiniz. Mən bu işi sizə qadağan edirəm."[1]

İbn Baz bu iki rəvayəti nəql etdikdən sonra belə nəticə çıxarır:

"Bu iki rəvayətdən mə'lum olur ki, qəbir kənarında namaz və Qur'an oxumaq, qəbirin üzərində bir şey tikmək şirk səbəbidir. Bu işləri yəhudi və məsihilər görürdü, indi isə onu bu ümmətin cahilləri davam etdirir. Onlar qəbir əhlinə ibadət edir, onlar üçün qurban kəsir, nəzir edirlər. Ölülərdən xəstələrinə şəfa, düşmənləri üzərində qələbə istəyirlər. Bu işlər Hüseynin (ə) qəbri kənarında yerinə yetirilir. Peyğəmbər (s) qəbir üzərində tikintini, qəbirlərin üzlüklənməsini, qəbir üzərində oturmağı, qəbir üzərində günbəz qaldırmağı, qəbirin üstünü yazmağı qadağan etmişdir. Bu işlər yəhudi və məsihilərin işlərinə oxşadığından, böyük şirkə səbəb olduğundan qadağandır."[2]

## *NƏ ÜÇÜN BU SÖZLƏRİ BÖHTAN SAYIRIQ?*

Vəhhabilərin dəlillərini nəzərdən keçirdikdən və onların əsasən şiələri nəzərdə tutduğu mə'lum olduqdan sonra bildiririk:

Onların dəlil göstərdikləri rəvayətlərin düzgün olub-olmadığını araşdırmırıq. Tutaq ki, həmin rəvayətlər doğrudur. Şiəlikdə istər vacib, istərsə də müstəhəb, istər məscid, istərsə də imamların (ə) hərəmində qılınan namazlarda "həmd"dən qabaq müstəhəbdir ki, belə deyilsin:

"Vəccəhtu vəchiyə lilləzi fətərəssəmavati vəl-ərz, alimul-ğəybi vəş-şəhadəti, hənifən muslimən və ma ənə minəl-muşrikinə, innə səlati və nusiki və məhyayə və məmati lillahi rəbbil-aləmin, la şərikə ləhu və bizalikə umirtu və ənə minəl-muslimin"[3]

Tərcümə: "Mən xalis imanla o Allaha üz tutmuşam ki, göylərin və yerin yaradanıdır, gizlini və aşkarı biləndir,

---

[1] "Töhfətul-ixvan", Ben Baz, s. 10-18
[2] "Töhfətul-ixvan", Ben Baz, s. 13-15
[3] "Urvətul-vusqa", məsələ 12.

vücudum şirkdən pakdır, müsəlmanam və mən müşriklərin cahil əqidələrindən uzağam; namazım, itaətim, həyatım və ölümüm aləmlərin rəbbi Allah üçündür. Onun şəriki yoxdur, mənə ixlası əmr edib, mən onun əmrinə təslimən."

Bu ifadələr, bu əqidə vəhhabilərin iftiralarına gözəl cavabdır. Digər ittihamları da cavablandırmaq lazım gəlir:

a)Qəbirlərin kənarında namaz qılmağı qəbir əhlinə ibadət sayırlar. Başlıca olaraq, imamların hərəmində, Bəqi qəbiristanlığında şiələrin namaz qılmasını nəzərdə tuturlar.

Əvvəla, şiələr istənilən bir yerdə hər hansı namazı qılarkən belə niyyət edirlər: "Namaz qılıram, qürbətən iləllah (Allaha yaxınlıq məqsədi ilə)". Kimsə düşünmür ki, qıldığı namaz onu qəbir sahibinə yaxınlaşdıracaq. Ziyarət namazında da niyyət "qürbətən iləllah" olur. Sadəcə, həmin namazın savabı qəbir sahibinə hədiyyə olunur.

İkincisi, əgər qəbir kənarında namaz qılmaq şirkdirsə, nə üçün ilkin İslamdan başlayaraq, Məscidül-həramda – Peyğəmbərin qəbri olan bir yerdə namaz qılınır? Nə üçün Peyğəmbərin (s), Əbu-Bəkrin, Ömərin qəbirləri yerləşən Məscidün-nəbidə dünya müsəlmanları ibadət edirlər? Aişə neçə illər qəbir kənarında yaşayıb, ibadət etmişdir. Maraqlıdır ki, hansı dəlillə bir qəbir o birindən fərqləndirilir? Məgər qəbir qəbir deyilmi?!

## *MƏSCİDÜL-HƏRAMDA DƏFN OLUNANLAR*

Sünnə əhlinin verdiyi mə'lumatlara əsasən Məscidül-həramda aşağıda adı sadalananlar dəfn olunmuşlar:

1.Həzrət İsmail, anası Hacər, ərdə olmamış qızları[1];

2.Həzrət Nuh, Hud, Saleh, Şüeyb[2]; (onların qəbri Hacərlə zəmzəm arasındadır)

3.Rükn və məqamdan zəmzəmədək 99 peyğəmbərin qəbri[3].

b) Digər bir ittiham qəbir kənarında Qur'an oxunmasıdır. Vəhhabilər bu işi şirk sayırlar. Əslində İbn Bazın istinad etdiyi

[1] "Tarixul-qəvim", Məhəmməd Tahir əl-Kordi, c. 2, s. 580
[2] Həmin mənbə, səh-579.
[3] Həmin mənbə

rəvayətlərdə Qur'an oxunması barədə söz yoxdur. Bununla belə, ittihamçılardan soruşulmalıdır ki, Məscidül-həramda Qur'an oxuyanlar müşrikdirlərmi? Məgər Aişə Peyğəmbərin (s) qəbri kənarında Qur'an oxumurdumu?!

Vəhhabilərin başçılarından olan İbn Teymiyyə deyir:

"Məzhəb böyüklərinin ümumi fikri belədir ki, hər bir meyyit dirinin namaz, oruc, Qur'an qiraəti və sədəqəsindən bəhrələnir."[1]

Vəhhabilərin digər bir başçısı İbn Qəyyim deyir: "Müsəlmanlar ölülər üçün bağışlanma istəsələr, sədəqə versələr, həcci yerinə yetirsələr, oruc tutsalar, namaz, Qur'an və zikr oxusalar, savabı ölülərə çatar."[2]

İbn Baz digər bir kitabında yazır: "Sədəqənin, həcc və ümrənin, meyitin borcunun ödənməsinin, dua və tövbənin savabı meyitə çatar. Amma Qur'an və namazın, həm də təvafın meyit üçün olmaması daha yaxşıdır."[3]

Başqa bir mənbədə[4] deyilir: "Yaxşı olar ki, qəbir ziyarətçisi dua edib yalvarsın, ölülərdən ibrət götürsün və meyit üçün Qur'an oxusun. Ziyarətçinin Qur'an oxuması meyit üçün faydalıdır."

Maraqlıdır ki, bütün sünnə əhli, vəhhabilər, İbn Bazın özü, adətən, Qur'an oxunmasını ölü üçün faydalı olmasını bildiyi halda, "Tuhfətul-ixvan" kitabında bu iş şirk sayılır. Özü də böyük şirk! Bu hökmün hansı əsasla verildiyi mə'lum deyil.

v) Digər bir ittiham şiələrin qəbir əhli üçün nəzir etməsidir (məsələn, imam Hüseyn (ə) üçün edilən nəzir). Belə bir nəziri vəhhabilər şirk sayırlar. Amma şiə fəqihlərindən birinin kitabına müraciət olunsaydı, belə ittihamlara cür'ət edilməzdi. Şiə fəqihlərinin risalələrində bu barədə deyilir: "Nəzir odur ki, insan Allaha görə hər hansı xeyir bir iş görmək və ya görülməməsi

---

[1] "Səlatul-mumin", əl-Qəhtani, s.1379

[2] "Səlatul-mumin", əl-Qəhtani, c. 2, s.1379

[3] Məcmuu fətavi, Ben Baz, c. 13, səh-259. "Səlatul-mumin", əl-Qəhtani, s. 1382

[4] "Əl-fiqh ələl məzahibil-ərbəə", c.1, s. 471

daha yaxşı olan bir işi tərk etmək qərarına gəlsin."[1] Bəli, şiə fiqhinə görə, nəzirin əsil mahiyyəti onun "Allah üçün" olmasıdır. Bu niyyət olmasa, nəzirdən danışmağa dəyməz. Amma iş başa çatdıqdan sonra nəzir olunmuş işin savabını istənilən bir şəxsə hədiyyə etmək olar. Məsələn, nəzir üçün belə bir düstur yarayar: "Allah üçün qurban kəsib, ətini fəqirlərə paylamağı və savabını imam Hüseynə (ə) hədiyyə etməyi öhdəmə götürürəm."

Şiələr imama və ya ziyarətgaha nəzir edərkən məqsədləri Allah üçün xeyir bir iş görüb, bu işin savabını hədiyyə etmək olur. Belə nəzirləri şirk hesab edən vəhhabilərin nəzərinə bir Qur'an ayəsini çatdırmaq lazım gəlir: "Bilmədiyin işin ardınca getmə. Çünki qulaq, göz, qəlb, bunların hər biri sorğuya çəkiləcək."[2] Ümid edirik ki, bu adamlar öz iftiralarından əl çəkib, inşaəllah, tövbə edəcəklər.

d)Vəhhabilər qəbir üzərində tikintini haram, şirk sayırlar. Bildirirlər ki, qəbir üzərində hər hansı tikili büt kimidir və bütün adını dəyişməklə bütpərəstlik aradan qalxmaz. Onların fikrincə, mə'bədə, hərəmə ibadət bütə ibadətdən daha pisdir və bütün tikintilər, günbəzlər sökülməlidir.[3] Bu əqidədə olanlar 1922-ci ildə Hicazda İslam böyüklərinin qəbirlərini, Bəqidə imamların qəbirlərini xaraba qoydular.

İbn Baz deyir: "Qəbir üzərində bina, tikinti, günbəz şirk səbəblərindəndir..."[4] Əgər İbn Bazın sözlərini qəbul etsək, onda hücrədə dəfn olunmuş Peyğəmbəri (s) ziyarət edən bütün müsəlmanları, eləcə də vəhhabiləri müşrik və kafir saymalıyıq. Belə çıxır ki, bütün müsəlman dünyası Peyğəmbərə (s) münasibətdə ifrata varmışdır. Əgər qəbir üzərində tikinti aparmaq şirkdirsə və bu tikililər bütdürsə, onda Peyğəmbərin (s) qəbri ilə digər qəbirlər arasında fərq qoymamalıyıq. Əgər

[1] Məsələ 2640, "Tovzihil-məsail"
[2] "İsra", 36
[3] "Kəşful-irtiyab", s. 286
[4] "Töhfətul-ixvan", Ben Baz, s. 15

günbəz qoymaq şirkdirsə, nə üçün Peyğəmbərin (s) qəbri üzərindəki günbəz vəhhabiləri narahat etmir?

Aişə uzun illər Peyğəmbərin (s) qəbri kənarında yaşayıb, namaz qıldı, Qur'an oxudu. Elə o vaxtdan da qəbirin üzərində hücrə vardır. Bu hücrə dəfələrlə tə'mir olunmuş, nəhayət, onun üzərində günbəz tikilmişdir.[1]

Əgər vəhhabilərin dedikləri düz olsaydı, Beytül-müqəddəs ətrafındakı peyğəmbər qəbirləri – həzrət Davud (ə), İbrahim (ə), İshaq (ə), Yə'qub (ə), Yusuf (ə) – ın İslamdan əvvəl tikilmiş qəbirləri büt sayılardı. Bu qəbirlər Ömərin xilafəti zamanı İslam fəthində də saxlanılmışdır.[2] Bəs nə üçün Ömər ibn Xəttab bu qəbirlərin dağıdılması üçün göstəriş verməmişdir? Yoxsa İslam fəthi bütpərəstliyi qorumuşdur?

Hicri 11 əsrdə Abbasi xəlifəsi Harun Ərrəşid həzrət Əlinin (ə) qəbri üzərində qübbə tikdirmişdir. Mə'mun öz atasının qəbri üzərində hücrə tikmiş və imam Riza (ə) da həmin qübbədə dəfn olunmuşdur. Mə'sum imamların (ə), eləcə də sünnə əhli böyüklərinin qəbirləri üzərində tikilmiş məqbərələr tarixdə özünə yer almışdır. Vəhhabilərin sözlərinə görə, bütün müsəlmanlar İslam Peyğəmbərindən (s) sonra müşrik və bütpərəst olmuş, Allaha ibadət əvəzində bütlərə ibadət etmişlər. Bəli, vəhhabilərin istinad etdiyi rəvayətlərin sənədi (mənbəsi) araşdırılmalıdır. Necə ola bilər ki, Peyğəmbərin (s) səhabələri və xəlifələri dinə zidd hərəkət etmiş olsunlar? İndi vəhhabilərin istinad etdiyi rəvayətlərə zidd rəvayətlər nəql etməklə mühakimə yürütməyi sizin ixtiyarınıza buraxırıq.

Ən mö'təbər sünni mənbəsi olan "Səhihe Buxari"də nəql olunur:

"Həzrət Peyğəmbərin (s) qızı vəfat etmişdi. Həzrət (s) onun qəbri kənarında oturub, göz yaşları axıdırdı."[3]

---

[1] "Kəşful-irtiyab", Seyyid Möhsin Əmin, s. 400
[2] "Kəşful-irtiyab", Seyyid Möhsin Əmin s. 384
[3] "Səhihe-Buxari", əlcənaiz, s.205, hədis 1285.

"Əlinin oğlu Həsənin oğlu Həsən dünyasını dəyişdiyi vaxt onun xanımı qəbir üzərində xeymə qurdu və bu xeymə bir il orada qaldı..."[1]

Yuxarıda nəql olunan iki rəvayətdən mə'lum olur ki, qəbir kənarında əyləşmək şirk deyil. Eləcə də qadınların qəbir ziyarətinə getməsinin eybi yoxdur. Qəbir üzərində qübbə düzəltmək nə şirkdir, nə də bütpərəstlik. Əgər bu iş şirk olsaydı, xəlifələr və səhabələr e'tiraz edərdilər.

Allahın övliyalarının qəbri üzərində bina, məscid tikilməsinin kökləri Qur'anda nəzərə çarpır. Allah-təala "Əshabe-Kəhf" əhvalatı haqqında buyurur: "Əshabe-Kəhf haqqında mübahisədə qalib gələnlər dedilər: Onların məzarı üzərində bir məscid tikəcəyik." [2] Ayənin təfsirində deyilir: "Bir dəstə "Kəhf səhabələrinin qəbri üzərində bina tikin", dedi. Mö'minlər isə "biz onların qəbri üzərində məscid tikəcəyik", dedilər."[3] Bu mövzunu uzatmağa ehtiyac görünmür. Mə'lum oldu ki, Bəqidəki imamların (ə), Ühüd şəhidlərinin, Əbu-Talib qəbiristanlığındakıların qəbirləri hansı adla xaraba qoyulub.

## *MƏSCİDÜL-HƏRAM VƏ MƏSCİDÜN-NƏBİDƏ NAMAZ*

Mö'minlər bə'zi məsələlərə diqqət yetirsələr, münasib olar. "Urvətil-vüsqa"da deyilir:

"Namazı məsciddə qılmaq müstəhəbdir. Məscidül-həram daha fəzilətlidir. Orada qılınan namaz milyon namaza bərabərdir. Ondan sonra Məscidün-nəbi gəlir. Orada qılınan namaz on min namaza bərabərdir; sonra isə Kufə məscidi gəlir. Orada qılınan namaz isə 1000 namaza bərabərdir;

İmamların hərəmində namaz qılmaq müstəhəbdir. Bu hərəmləri Allah uca və abad istəmişdir ki, orada Allahın adı zikr olunsun. Olsun ki, hərəmlər məsciddən əfzəldir. Nəql olunur ki,

---

[1] "Səhihe-Buxari", əlcənaiz, s..212, hədis 1329.
[2] "Kəhf", 21
[3] "Təfsire Xazin"

həzrət Əlinin (ə) kənarında qılınan namaz iyirmi min namaza bərabərdir..."[1]

İki rəvayətdə İmam Sadiqdən (ə) Fatimənin (s) evində qılınan namaz haqqında soruşulur. Həzrət (ə) buyurur:

"Fatimənin (s) evində qılınan namaz rövzədəki namazdan üstündür."[2] Rəvayətlərdən mə'lum olur ki, imam Sadiq (ə) dövründə həzrət Fatimənin (s) evində namaz qılınırmış. Amma həzrət Peyğəmbərin (s) qəbri hasarlandığından orada namaz qılmaq mümkün deyil.

## *BİR ŞÜBHƏYƏ CAVAB*

Rəvayətlərə görə, Əlinin (ə) kənarında qılınan namaz Məscidün-nəbidə qılınan namazdan üstündür. Bu o demək deyil ki, Əlinin (ə) kənarında qılınan namaz Peyğəmbərin (s) kənarında qılınan namazdan üstündür. (Qeyd olundu ki, Məscidün-nəbidə Peyğəmbərin (s) qəbri hasarlandığından o həzrətin (s) kənarında namaz qılmaq mümkünsüzdür). Həzrət Zəhranın (s) evində qılınan namaz məsciddəki namazdan üstün olduğu kimi, Əlinin (ə) kənarında qılınan namaz da Peyğəmbər məscidindəki namazdan fəzilətlidir.

"Urvətil-vusqa"
"Əlfiqh ələl-məzahibul-xəmsə", s. 35
həmin mənbə, s. 35
"Səlatul-mumin", c. 1, s.41
"Vəsailüş-şiə", dəstəmaz fəsli
"Səhihe-Buxari", h. "Urvətil-vusqa"
185
"Misbahul-munir"
"Töhfətul-ixvan", s. 174
"Fəzlul-Mədinə", s. 43
"Kitabul-əzan", s. 54
"Ət-tarixul-qəvim",c. 1, s. 196

---

[1] "Urvətul-vusqa", məsələ 4-5.
[2] "Vəsailüş-şiə", c.3, səh-547, fəsil 59, hədis 1-2.

"Əl sunənil kubra, c. 3, s. 572
"Müstədrəkəl-hakim", c. 1, s. 376
"Kəşful-irtiyab", s. 286

**Sual 33:** Nə üçün şiələri bid'ətdə ittiham edən vəhhabilər özlərini bu sahədə təmiz hesab edirlər? Məgər onlar dində bid'ət etməmişlərmi?

**Cavab:** Deməklazımdır ki:

Orda ki iş əyan ola,
Nə ehtiyac bəyan ola?

Vəhhabilər başdan-ayağa bid'ətdir və agah insanlar ötəri bir baxışla onların saysız-hesabsız bid'ətlərini görürlər. Bu bid'ətlərdən bə'zilərini nəzərdən keçiririk.

## *VƏHHABİLƏR NƏYİ BİD'ƏT HESAB EDİRLƏR?*

Ərəbistan müftisi və hicaz vəhhabilərinin rəhbəri İbn Baz bid'ətə belə tə'rif verir:

"Keçmişdə oxşarı olmayan hər bir yenilik bid'ətdir."[1]

Elə bu tə'rifə əsaslanaraq vəhhabilərin və digərlərinin bid'ətlərini iki qrupa ayıra bilərik: Onların öz fiqhinə əsasən bid'ət sayılan işlər və şiə fiqhinə əsasən bid'ət sayılan işlər.

## *VƏHHABİLƏR ÖZ FİQHİNƏ ƏSASƏN YOL VERDİKLƏRİ BİD'ƏTLƏR*

Onların nəzərincə, Peyğəmbər (s) və səhabələrdən sonra baş vermiş yeniliklər bid'ət və haramdır, şirk və küfr səbəbidir. İbn Baz öz mövqeyinin sübutu üçün Peyğəmbərdən (s) bir rəvayət də sitat gətirir. Elə həmin rəvayətə əsasən də vəhhabilərin bid'ətlərinə nəzər salaq:

1.Müsəlmanları müşrik və kafir saymaq;

Peyğəmbər (s) və onun səhabələrinin dövründə belə bir münasibət yox idi. Hansı ki, fikir ayrılığı da olurdu, səhabələr mübahisə də edirdilər, savaş vəziyyəti də yaranırdı, hətta

[1] "Fətavi muhimmə", Ben Baz, №11, səh. 31

müsəlmanlar xəlifə saydıqları Osmanı öldürüb, yəhudi qəbiristanlığında basdırmışdılar. Bütün bunlara baxmayaraq, kimsə kimsəni kafir saymırdı. Vəhhabilər isə öz fiqhinə əməl edən, onlarla eyni fikirdə olmayanları şirk, küfr və dindən çıxmaqda ittiham edirlər. Onların bu işinin Qur'ana zidd olması ayələrdən aşkar görünür: "Müsəlmanlığını bildirənə kafir deməyin."[1] Bəli, vəhhabilərin aşkar bid'ətlərindən biri müsəlmanları kiçik işlərə görə şirk və küfrdə ittiham etmələridir. Onlar şərif ayə və öz nəql etdikləri rəvayətlərin ziddinə hərəkət edirlər.

2.Bəqi, Ühüd və Əbu Talib qəbiristanlıqlarına göstərilən münasibət;

Onlar qəbiristanlıqları hasara salır, gecələr və günün müəyyən saatları onların qapısını bağlamaqla qəbir ziyarətinə mane olur, qəbiristanlarda tablolar asıb, qeyri-münasib sözlər yazır, qəbirlər üzərində nəzarətçilər qoyurlar. Bütün bunlar bid'ətdir. Peyğəmbər (s) və onun səhabələri dövründə sadalanan işlərin heç biri mövcud olmamışdır. Mö'təbər sünni mənbəyində nəql olunur: "Rəsulullah (s) gecə yarı, Ayişə yatdığı vaxt Bəqiyə qəbir əhlinin ziyarətinə gedirdi."[2] Başqa bir rəvayət: "Bə'zən ölülər gecə dəfn olunar və Rəsulullah (s) növbəti gün onların qəbrinə namaz qılardı."[3]

Ən çirkin bid'ətlərdən biri budur ki, Ühüd şəhidlərinin qəbirlərini hasarlayıb, möhtərəm zəvvarların qəbiristana daxil olmasına mane olurlar. Ziyarət vaxtı səs gücləndiricilər ətrafda sakitliyi pozur, ziyarətçilərin hissləri təhqir olunur. Məgər müsəlman ziyarətçilərlə belə rəftar etmək bid'ət deyilmi?! Ziyarətçilərə bir belə maneə yaradanları Peyğəmbər (s) ardıcılı saymaq olarmı?

3.Məscidül-həram və Məscidün-nəbidə cənazə namazı qılmaq;

---

[1] Nisa surəsi, ayə 94

[2] "Səhih Buxari", əlcənaiz, səh. 214, hədis 1340.

[3] "Səhih Müslüm", əlcənaiz, səh. 412, hədis 974.

Cənazələri adı çəkilən məscidlərə daxil edib, meyit namazı qılan vəhhabilər belə bir rəvayət nəql edirlər:

Ayişə göstəriş verir ki, Sə'd ibn Əbu Vəqqasın cənazəsi məsciddən aparılsın və özü də ona namaz qılır. Müsəlmanların e'tirazı ilə qarşılaşan Ayişə deyir: "Peyğəmbərin (s) məsciddə Süheylə namaz qılmasını müsəlmanlar nə tez unutdu!" [1] "Səhih Müslim"dən daha mö'təbər sayılan "Səhih Buxari"də bu məsələ açıqlanmır. "Əl-fiqh ələl-məzahibul-ərbəə" kitabının 1-ci cildində deyilir: "Məsciddə meyit namazı caizdirmi? – Məsciddə meyit namazı məkruhdur, hətta məscidin kənarında da – bu hənəfilərin və malikilərin mövqeyidir. Bildirilir ki, meyitə namaz qılınmamış onu məscidə daxil etmək məkruhdur. Hənbəlilər bu işi mübah, şafeilər isə müstəhəb sayırlar." Başqa bir sünni kitabında mənbə göstərilmədən nəql olunur ki, Əbu Bəkr və Ömərin cənazə namazları məsciddə qılındı. [2] İbn Baz deyir: "Məsciddə cənazə namazı caizdir. Bu namazı bayram namazı qılınan yerdə qılmaq əfzəldir."[3]

İndi özünüz qərara gəlin, məsciddə cənazə namazı qılınmasında təkcə bir rəvayətə istinad olunur və bu rəvayətdən də mə'lum olur ki, uyğun iş Peyğəmbər (s) dövründə adi sayılmışdır. Əgər bu rəvayəti düzgün saysaq, yalnız bir dəfə Peyğəmbər (s) məsciddə cənazə namazı qılmışdır. Sonra isə yenə də bircə dəfə Ayişə məsciddə meyit namazını yerinə yetirmişdi. Səhabələr dövründə belə bir namaz yalnız Ayişənin qıldığı namazdır və həmin namaz da e'tirazla qarşılanmışdır.

Mö'təbər vəhhabi mənbələrindən mə'lum olur ki, onlar meyit namazında Qur'an və Peyğəmbər sünnəsinə zidd beş bid'ətə yol verirlər:

---

[1] "Səhih Müslüm", əlcənaiz, səh. 412, fəsil 34, hədis 973.
[2] "Səlatul-mumin", əl-Qəhtani, c.2, səh. 1277
[3] "Məcmuətül-fətavi", Ben Baz, c. 13, səh. 164

1.Dəlil göstərilən rəvayətdə Peyğəmbər (s) və Ayişənin Məscidün-nəbidə cənazə namazı qıldığı bildirilir. Bu rəvayətə əsasən Məscidül-həramda cənazə namazı qılınmasını caiz saymaq olmaz. Meyiti Məscidül-hərama daxil edib, meyit namazı qılmaq vəhhabilərin öz məntiqinə görə bid'ətdir.

2.Rəvayətdə həm Peyğəmbər (s), həm də Ayişənin cəmi bir dəfə bu işi gördüyü bildirilir. Rəvayətdən bu nəticə çıxmır ki, gündə məsciddə meyit namazı qılınmalıdır.

3.Rəvayətdə meyit namazının camaat namazından sonra qılındığı bildirilmir. Hansı əsasla bu namaz camaat namazından sonra qılınır?

4.Namazın tə'qibatı və nafilə namazları daha çox tapşırıldığı halda, meyit namazlarının hesabına müsəlmanlar bu işə imkan tapmırlar.

5.Meyit namazında azançı "əssəlatu ələl-əmvat" deyə Peyğəmbərin (s) kənarında haray salır. Hansı ki, vəhhabilər başqalarını həmin yerdə səsini çıxarmağa qoymurlar.

Cənazəni imkan daxilində tez dəfn etmək tapşırıldığı halda, sübh namazından sonra ölmüş adam dəfnə hazır olsa da, onu günortaya saxlayırlar ki, günorta namazından sonra meyit namazı qılıb, dəfn etsinlər. Bu iş əsil bid'ətdir. İndi özünüz görün ki, bu adamlar öz fiqhləri baxımından nə qədər bid'ətə yol verirlər.

## *VƏHHABİLƏRİN MƏSCİDLƏ BAĞLI BİD'ƏTLƏRİ*

Vəhhabilərin məscidlərlə, xüsusi ilə də Məscidül-həram və Məscidün-nəbi ilə bağlı bid'ətlərinə nəzər salaq:

1.Çox uca və çoxsaylı minarələrin tikilməsi;

2.Çoxsaylı günbəzlərin tikintisi, xüsusi ilə Məscidün-nəbinin 21-ci qapısı üzərindəki 7 oxşar günbəz;

3.Qapı və divarların, tavanın müxtəlif naxışlarla zinətləndirilməsi;

4.Məscidin qapı və divarlarının yazılması;

5.Gecənin bir hissəsi Məscidün-nəbinin qapılarını bağlamaqla namaz qılanlara maneçilik;

6.Məscidün-nəbidə çoxsaylı kitabxanalar;

7.Məscidül-həram və Məscidün-nəbidə süfrə açılması (xüsusi ilə ramazan ayında)

8.Ölülərin məscidə daxil edilməsi və məsciddə cənazə namazı qılınması;

9.Qadınlara qəbir ziyarətini haram bildikləri halda, gündə iki növbə onların Məscidün-nəbiyə buraxılması;

10.Məscidlərin sü'ni və rəngarəng xalılarla döşənməsi, hansı ki, bu, diqqəti dünyaya yönəldir;

11.Çoxlu qəbirlər olan Məscidül-Həramda və Məscidün-nəbidə namaz qılınması Müfti ibn Bazın fətvalarına ziddir. [1]

Əgər dəqiq araşdırsaq, məscidlə bağlı daha çox bid'ət üzə çıxar. Sadaladıqlarımız vəhhabilərin öz fiqhinə əsasən bid'ət sayılır. İndi onların öz kitablarından bə'zi rəvayətləri nəzərinizə çatdırırıq:

İbn Abbas nəql edir ki, Peyğəmbər (s) buyurdu: "Məscidlərin çox ucaldılmasını və genişləndirilməsini əmr etmirəm." [2]

İbn Abbas müsəlmanların gələcəyindən xəbər verərək deyir: "Yəhudilər və məsihilər kimi məscidləri bəzəyib, qızıla tutacaqsınız." [3] Ömər ibn Xəttab da məscidlərin zinətləndirilməsini pisləmişdir.[4]

Belə bir rəvayət də var: "Peyğəmbər (s) zamanı Məscidün-nəbinin divarı çiy kərpicdən, sütunları xurma ağacından, tavanı isə xurma budaqlarından idi. Əbu Bəkrin vaxtında da belə idi. Ömər ibn Xəttab əvvəlki şəkildə məscidi təzələdi. Amma Osman məscidi genişləndirib, divarları və sütunları

---

[1] "Tohfətul-ixvan", səh. 68

[2] "Səlatül-mu`min", əl-Qəhtani, səh. 498

[3] Həmin mənbə

[4] Səhih Buxari, Kitabus-səlati, səh. 77, hədis 445.

rəngli daşlarla hördürdü, tavanı isə Hindistandan gətirilmiş xüsusi ağaclarla örtdü."[1]

İbn Baz deyir: "İnsanlar evlərini gözəl tikdiyi bir vaxt qədim binalardan uzaq gəzir, belə məscidlərdə yığıncaq və namazdan çəkinirlər. Belə vaxtlarda xalqı məscidə rəğbətləndirmək üçün onu rəngli daşlardan tikmək olar, necə ki, Osman belə etdi."[2]

Bu rəvayətlərin mö'təbərliyini araşdırmadan vəhhabilərdən və İbn Bazdan soruşduq ki, nə üçün öz mö'təbər kitablarına, Ömər və İbn Abbasın, həzrət Peyğəmbərin (s) qadağalarına əhəmiyyət vermirlər? Necə olur ki, başqalarını şirkdə və küfrdə ittiham edərkən dəlil göstərilən rəvayətlər vəhhabilərin öz bid'ətlərinin qarşısını almır? Necə ola bilər ki, xalqı məscidə rəğbətləndirmək üçün İslamda olmayan, bid'ət işlərə yol verilə? Hansı ki, İslam şəxsiyyətlərinə məqbərə tikilməsi, uçulmuş binaların tə'miri birtərəfli qaydada bid'ət sayılır. Onların nəzərincə, Bəqidəki imam qəbirlərinin təmizlənməsi, Ühüd şəhidlərinin qəbirlərinin səliqəyə salınması bid'ət, şirk və küfrdür!

## *MÜBAHİSƏ*

Onlardan birinə dedim: "Məscidə döşədiyiniz xalılar 50 ildir buradadır. Bu xalılar sü'nidir. Peyğəmbər (s) və onun səhabələri belə döşəmədə namaz qılmayıblar. Peyğəmbər (s) dövründə məscidin döşəməsi torpaq, həsir və bu kimi təbii şeylər olub. Sizin döşədiyiniz xalılara isə səcdə etmək batil, bid'ət və haramdır. Bu xalıları döşəmədən yığsanız, daha yaxşı olar və biz şiələr məscidin xalısız hissəsində namaz qılmarıq. Peyğəmbərin (s) dövründəki kimi çiyin-çiyinə dayanıb namaz qılarıq."

Dedi: "İndiki dövrün adamları Peyğəmbər (s) dövrünün xüsusiyyətlərini bəyənmirlər, ona görə də xalı lazımdır."

---

[1] Həmin mənbə.

[2] "Səlatül-mu'min", əl-Qəhtani, səh. 500.

Dedim: "Əvvəla, müsəlmanlar Peyğəmbərin (s) necə namaz qıldığını öyrənməlidirlər. Peyğəmbər (s) nəyə səcdə edibsə, biz də həmin şeylərə səcdə etməliyik. Axı həzrət buyurub ki, mən necə namaz qılıramsa, siz də elə qılın. İkincisi, qədim dövrü bəyənməyən adamlar onların ibadətlərində axtarış aparılmasını da bəyənmirlər. Siz vəhhabilər isə başqalarının namazını öz süzgəcinizdən keçirirsiniz."

Dedi: "Nə vaxt belə olub?"

Dedim: "Şiə fiqhində bu xalılara səcdə etmək düzgün sayılmır. Ona görə də biz ya həsir və torpaq, daş üzərində namaz qılır, ya da səccadə səririk. Vəhhabilər buna e'tiraz edir, səccadəmizi yığışdırır, bə'zən də təhqir edirlər. Hansı ki, biz şiələr başqa məzhəbdən olanlara mane olmur, onların ibadətlərinə müdaxilə etmirik. Əksəriyyəti şiələrdən ibarət olan İran mühitində hər bir insan öz məzhəbinə uyğun şəkildə ibadət edir və heç bir e'tirazla qarşılaşmır. Necə olur ki, siz öz əqidənizə və fəqihlərinizin ziddinə, zəmanə adamlarının istəyinə müvafiq olaraq, məscidləri zinətləndirir, sü'ni xalılar döşəyir, eyni zamanda Bəqi, Ühüd, Əbu Talib qəbiristanlarının ziyarətçilərinə mane olursunuz? Nə üçün müxtəlif islami və qeyri-islami ölkələrdən gəlmiş ziyarətçilərin istəyinə e'tina olunmur? Nə üçün böyük İslam şəxsiyyətlərinin qəbirlərinin tə'mirinə icazə vermirsiniz?"

Dedi: "Mən sizin ibadət və namazınıza e'tiraz etmirəm. Bəli, biz vəhhabilərdən bə'ziləri quru və təəssübkeş adamlardır. Onlar əmr be mə'ruf və nəhy əz münkər etdiklərini düşünürlər. Siz böyük məqsədlər naminə güzəştə getməlisiniz. Qəbiristanların ixtiyarı isə böyüklərin əlindədir, adi adamlar bu işə müdaxilə edə bilmirlər. Hər halda gərək bağışlayasınız. Allah-taala buyurur: **"Əfv edib, bağışlayın; Allahın sizi bağışlamasını istəmirsiniz?"** [1]

[1] "Nur", 22

Dedim: **“Bu gün sizə məzəmmət yoxdur, Allah sizi bağışlasın.”**[1]

Görüşüb ayrıldıq. Mədinədə olduğum müddətdə ünsiyyətə olduğum adamlar arasında belə insaflısını görmədim.

## *ŞİƏ FİQHİNƏ GÖRƏ SÜNNİLƏRİN BİD'ƏTLƏRİ*

Əvvəlki söhbətlərimizdə sünnə əhli və vəhhabiləri onların öz fiqhinə, məzhəbinə, rəvayətlərinə əsaslanaraq bəyan etdik. İndi isə onların şiə fiqhi baxımından bid'ətlərini nəzərdən keçirəcəyik:

1.Fəcr tülusundan qabaq azan demək bid'ət və haramdır;

2.Sübh azanında “əssəlatu xəyrun minən-novm” demək bid'ət və haramdır;

3.Əllər qabaqda bağlı halda namaz qılmaq bid'ət və haramdır, belə qılınan namaz batildir;

4.“Həmd” surəsinin əvvəlində “bismillahir-rəhmanir-rəhim” deməmək bid'ət və Qur'anın təhrifidir, namazı batil edir;

5.“Həmd” (Fatihə) surəsindən sonra “amin” demək bid'ət və haramdır;

6.Namazda səcdə ayəsi oxuyub, onun gedişində səcdə etmək bid'ət və haramdır, namazı batil edir;

7.“Həmd” surəsindən sonra bütöv surə oxumamaq namazı naqis və batil edir;

8.Xalıya səcdə etmək bid'ət və haramdır, namazı batil edir;

9.Namazın salamını deyərkən üzü qiblədən döndərmək bid'ət və haramdır, namazı batil edir;

10.Camaat namazında sıraların bitişikliyini gözləməmək bid'ətdir və namazı batil edir;

11.Ramazan ayının gecə nafilələrini “təravih” adı altında camaatla qılmaq bid'ət və haramdır;

12.Azan və iqamənin bə'zi hissəllərini ixtisar etmək haramdır;

---

[1] “Yusuf”, 92

13.Cümə günü cümə namazı üçün iki azan demək bid'ət və haramdır;

Adətən, cümə günləri sübh namazında "Həmd" surəsindən sonra "səcdə" surəsi oxunur. Rəkət gedişində səcdəyə gedilməsinin bid'ət olmasından əlavə, müsafirlər və belə namazla tanış olmayanlar səcdə əvəzində rükuya getdiklərindən namazları batil olur. Camaat namazında uzun surə oxumaq Peyğəmbərin (s) əmrinə ziddir. Pişnamaz mö'minlərin halını nəzərə almalıdır. Təkcə cümə günü sübh namazında yox, bütün camaat namazlarında mö'minlərin halı nəzərdən qaçırılmamalıdır.

Sünni mənbələrində nəql olunur ki, həzrət Peyğəmbər (s) buyurmuşdur: "Əgər biriniz pişnamaz (imam camaat) olsanız, namazı yüngül və qısa qılmalısınız. Çünki namaz qılanlar arasında uşaqlar və böyüklər, zəiflər və xəstələr, işə tələsənlər vardır. Namazı təklikdə qılan kəs istədiyi kimi (uzun və ya qısa) qıla bilər." [1] Başqa bir rəvayət: "Hansınız camaatla pişnamaz olsa, namazı yüngül qılsın. Çünki adamlar arasında zəiflər, xəstələr, işi olanlar var." [2] Bu mənbələrdə oxşar hədislər "təvatür" həddədir. Amma bu göstərişlərə əməl olunmur, xüsusi ilə sübh namazları uzadılır. Hətta bə'zilərini namaz gedişində yuxu tutur.

Şiələrdən biri dedi: "Mən bu səhnələri görəndən sonra öz pişnamazlarımızın qədrini bildim. Əgər bizim pişnamazlar belə namaz qılsalar, məscidə gələn olmaz."

Bəli, şiələr bu bid'ətləri görür və ümumi düşmən qarşısında vəhdəti qorumaq üçün susurlar. Onlar öz fəqihlərinin əmrinə itaət edərək, sünnilərlə camaat namazında çiyin-çiyinə dayanır, namaz qılırlar. Bu göstərişlər mə'sum İmamlarımızın (ə) tövsiyəsidir. Onlar isə şiələri şirk və küfrdə ittiham edir, hətta bə'ziləri Əhli-beyti (ə) təhqir etmək səviyyəsinə

---

[1] "Səhih Buxari", kitabul-əzan, hədis 703.
[2] "Səhih Müslüm", hədis 467.

alçalırlar. Müəllifi hazırkı kitabı yazmağa sövq edən də məhz bu məsələdir.

**Sual 34:** Nə üçün şiələr məhrəmlik məqsədi ilə və zəruri hallarda müvəqqəti izdivacı (müt'ə, siğə) halal sayır, sünnə əhli isə haram hesab edir?

**Cavab:** Qur'an və həm şiə, həm də sünnə əhlinin bir çox rəvayətləri müvəqqəti izdivacın halallığını sübuta yetirir. Qur'ani-kərimdə buyurulur: "İstifadə etdiyiniz qadınların muzdlarını (mehrlərini) yetərincə verin." [1] Sünnə əhlinin qəbul etdiyi İbn Kəsirin təfsirində bu ayə haqqında deyilir: "Bu ayə müt'ə (müvəqqəti izdivac) haqqında nazil olmuşdur."[2] Bunu da qeyd etməliyik ki, o, bu sözlərin ardınca həzrət Əlidən (ə) rəvayət nəql edir və bildirir ki, həzrət Peyğəmbər (s) müt'əni qadağan etmişdir. Belə bir qadağanın Peyğəmbər (s) tərəfindən Məkkənin fəthi zamanı qoyulduğunu nəql edən rəvayət də var. [3]

İbn Kəsirin təfsirindən mə'lum olur ki, uyğun ayədə müvəqqəti nikahın halallığı hökm olunur. Başqa bir rəvayətdə İbn Abbas müt'ənin halal olduğunu bildirir. [4] Həmin mənbədə Cabir ibn Abdullah və Sələmə ibn Əl-əkvədən nəql olunmuş iki rəvayətdə də Peyğəmbərin (s) müt'əyə icazə verdiyi bildirilir.

"Səhih Müslim"də bir neçə rəvayətdə bildirilir ki, Peyğəmbər (s) və Əbu-Bəkr dövründə, eləcə də Ömərin hakimiyyətinin əvvəllərində müt'ə var idi; Ömər həcc və nisa müt'əsini qadağan etdi. [5] Həmin kitabda Əbuzərin "nisa və həcc müt'əsi bizə məxsusdur" dediyi xəbər verilir. Orada Cabir ibn Abdullahdan belə bir rəvayət nəql olunur: "Ömər dedi: müvəqqəti nikahdan uzaq olun. Mənim yanıma müt'ə

---

[1] "Nisa", 24
[2] İbn Kəsirin təfsiri, səh. 285
[3] Həmin mənbə, səh. 286
[4] "Səhih Buxari", kitabun-nikah, səh. 915, hədis 516-518
[5] "Səhih Müslüm", kitabun-kikah, səh. 599, hədis 1405.

etmiş bir şəxs gətirilsə, onu daşqalaq edərəm". Eyni mənbədə nəql olunur ki, Həzrət Əli (ə) buyurdu: "Xeybər fəthində Peyğəmbər (s) müt'əni və əhilləşmiş uzunqulaq ətini qadağan etdi." [1] Bə'zi rəvayətlərdə isə müt'ənin Məkkə fəthində qadağan olduğu bildirilir. Bu rəvayətlərdən mə'lum olur ki, müt'ə halal imiş, sonralar ixtilaflı məsələyə çevrilib. Mö'təbər sünni mənbələrindən birində deyilir: " İslamın başlanğıc dövründə müt'ə zərurətdən halal olmuşdur. Çünki müsəlmanlar müharibələr və iqtisadi çətinliklər səbəbindən ailə qura bilmirdilər. Şəhvətin qarşısını almaq üçün daima oruc tutmaq isə şər'ən qəbul deyil. Ona görə də müvəqqəti izdivac əvvəllər halal idi, sonra isə qadağan olundu. Bununla belə, müt'ə edənə zinanın cəzası verilmir. Çünki bu məsələdə şübhə var..." [2] Deyilənlərdən mə'lum olur ki, bütün sünni məzhəbləri müt'ənin bir vaxt halal olduğunu qəbul edir və həmin hökmün zərurətdən doğduğunu bildirirlər.

Müt'ənin qadağan edildiyini bildirən rəvayətlərin bir hissəsi bu hökmün Xeybər fəthində, digər bir hissəsi isə Məkkə fəthində verildiyini bəyan edir. Bə'zi rəvayətlər isə bu hökmün Peyğəmbər (s) tərəfindən yox, Ömər tərəfindən verildiyini bildirir. Müt'ə barədə mə'lumatlar ixtilaflı olduğundan Qur'an ayəsini inkar etmək olmaz. Həm də uyğun mənbələr müt'ənin zərurətdən doğduğunu bildirdiyindən həmin zərurəti istisna etmək olmaz. Əgər bu hökmün Ömər tərəfindən verildiyini qəbul etsək, müt'əni haram saya bilmərik. Çünki Qur'anın və Peyğəmbərin (s) halal buyurduğunu Ömər haram edə bilməz. Həzrət Əlidən (ə) nəql olunan rəvayət isə müt'ənin haram yox, məkruh sayılmasına əsas ola bilər. Beləcə, əhli sünnə rəvayətləri də müt'ənin halal olduğunu təsdiqləyir. Qəti dəlil olmadan halalı haram hesab etmək mümkün deyil. Sünnə əhlinin əsas

---

[1] Həmin mənbə.
[2] "Əl-fiqh ələl-məzahibil-ərbəə", c. 4, səh.85

gətirdiyi rəvayətlər bir-birinə zidd olduğundan onları dəlil hesab etmək, Qur'an ayəsini şübhə altına almaq olmaz.

Bundan əlavə, nəql olunmuş rəvayətləri inkar edən rəvayətlər də vardır. Onlardan birində Həzrət Əli (ə) buyurur: " Əgər Ömər müt'ənin qarşısını almasaydı, bir qrup bədbəxtdən savayı kimsə zina etməzdi."[1] Digər bir rəvayətdə Ömər xalqa xitabən minbərdən deyir: "Ey camaat, mən Peyğəmbər (s) zamanında halal olmuş üç şeyi haram edirəm və həmin işləri görənləri cəzalandıracağam: qadınların müt'əsi, həcc müt'əsi və azanda "həyyə əla xəyril-əməl" deyilməsini."[2]

## HƏCCİ TƏMƏTTÖ' NƏDİR?

Həcci təməttö' odur ki, bir müsəlman şəvval, zilqə'də və ya zilhiccə aylarının birində hər hansı miqatda (həccə giriş məntəqəsi) "ümrəyi-təməttö'" niyyəti ilə ehram bağlayıb, Məkkəyə daxil olsun. Təvaf və sə'ydən sonra "təqsir" edib ehram halından çıxsın. Məkkədə həcci-təməttö' əməlləri üçün növbəti ehram bağlayınca ehramda haram olanlar halal olur.

Bu həcc ona görə təməttö' həcci adlandırılır ki, iki ehram halı arasındakı fasilədə ehramın haram etdikləri halal olur, yə'ni insan həmişə halal olan şeylərdən ləzzət ala bilir.

Bu barədə Qur'anda buyurulur: "Həcc və ümrəni Allaha görə yerinə yetirin. Maneçilik olsa mümkün olan bir qurbanlıq edin və yerinə çatana qədər başınızı qırxmayın. Xəstələnən və başından əziyyət çəkən kəs əvəz olaraq, sədəqə verməli, oruc tutmalıdır. Əminlikdə isə ümrədə olan kəs həccə qədər mümkün olan qurban kəsməlidir. Tapa bilməyənlər həcc günlərində üç, qayıtdıqdan sonra yeddi gün oruc tutmalıdırlar ki, bu da on gün edir. Ümrə əməli ailəsi

[1] "Dürrül-Mənsur", c. 2, səh. 140
[2] "Əl-ğədir", c. 3, səh. 329

Məscidül-həramda sakin olmayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allahın əzabı ağırdır."[1]

Həzrət Peyğəmbər (s) təməttö' həcci vasitəsi ilə cahiliyyət qanunları ilə mübarizədə daha bir addım atdı. İslamdan əvvəl, qeyd edilən üç ayda ümrə əməlləri böyük günah sayılırdısa, İslam həmin aylarda təməttö' həccini müəyyənləşdirməklə qədim əsassız qaydaları aradan qaldırdı.

Buxari və Müslümdə, İbn Abbasdan belə nəql edilir: "Xalq islamdan qabaq həcc aylarında ümrəni yer üzünün ən böyük günahı sayırdılar və deyirdilər ki, səfər ayı bitdikdən sonra ümrə əməlləri halal olur."

İbn Abbas əlavə edir ki, zilhiccənin dördüncü günün səhəri Peyğəmbər (s) və səhabələri həcc üçün ehram bağlayıb Məkkəyə daxil olduqları halda, Peyğəmbər (s) ehramın ümrəyə çevrilməsi və ehramdan xaric olma göstərişi verdi; amma bu göstəriş səhabələrə ağır gəldi, ehramdan çıxmaqla hansı qadağaların götürüldüyü barədə soruşdular: Peyğəmbər (s) buyurdu ki, ehramla əlaqədar haram edilənlərin hamısı halal oldu.[2] Müsəlmanlardan bir qismi Peyğəmbərin (s) bu göstərişinə qarşı çıxdı. Onlar cahiliyyət dövrünün adətlərini tapdayaraq həcci bitirməmiş ehramdan çıxmağa cürət etmirdilər.

## *ÖMƏRİN TƏMƏTTÖ' HƏCCİNİ QADAĞAN ETMƏSİ*

Yuxarıda qeyd edildiyi kimi, müxaliflərin istəklərinin ziddinə olaraq, təməttö' həcci həyata keçdi və Ömərin hakimiyyətinədək davam etdi. Ömər təməttö' həccini qadağan etdi və müxalifləri ciddi cəzalandıracağını bildirdi. Bu barədə sünni mənbələrində xeyli rəvayət vardır. Onlardan bə'zilərini nəzərinizə çatdırırıq:

1.İmran ibn Həsin deyir: "Həcc müt'əsi haqqında ayə nazil oldu və Peyğəmbər (s) bu həccin icrası üçün göstəriş verdi.

---

[1] "Bəqərə", 196

[2] "Səhih Buxari", kitabul-həcc, səh. 254, hədis 1564.

Sonralar bu ayəni nəsx edən heç bir ayə nazil olmadı. Peyğəmbərin (s) vəfatından sonra bir şəxs nəfsinin hökmü ilə bu barədə istədiyini danışdı."[1]

2.Əbu Nəzrə deyir: "Mən Cabir ibn Abdullahın yanında olarkən bir kişi gəlib dedi: "İbn Abbas və ibn Zübeyr iki müt'ə haqqında mübahisə edirdilər." Cabir dedi: "Bəli, biz Peyğəmbər (s) dövründə hər iki işi görürdük. Amma sonradan Ömər onları qadağan etdi, biz də həmin müt'ələrdən çəkindik."[2]

3.İmran ibn Həsin ölüm yatağında olarkən Mutrəfə dedi: "Mənim ölümüm qətidir. Sənə faydalı ola biləcək bir neçə söz demək istəyirəm. Əgər sağ qalsam, onları məxfi saxla, əgər ölsəm, həmin sözləri xalqa deyə bilərsən; birincisi budur ki, Peyğəmbər (s) həcc və ümrəni bir ildə cəmləşdirmişdi. Buna qarşı nə ayə nazil oldu, nə Peyğəmbər (s) qadağa qoydu. Amma bir şəxs bu barədə istədiyini etdi."[3]

4.Əbu Musa həcc müt'əsinə fətva vermişdi. Bir şəxs ona bu işdə tələsməməyi tövsiyə edib, Ömərin qadağasını xatırlatdı. Əbu Musa Ömərlə görüşüb, bu barədə sual verdi. Ömər dedi: "Bəli, Peyğəmbər (s) və onun səhabələrinin təməttö' həcci etdiklərini bilirəm. Amma istəmirəm ki, müsəlmanlar (iki ehram arası) ərak (salxımlı meyvəsi olan) ağacı altında xanımları ilə yaxınlıq edib, üz-gözlərindən qüsl suyu axa-axa həcc əməlləri ardınca getsinlər."[4]

Amma bütün bu kimi baxışların cavabı Qur'ani-kərimdə verilmişdir.[5]

Buxari və Müslim nəql edirlər ki, Osman ibn Əffan təməttö' həccini qadağan etdiyi vaxt Əli ibn Əbu-Talib (ə) ümrə və həcc üçün ehram bağlayıb dedi: "Mən bir nəfərin sözünə görə

---

[1] "Səhih Müslüm", kitabul-həcc, səh. 539, hədis 1240.
[2] Həmin mənbə
[3] Həmin mənbə
[4] Həmin mənbə
[5] "Əhzab", 36

Allah qanunu və Peyğəmbər (s) sünnəsini tərk etməyəcəyəm."[1]

Hər iki "səhih"də Osmanla Həzrət Əli (ə) arasındakı ixtilaf barədə Səid ibn Müseyyibdən belə nəql olunur: "Həzrət Əli ibn Əbu Talib Osmana dedi: Osman, sənin məqsədin yalnız Peyğəmbərin (s) göstərişlərinin qarşısını almaqdır. Osman dedi: Bizimlə işin olmasın. Həzrət Əli (ə) buyurdu: Səni boşlaya bilmərəm. Amma Əli (ə) vəziyyəti belə görüb, özü ümrə və həcc üçün ehram bağladı." Başqa bir rəvayətdə Osmanın Həzrət Əliyə ağır cavab verdiyi nəql olunur.

### *MÜAVİYƏ DÖVRÜNDƏ TƏMƏTTÖ' HƏCCİ*

Hədisləri araşdırdıqda aydın olur ki, Müaviyə dövründə də təməttö' həcci mövzusunda ixtilaflar davam etmişdir. Müaviyə bu məsələdə Ömər və Osmanın mövqeyini qorumağa çalışmışdır. Amma müsəlmanların bir hissəsi ona e'tiraz edərək , əmrinə tabe olmamışlar. "Səhih Müslüm"də Sə'din belə dediyi nəql olunur: "Müaviyə Allaha küfr etdiyi bir vaxtda biz təməttö' həccini yerinə yetirirdik."[2]

### *NƏHAYƏT 2-Cİ XƏLİFƏNİN GÖSTƏRİŞİ UNUDULDU*

Həzrət Əli (ə)-ın və bir qisim müsəlmanların sə'yləri nəticəsində, nəhayət, təməttö' həcci Peyğəmbər (s) dövründəki kimi yerinə yetirilməyə başladı, hətta sonradan əhli sünnə fəqihləri Ömərin fətvasına zidd fətva verdilər. Şafeilər dedilər: "Şəxs necə həcc etməkdə azaddır..."[3]

### *İSLAM KAMİL DİNDİR*

Bütün müsəlmanlar bu əqidədədirlər ki, İslam dini kamil və həmişəlikdir. Onun kamilliyi bütün bəşəri ehtiyaclara cavab

---

[1] "Səhih Buxari", təməttö`, səh. 254, hədis 1563.
[2] "Səhih Müslüm", kitabül-həcc, səh. 533, hədis 1225.
[3] Əl-fiqhu ələl-məzahibil ərbəə, cild-1, səh-688

vermәsindәdir. Digәr bir tәrәfdәn, şәr'i hökmlәrdә әmrlәr xeyirdәn, qadağalar isә fәsadlardan asılı olaraq müәyyәnlәşir.

Bә'zәn müvәqqәti izdivacda (müt'ә, siğә) mәqsәd günahın qarşısının alınması olur. Mәsәlәn, kimsә şikәst vә ya zahirәn çirkin qadınla evlәnmәk istәmir. Bu qadın, qәlbi analıq hisslәri ilә dolu bir insandır vә әn azı, övlad sahibi olmaq istәyir. İslam belә insanların ehtiyacına cavab vermәsә, onu kamil hesab etmәk olmaz. Bu çәtinliyi müvәqqәti izdivac hökmü aradan qaldırır. Mәgәr Peyğәmbәr (s) dövründә mövcud olan belә problemlәr hazırkı dövrdә yoxdurmu? Əlbәttә ki, var!

Bә'zilәri irad tuturlar ki, qadının qısa müddәt әrdә olub, sonra tәnha buraxılması xoşagәlmәz işdir. Hansı ki, daimi izdivacda da hәmin ayrılıq baş verә bilәr. Bir çox daimi nikahlar üç-beş gün çәkir vә qadına tәlaq verilir. Müvәqqәti izdivaca icazә verilmәdiyi şәraitdә, qısa müddәt bir yerdә yaşamaq qәrarına gәlmiş kişi vә qadın evlәnib, istәdiklәri vaxt boşana da bilәrlәr. Mәgәr belә bir niyyәtlә evlәnәn adamlara kim mane ola bilәr? Heç kim! Ən pisi isә, qanuni yolla istәyinә çatmayan insanlar, adәtәn günaha üz tuturlar.

### *MÜBAHİSƏ*

Müәllif Mәdinәdә olarkәn müt'ә haqqında suallarla tez-tez qarşılaşıb. Belә bir sual oldu: "İslam icazә verә bilәrmi ki, bir kişi bir qadınla qısa müddәtdә evlәnib, sonra onu buraxıb getsin? Dedim: "İslam icazә veribmi ki, bir kişi bir qadını iki gündәn sonra boşayacağını nәzәrdә tutub, onunla daimi nikaha girә?" Bir az düşünüb, dedi ki, bu iş düzgündür vә şәr'i cәhәtdәn eybi yoxdur. Dedim: "Belә bir niyyәtlә hәyata keçәn daimi nikahla müvәqqәti nikah (müt'ә, siğә) arasında nә fәrq var? Daimi nikahın müt'әdәn fәrqi o olur ki, bu nikahda ayrılmaq üçün daha çox şәrtlәr qoyulur." Müsahibim sual verdi: "Bәs müt'әdәn uşaq doğulsa necә?" Dedim: "Müt'әdәn doğulan uşaqla daimi nikahdan doğulan uşaq

arasında heç bir fərq yoxdur, ata uşağın bütün ehtiyaclarını tə'min etməli, onu məskən, libas, qida ilə tə'min etməlidir. Bundan əlavə, müt'ədə qadının uşağa qalmamağı şərt qoyula bilər."

Dedi: "Sən öz bacının müt'ə ilə ərə getməsinə razı olarsanmı?" Dedim: "Bacının ixtiyarı qardaşında yox, onun özündədir. Heç bir qardaş öz bacısını ana olmaq hüququndan məhrum edə bilməz. O ki qaldı mənim istəyimə, istənilən müvəqqəti iş insanı narahat edir. Heç kim icarə evdə yaşamaqdan, icarə dükan götürməkdən xoşhal olmur. Amma çətin şərait insanı belə işlərə məcbur edir. (Sonra yaxınlığımızda durmuş qoca, belibükük kişini göstərib əlavə etdim) Sən öz bacının bu qocaya daimi ərə getməsinə razı olarsanmı:" Müsahibim qocaya baxıb dedi: "Yox, nə mən, nə bacım, nə də qohum-əqrəba belə bir izdivaca razı olmaz." Dedim: "Görürsənmi, siz belə bir işə razı olmadığınız halda, həmin iş halaldır. Mənim də narazılığım müt'ənin halallığına tə'sir göstərə bilməz. Şiələrin mövqeyi belədir ki, günahın qarşısını almaq məqsədi ilə zəruri hallarda müt'ə etmək olar. Çıxılmaz vəziyyətə düşən kişi və qadın müvəqqəti izdivac edərsə, bu işin şər'ən eybi yoxdur."

Müsahibim təşəkkür edib, bu məsələ barədə düşünəcəyini və'd etdi...

**Sual 35:** Nə üçün şiələr sünnilərlə mehriban rəftar etdiyi halda, onlar şiələrə düşmən kimi yanaşır, bə'ziləri isə bizi şirk və qəbirpərəstlikdə ittiham edirlər?

**Cavab:** Şiə məktəbi Qur'ani-kərim və Peyğəmbər (s) Əhli-beyti (ə) yolunu tutaraq, bütün müsəlmanlara qarşı xoş münasibət və məhəbbət göstərir. Bu məktəbin tələbi və şiəliyin nişanəsi başqaları ilə xoşrəftardır. Tanınmış şiə fəqihləri buyururlar: "Yaxşı olar ki, şiələr sünnilərin camaat namazlarında iştirak edərək, öz hüzurları ilə qəlbləri yumşaltsınlar və təfriqəyə səbəb olacaq işlərdən çəkinsinlər."

Amma sünnilər və İbn Bazın ardıcılları olan vəhhabilər şiələrə başqa gözlə baxır, onların müşrikliyini təbliğ edirlər. Hətta məktəblərdə, təbliğat vasitələrində, cümə namazı xütbələrində şiələrə qarşı xüsusi proqramlar nəzərdə tutulur. Şiələr bid'ət və şirkdə ittiham olunur, onlara qarşı bədbinlik yaradılır.

Bə'zi nadan şiələrin hərəkətlərini əsas götürərək, bütün şiə məktəbini tənqid atəşinə tutanlara bəhanə verməmək üçün diqqətli olmalıyıq. Məzhəbə qarşı bədbinliyin qarşısını almaq üçün Bəqidə pəncərələrə parça bağlamaqdan, şam yandırmaqdan, torpaq götürməkdən, orada namaz qılmaqdan çəkinmək lazımdır. Təəssüf ki, avam şiələr hələ də orada şam yandırıb, divarları hisləndirib, pəncərələrə parça və qıfıl bağlayır, imamlara (ə) xitabən məktublar yazırlar. Sübh səhər Bəqiyə gəlib bu səhnələri müşahidə edən mə'murlar şiələrin ünvanına iftira və təhqirlər yağdırırlar.

Onlardan biri ipləri və parçaları bıçaqla kəsərək, qəzəblə mənə müraciət etdi: "Siz özünüzü müsəlman, cə'fəri sayırsınız. Əgər Cə'fər ibn Məhəmmədin şiəsisinizsə, bu nə işlərdir görürsünüz? Bu qıfıllar, parçalar nədir? Nə üçün ehtiyaclarınızı Allahdan istəmirsiniz? Nə üçün Qur'an, dua oxumaq əvəzinə belə işlərlə məşğul olursunuz?" Dedim: "Məgər elm əhli olan şiələrin belə işlər gördüyünü və ya belə işləri göstəriş verdiyini müşahidə etmisənmi?" Dedi: "Onu bilirəm ki, bütün bunlar sizin işlərinizdir, məktublar da sizin dilinizdə yazılıb." Dedim: " Bu işləri nadan və savadsız adamlar görür. Ruhanilər onlara nəsihət versələr də eşidən yoxdur. Amma bu işləri küfr və şirk hesab etmək də düzgün deyil. Belə münasibət də cəhalətdən doğur." Sözümü deyib uzaqlaşdım. O, isə hələ də təhqiramiz sözlər danışırdı. Allah-taala bizi vəzifələrimizdən agah buyursun, məzhəbə söz gətirən işlərdən uzaq olaq. İmam Sadiq (ə) buyurur: "Bizə abır (və şərəf gətirən) olun və bizi çirkin göstərməyin."

Bir sözlə, vəhhabilər Peyğəmbər (s) və onun səhabələrinin görmədiyi işləri caiz saymır, hətta bid'ət və haram kimi dəyərləndirirlər. Onlar Peyğəmbərdən (s) belə bir rəvayət də nəql edirlər: "Yeni ortaya çıxmış işlərdən çəkinin. Şübhəsiz ki, bu işlər bid'ətdir. Hər bir bid'ət isə zəlalət və azğınlıqdır."[1]

Bu əsasla da Peyğəmbər (s) və səhabələr dövründə olmamış əməlləri bid'ət və haram sayır, bə'zi əməlləri isə böyük şirk e'lan edərək, onu edənləri kafir adlandırırlar. İbn Teymiyyə deyir: "Bu işlərdən bə'zilərini görənlər tövbə etməlidirlər, tövbə etməyənlər isə öldürülür."[2]

## *VƏHHABİLƏRİN BİD'ƏT HESAB ETDİYİ ƏMƏLLƏR*

1.Məscidül-Həram, Məscidün-nəbi, Məscidül-əqsa istisna olmaqla, Peyğəmbərin (s), imamların (ə) müqəddəslərin qəbirlərinin və məscidlərin ziyarəti məqsədi ilə səfər;

2.İstənilən bir şəxsin qəbri üzərində günbəz, məqbərə tikmək;

3.Qəbir üzərinə nə isə yazmaq;

4.Qəbir kənarında Qur'an oxumaq;

5.Peyğəmbərin (s) məqbərəsinin şəbəkələrini (divarlarını) və minbərini, imamlara (ə) aid əsərləri öpmək, əl və üzü onlara sürtmək;

6.Kə'bə sütunlarını öpmək, əl və üzü Kə'bə divarlarına sürtmək; Həcərül-əsvəddən ("qara daş") başqa bir şeyin ziyarəti;

7.Peyğəmbəri (s) və övliyaları Allahdan xahiş üçün vasitəçi seçmək, "ya peyğəmbər", "ya Əli", ya "Fatimə" çağırmaq;

8.Məqbərələrə nəzir etmək, onların tə'miri ilə məşğul olmaq, şam yandırmaq;

9.Xeyir iş görüb, savabını başqasına hədiyyə etmək;

10.Peyğəmbər (s) və övliyalardan şəfaət istəmək;

---

[1] "Tohfətul-ixvan", səh. 8

[2] İbn Teymiyyə, Fətavi...", səh. 32

11.Üzü Peyğəmbərin (s) qəbrinə tutaraq, dua etmək;
12.Qəbir kənarında namaz qılıb, dua etmək;
13.Allahdan qeyrisini köməyə çağırmaq;
14.Allahdan qeyrisinə əyilmək;
15.Qəbirlərin başına fırlanmaq;
16.Kimsənin qarşısında düz dayanmaq;
17.Əlamətdar dini günlərdə bayram keçirmək;
18.Əzadarlıq mərasimi keçirmək;
19.Ölmüş adam üçün Qur'an məclisi qurub, fatihə oxumaq, acları doyurmaq;
20. Allahdan qeyrisinə and içmək;
21.Xorla istənilən bir şey oxumaq;
22.Allahı kiməsə and verib, bir şey istəmək

Vəhhabilər ilkin İslamda olmamış və hazırda din ünvanı ilə yerinə yetirilən əməlləri bid'ət və şirk sayır və bildirirlər ki, belə işlərlə məşğul olanlar dindən xaricdirlər! Bəli, onlar uyğun təfəkkür tərzindən çıxış edərək, sadalanan əməlləri haram sayırlar. Vəhhabilər bu əməllərdən bir qisminin şiə kitablarında mövcud olduğunu, şiələrin cəm şəkildə dua oxuyub, ziyarət etdiklərini bilirlər. Xüsusi ilə, lə'nətlərin oxunduğu, "Aşura ziyarəti" onlarda qəzəb doğurur. Şiələrin Məscidün-nəbidə iki xəlifəyə, Bəqidə üçüncü xəlifəyə e'tinasızlığı, imamlara və Əbül-Fəzlin anasına məhəbbətləri vəhhabiləri şiələrə qarşı qıcıqlandıran amillərdəndir.

## *"SƏHİH BUXARİ"DƏN BİR RƏVAYƏT*

Sə'd ibn Übadə xəstə olarkən həzrət Peyğəmbər (s) Əbdürrəhman ibn Ovf, Sə'd ibn Vəqqas və İbn Məs'udla onu yoxlamağa getdi.Sə'd ibn Übadənin ailəsi onu dövrəyə almışdı. Peyğəmbər (s) Sə'din əhvalını soruşub ağladı. Həzrətlə gələnlər də ona qoşulub ağladılar. Sonra Həzrət buyurdu: "Allah-taala göz yaşı və kədərə görə kimsəyə əzab verməz. Amma danışılmayası sözlər danışan dilə görə cəzalandırar." (Rəvayətin ardınca nəql olunur) Həqiqətən də,

meyit, əhli ona ağladığı üçün cəzalandırılar. Ömər ibn Xəttab ölüyə ağlayanları əsası ilə kötəkləyərdi...[1]

Rəvayətdən mə'lum olur ki, Ömər ölüyə ağlayanları çubuq, daş torpaqla susdurarmış. Məsələn, övladını itirmiş ata ağlayanda xəlifə onun göz yaşlarını, cəzalandırmaqla qurudarmış. Bəli, Peyğəmbər (s) ağlayarmış, Ömər isə ağlayanı kötəkləyərmiş! Fiqhə baxın! Əgər bu rəvayət "Səhih Buxari" kimi mö'təbər sayılan bir kitabda olmasaydı, onu nəql etməyə cür'ət olunmazdı. Bir cəmiyyətdə belə bir rəftar adi hesab olunursa, şiələrə qarşı münasibət rəftar gözləməyə dəyməz. Bir şəxs ərəb olması ilə fəxr edərək, Peyğəmbərin (s) ərəblər arasından çıxmasını Allahın lütfü kimi izah etmişdi. Amma nəzərə almamışdı ki, həkim öz işinə ən ağır xəstədən başlayır.

## *VƏHHABİLİYİN BANİSİ*

Övliyaların ziyarəti, onların qəbirləri üzərində tikinti aparılmasına qarşı çıxan ilk şəxs İbn Təymiyyə olmuşdur. Onun atası hənbəli məzhəbində idi. Bu əqidəni İbn Təymiyyədən sonra onun şagirdi İbn Qəyyum Cəvziyə davam etdirmişdir.

İbn Təymiyyə düşünürdü ki, İslam dininə yamaqlar vurulmuşdur və onları qoparmaqla ilkin İslama qayıtmaq lazımdır. O, ifrata vararaq, bir çox rəvayətləri nəzərdən qaçırmış və nəticədə, qəbir ziyarətlərini, onların tikintisini bid'ət saymışdır.

Onun şagirdi İbn Qəyyim öz müəlliminin əqidəsini müdafiə edərək, kitablar yazmışdır. Amma bu iki şəxs İslam alimlərinin müqaviməti ilə qarşılaşmışlar. Siyasi adam olan Məhəmməd ibn Əblülvəhhab Nəcdi bu yolu tutana qədər həmin əqidə genişlənməmişdir. Siyasi qrup yaratmağı bacaran bu şəxs özünü dini sima kimi tanıtdıraraq, Səudiyyə

---

[1] "Səhih Buxari", kitabul-cənaiz, səh. 209, hədis 1304.

Ərəbistanını bu əqidəyə yönəldə bilmişdir. Məhəmməd ibn Əblülvəhhab Mədinəyə gedərək, müsəlmanları ilk dəfə Peyğəmbər (s) qəbrinə təvəssüldən çəkindirmişdir. Nəhayət, qeyd olunan firqə təşkil olunmuşdur. Firqə onun bünövrəsini qoymuş şəxsin şərəfinə "vəhhabilik" adlandırmışdır. Amma bir müddət sonra onlar adlarını dəyişərək, özlərini "sələfi" – yə'ni peyğəmbərin sələfləri kimi tanıtdırmışlar. Tövhid və bə'zi ibadi əməllərdə onlar əksər müsəlmanlarla müxalifdirlər.

Vəhhabilər tövhid əqidəsini müdafiə, şirklə mübarizə şüarları altında müsəlmanlara qarşı hücuma keçib, qırğınlar törətdilər. Kərbəlaya hücum edib, İmam Hüseyn (ə)-ın hərəmini xaraba qoydular, müqəddəs ziyarətgahların var-dövlətini qarət etdilər. Evlərdə talanlar aparıb, Kərbəla əhalisinin bir çoxunu qətlə yetirdilər.

Hicazda böyük İslam şəxsiyyətlərinin, Bəqidə imamların qəbirləri dağıdıldı. Yalnız Həzrət Peyğəmbərin (s) qəbrinə toxunulmadı.[1]

Əksəri təəssübkeş, tündxasiyyət, inadkar olan vəhhabilər ağıl və məntiqə istinad etmək əvəzinə, bir neçə məsələni (ziyarət, şəfaət və s.) əsas götürərək, müsəlmanları bid'ət və şirkdə ittiham edir, əllərinə fürsət düşəndə müsəlmanların qanını axıdırdılar.[2]

Onlar öz ardıcıllarını İslamın mühüm məsələlərindən, ictimai ədalət, iqtisadiyyat, siyasət və düşmənin tanınması kimi mövzulardan qəflətdə saxlayır, onları ümumi düşmənə qarşı mübarizədən yayındırırlar.

Həcc və ümrə mərasimlərində, adətən farsdilli vəhhabi əfqanları hazırlayaraq, onları şiələrin izdihamı içinə göndərir, şiəliyin ziddinə tünd və təhqiramiz təbliğatlar aparırlar. "Əl-ğədir", "Əl-müraciat", "Pişavər gecələri" kimi kitabların

---

[1] "Kəşful-irtiyab" Seyyid Möhsin Əmin.
[2] Həmin mənbə

yayılmasının qarşısı alınır. Vəhhabilər Nəcəf, Qum kimi dini mərkəzlərdən gəlmiş şiə alimləri ilə elmi mübahisələrdən qaçır, savadsız müsəlmanlarla mübahisəyə üstünlük verirlər.

Müsəlmanların daha çox ziyarət etdiyi qəbiristanlarda asılmış tablolarda küfr və şirkə aid ayə və rəvayətlər yazır, guya bu yolla, dindən çıxmış adamları İslama də'vət edirlər.

### *AYƏTULLAH XOYİNİN BİR HİCAZ ALİMİ İLƏ MÜBAHİSƏSİ*

Ayətullah Xoyi buyurur:

Hicri 1353-cü ildə həcdə idim. Şeyx Zeynəl-abidin adlı bir alim Məscidün-nəbidə möhürlə namaz qılanların möhürünü götürürdü. Ona dedim: "Məgər Rəsulullah (s) müsəlmanların malına icazəsiz toxunmağı haram etməmişdirmi? Təsdiq etdi: "Bəli, haram etmişdir." Dedim: "Bəs nə üçün onların malını zorla alırsan, axı bu adamlar "əşhədu əlla ilahə illəllah", əşhədu ənnə Muhəmmədər-rəsulullah deyənlərdir? Dedi: "Bu adamlar müşrikdirlər. Onlar möhürü büt qərar verib, Allaha yox, möhürə səcdə edirlər." "Bu məsələni müzakirə etməyə hazırsanmı?" –deyə soruşdum. Razılığını bildirdi. Söhbətə başladıq. Nəhayət, səhvini başa düşüb, üzr istədi və tövbə etdi. Xahiş etdi ki, Mədinədə olduğu günlər müxtəlif mövzularda söhbət edim. Belə də etdim. On gün ardıcıl məclis quruldu, müxtəlif məzhəblərdən olan insanlar bu məclislərdə iştirak etdilər. Həmin hicazlı alim bu məclislərdəki söhbətləri mətbuatda verəcəyini və'd etdi...

Çox güman ki, bu şəxs vəhhabi deyildi. Çünki vəhhabilər heç vaxt şiə alimləri ilə müzakirəyə razı olmurlar. Hətta şiə alimlərin kiminləsə söhbətinə şahid olduqda bu söhbətə mane olurlar.

Məscidün-nəbidə dəfələrlə şahid olmuşuq ki, vəhhabilər şiələrin ayağı altından onların səccadəsini çəkir. Bə'zən isə iş şiələri cəzalandırmaq həddinə çatır. Özlərini Peyğəmbər (s) sələfi hesab edən bu adamlar anlamırlar ki, müsəlmanlarla,

Peyğəmbərin (s) qonaqları ilə, üzünü qibləyə tutub namaz qılan insanlarla belə rəftar etmək olmaz. Məgər Peyğəmbər (s) belə buyurubmu?

### *BİR SÖHBƏT*

Şiələrlə qaba rəftarın şahidi olmuş bir vəhhabiyə dedim: "Məgər siz Peyğəmbər (s) sünnəsini qəbul etmirsiniz? Məgər "Səhih Buxari", "Səhih Müslüm"ü mö'təbər kitab saymırsınız? "Elədir ki var" –deyə müsahibim cavab verdi. Ona "Səhih Buxari"də Ömər ibn Xəttabdan nəql olunmuş bir hədisi xatırlatdım: Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Mənə əmr olunub ki, insanlar "la ilahə illəllah" deyənədək onlarla döyüşüm. Hər kəs "la ilahə illəllah" desə, malı və canı mənim tərəfimdən amandadır..."[1] Bu hədis "Səhih Müslim"də də nəql olunmuşdur.[2]

Sonra dedim: "Belə hədislər nəql olunduğu halda, Peyğəmbərin (s) hüzurunda "la ilahə illəllah, muhəmmədən rəsulullah" deyən namazqılana hansı əsasla əziyyət verir, onun malını əlindən alırsınız?" O, başını aşağı salıb susdu. Mən davam etdim: "Şiələr yalnız dava-dalaş düşməməsi üçün, Peyğəmbər (s) və əhli-beytin ziyarətinə nail olmaq xatirinə bu kobudluqlara, təhqirlərə dözürlər." Müsahibim dedi: "Haqlısınız, İslam icazə vermir ki, müsəlman kiminləsə belə rəftar edə." Sonra üzr istədi və sağollaşıb getdi.

Qeyd edim ki, belə qaba rəftarlar yalnız səccadə və ya möhürlə bağlı deyil. Vəhhabilər məktəbli gəncləri şiələrə qarşı düşmən ruhda tərbiyə edir, onları inandırırlar ki, şiələr müşrikdir. Məscidün-nəbidə dəfələrlə vəhhabi gənclərin təhqirləri ilə qarşılaşmışam.

Daha ağır hadisələr hicri 1349-cu ildə baş vermişdir. Məscidün-nəbidə bir vəhhabi bir şiənin həsir yelpincə səcdə etdiyini görür. Yaxınlaşıb ayağını onun boynuna qoyub sıxır.

---

[1] "Səhih Buxari", kitabuz-zəkat, səh. 225, hədis 1399.
[2] "Səhih Müslüm", babul-əmr, səh. 72, hədis 32.

Şiə müsəlman səcdə halında özündən gedir... O vaxtlar Səudiyyə Ərəbistanı dövlətinin şiələrə münasibəti pis olduğundan bu məsələyə görə e'tiraz etmək mümkün olmur. Hal-hazırda isə vəhhabilər dövlətləri ilə hesablaşaraq bir o qədər də tündlük etmirlər.

Yuxarıda qeyd etdiyimiz xoşagəlməz hadisə bizə ilkin İslam dövründən bir hadisəni xatırladır. Həzrət Peyğəmbər (s) Məscidül-Həramda namaz qıldığı vaxt səcdə edərkən müşriklərdən biri ayağını Həzrətin başına qoyub, yerə sıxır... Bəli, bu günkü zülmlərin kökü bir vaxt Peyğəmbərə (s) və Əhli-beytə (ə), eləcə də onların şiələrinə edilən zülmlərdir.

**Sual 36:** Nə üçün şiələr mübarək ramazan gecələrinin müstəhəb namazlarını cəm halda qılmırlar?

**Cavab:** Şiə fiqhində müstəhəb namazı cəm halda qılmaq bid'ət və haramdır. Ramazan gecələrinin müstəhəb namazları ilə digər müstəhəb namazlar arasında bu məsələdə fərq yoxdur. Sünnilər isə həmin namazları cəm halda qılır və "təravih" namazı adlandırırlar. [1] Onların iki mö'təbər kitabında bildirilir ki, Peyğəmbər (s) dövründə, Əbu-Bəkrin hakimiyyəti zamanında, Ömər hökuməti vaxtı təravih namazı cəm halda qılınmamışdır.[2]

Ömər bir dəfə məscidə daxil olarkən adamların pərakəndə halda namaz qıldığını, bir dəstə adamın isə cəm halda namaza durduğunu görür. Qərara gəlir ki, hamı cəm halda namaz qılsa, daha yaxşı olar və bu barədə göstəriş verir. Səhəri gün məscidə daxil olanda hamının cəm halda namaz qıldığını görüb deyir: "Bu yaxşı bir bid'ətdir."[3]

Onlara məxsus bə'zi rəvayətlərdə isə nəql olunur ki, həzrət Peyğəmbər (s) iki-üç gecə nafilə namazını məsciddə qıldı və bir dəstə müsəlman ona iqtida etdi. Növbəti gecələrdə adamlar artsa da, həzrət nafilə namazı üçün məscidə gəlmədi

---

[1] "Səlatul-mumin", əl-Qəhtani, səh. 346
[2] "Səhih Buxari", səlatut-təravih, səh. 322, hədis 2013
[3] Həmin mənbə, səh. 322, hədis 2009, 2012.

və sübh namazında belə buyurdu: "Mən cəmiyyətin artdığını gördüyüm üçün gəlmədim. Qorxdum ki, gecə nafiləsini cəm halda qılmaq sizə vacib olar." Nə qədər ki, Peyğəmbər (s) sağ idi, nafilələr cəm halda qılınmadı.[1]

Başqa bir mənbədə həmin rəvayət başqa bir məzmunda nəql olunur: "Cəm halda qılınması müstəhəbdir. Lakin səhabələr dövründə artırılıb, iyirmi rəkət qılınmışdır. Ömər ibn Əbdül-əziz dövründə bir daha artırılaraq, otuz altı rəkətə çatdırılmışdır. Amma şər'ən iyirmi rəkətdir. Müstəhəbdir ki, ramazan ayının sonunadək təravih namazında bütün Qur'an oxunsun.[2]

Xatırlatmalıyıq ki, Peyğəmbərin (s) üç gecə qıldığı nafilələr ramazan ayına təsadüf etmir. Bu nafilələr on bir rəkətdən çox olmamışdır. Eləcə də Ömər bu işin (bid'ətin) onun tərəfindən həyata keçirildiyini bildirir. Onun sözlərindən mə'lum olur ki, bu hökmü verərkən həzrət Peyğəmbərə (s) istinadən etməmişdir. Bundan əlavə, Ömər deməmişdi ki, nafilə iyirmi rəkət qılınmalıdır və bir Qur'an xətm olunmalıdır.

Bəli, vəhhabilər bir şəxsin istəyi əsasında bid'ət edir, amma təbərrük qəsdi ilə deyilən "əliyyən vəliyyullah" sözlərinə görə şiələri müşrik sayırlar. "Həqiqətən, bu təəccüblü bir şeydir."[3]

**Sual 37:** Nə üçün şiələr sünnilərdən fərqli olaraq, Peyğəmbər (s) əhli-beytini mə'sum sayırlar?

**Cavab:** Şiələr bir çox əqli və nəqli dəlillərə əsasən, Peyğəmbər (s) Əhli-beytini (ə), imamları mə'sum hesab edirlər. Sünnə əhlinin inkar edə bilməyəcəyi bir dəlil isə budur: "Ey əhli-beyt, Allah fəqət sizdən çirkinliyi yox etmək, sizi pak etmək istəyir."[4] "Səhih Müslim"də nəql olunur ki, Ayişə dedi: "Bir gün Peyğəmbər (s) əynində qara yun əba hücrədən çıxdı. Əli oğlu Həsən Həzrətə yaxınlaşdı və həzrət

---

[1] Həmin mənbə, səh. 322, hədis 2010.
[2] "Əl-fiqh ələl-məzahibil-ərbəə", c. 1, səh. 303
[3] "Sad", 5
[4] "Əhzab", 33

onu əbasının altında aldı. Sonra Hüseyn (ə), daha sonra isə Fatimə və Əli əbanın altına daxil oldular. Həzrət (ə) buyurdu: "Ey əhli-beyt, Allah fəqət sizdən çirkinliyi yox etmək, sizi pak etmək istəyir."[1]

Əhməd ibn Hənbəlin "Müsnəd"ində nəql olunur: "Peyğəmbər (s) altı ay müddətində sübh namazı üçün Fatimənin qapısından keçər və deyərdi: "Namaz! Ey əhli-beyt, Allah fəqət sizdən çirkinliyi yox etmək, sizi pak etmək istəyir."[2]

"Səhih Müslim"də nəql olunur:

"Zeyd ibn Ərqəm dedi: "Bir gün Peyğəmbər (s) Məkkə və Mədinə arasındakı "Xumm" adlanan su kənarında xütbə oxudu və Allaha həmd-sənadan sonra buyurdu: " Ey camaat, mən bir bəşərəm, tezliklə Allahın mə'muru gələr və mən onun də'vətini qəbul edərəm. Mən sizin üçün iki qiymətli əmanət qoyub gedirəm: biri hidayət və nur olan Allah kitabı, digəri isə mənin əhli-beytim..." Həzrət bu cümləni üç dəfə təkrar etdi. Əhli-beyt (ə), and olsun Allaha ki, həzrətin arvadları deyil. Qadın bir vaxt ərdə olub, boşanaraq atasının yanına qayıda da bilər. Əsil kişinin əhli-beyti onun kökü, ardıdır. Əhli-beyt o kəslərdir ki, Peyğəmbərdən (s) sonra sədəqə onlara haramdır."

"Zeyd ibn Ərqəmdən soruşdular ki, Peyğəmbərin (s) sifariş etdiyi əhli-beyt kimdir? Dedi: Əhli-beyt (ə) sədəqənin haram edildiyi Əli (ə) ailəsidir."[3]

Şərif ayədən və mö'təbər sünni kitablarında nəql olunmuş rəvayətlərdən mə'lum olur ki, Allah-taala Peyğəmbər (s) əhli-beytini paka çıxarmaq istəmişdir. "Səqəleyn" hədisində həzrət Peyğəmbər (s) əhli-beytin adını Qur'ani-kərimlə yanaşı çəkir, hər ikisini xalqa Allahın dəlili kimi tanıtdırır.

---

[1] "Səhih Müslüm", fəzailu-əhli-beyt, səh. 1049, hədis 2424.
[2] "Müsnəd", c. 4, səh. 568, hədis 1442.
[3] "Səhih Müslüm", fəzailu-Əliyyibni Əbi Talib, səh. 1043, hədis 2408.

Qur'an xətadan uzaq olduğu kimi, Əhli-beyt də xətadan uzaqdır. Bütün deyilənləri əsas götürərək, şiələr Əhli-beyti mə'sum, günahsız sayırlar.

Amma sünnə əhlinin qəbul edib, könül verdiyi adamların hər biri açıq-aşkar nöqsanlıdır, bə'ziləri isə hətta şirk və küfrə yol vermişdir. Əbu Bəkr və Ömərin bir vaxt bütpərəst olduğu kimsədə şübhə doğurmur. Ayişə kimi bir qrup müsəlmanlar isə Allahın göstərişlərinə zidd hərəkətlər etmişlər. Ayişə Allahın əmrinə itaət edib, evdə oturmaq əvəzinə Peyğəmbərin (s) xəlifəsi, dövrün imamı Həzrət Əliyə (ə) qarşı çıxmış, Cəməl döyüşünə rəhbərlik etmişdir. Cəməl döyüşü müsəlmanlar arasında baş vermiş ilk döyüşdür və bu döyüşdə minlərlə müsəlman qətlə yetirilmişdir. Təlhə də Zübeyr də, Müaviyə də eyni cür hərəkət etmiş, böyük günahlara batmışlar. Sünnə əhli nə bu adamların günahını, nə də Əhli-beytin paklığını inkar edə bilər.

## *QISA BİR MÜBAHİSƏ*

Onlardan biri Məscidün-nəbidə mübahisə əsnasında dedi: "Siz hansı əsasla Əhli-beyti mə'sum hesab edirsiniz?" Dedim: "Sən həzrət Zəhranın (Fatimənin) bir günahını, Həzrət Əlinin (ə) bir xilaf işini deyə bilərsənmi? Bəlkə imam Hüseynin bir xətasının adını çəkəsən? Amma Əbu-Bəkrin və Ömərin bir ömür bütpərəst olduğunu, Aişənin və Müaviyənin böyük günahlarını inkar edə bilməzsən." "Təthir" ayəsində və "Səqəleyn" hədisini oxuyub, "bunlardan böyük dəlilmi istəyirsən" soruşdum. Bir kəlmə də danışmayıb, uzaqlaşdı.

**Sual 38:** Nə üçün şiələr "Məfatihul-cinan" və sair dua kitablarını qəbul edib oxuyur, sünnilər isə günah imiş kimi bu işə e'tiraz edirlər?

**Cavab:** Sünnə əhli, xüsusi ilə də vəhhabilər dua və ziyarətə bir o qədər də əhəmiyyət vermirlər. Mə'sumlardan nəql olunmuş dualardan uzaq gəzən bu adamlar dua və minacatın, ziyarətin ləzzətindən məhrumdurlar. Əgər onlar tövhid və

günahların tövbəsindən danışan "Kumeyl", "Xəms əşərə", "Əbu-həmzə" kimi duaları oxusaydılar, sözsüz ki, münasibətləri dəyişərdi. Amma onlar bu işdə ilahi yardımdan məhrumdurlar. "Allah onların qəlblərini, qulaqlarını və gözlərini möhürləmişdir."[1] Vəhhabilər daha çox "Məfatihul-cinandakı, "Aşura ziyarəti"ndən narahat olurlar. Bu narahatlıq birinci, ikinci və üçüncü lə'nətlərdən, eləcə də Əbu-Sufyan və Müaviyənin lə'nətlənməsindən yaranır.

### *MÜBAHİSƏ*

Məscidün-nəbidə olarkən əlimdə "Məfateh" vardı. Bu kitabı tanıyan vəhhabi mə'muru onu əlimdən alıb, "Aşura ziyarətini" açdı və dedi: "Birinci, ikinci və üçüncü" deyə lə'nətlədiyiniz şəxslər kimdir?" Dedim: "Onları tanımağımız zəruridirmi?" Dedi: "İnsan tanımadığı adamları necə lə'nətləyə bilər?" Dedim: "Müsəlmanlar beş vaxt namazda "qəzəbə düçar olmuşlar, yolunu azmışlar" ifadələrini işlədirlər. Məgər biz həmin adamları tanıyırıq?" Dedi: "Xeyr, onların əksərini tanımırıq. Amma namazda bu sözləri demək əmr olunub." Dedim: "Bu da əmr olunmuş bir ziyarətdir və mə'nasını bilməsək də oxumalıyıq." Dedi: "Bu ziyarətdə Müaviyəni lə'nətləyirsiniz. Bilmirsinizmi, Peyğəmbər (s) səhabələrini lə'nətləmək günah və haramdır?" Dedim: "Əvvəla, Peyğəmbərin (s) səhabələri və xəlifəsi ilə vuruşmaq lə'nətdən də böyük günahdır. Hamı bilir ki, Müaviyə Peyğəmbərin (s) xəlifəsi Həzrət Əli (ə) ilə vuruşmuşdur. Oğlu Yezid Hüseyni (ə) şəhid etdiyi tək, Müaviyə də bacarsaydı Həzrət Əli (ə) qətlə yetirərdi. Şiələr lə'nət oxumağı Müaviyədən öyrənməyiblərmi? Mö'təbər saydığınız "Səhih Müslim"də nəql olunur ki, Müaviyə Sə'y adlı bir nəfərdən Həzrət Əliyə (ə) lə'nət oxumasını istədi. Sə'y dedi ki, mən heç vaxt Əliyə lə'nət deməərəm, çünki Peyğəmbər (s) Əli

---

[1] "Bəqərə", 7

haqqında dediyi üç sözü mənim haqqımda desəydi, bu qırmızı dəvədən də üstün olardı:

1.Həzrət Peyğəmbər (s) müharibəyə gedərkən Əlini öz yerində canişin qoydu. "Məni qadın və uşaqlarlamı qoyursan?"–deyə Əli (ə) soruşdu. Peyğəmbər (s) buyurdu: "Harun Musaya necə idisə, mənim üçün elə olmaq istəmirsənmi?"

2.Həzrət Peyğəmbər (s) Xeybər döyüşündə buyurdu: "Sabah cihad bayrağını bir şəxsə verəcəyəm ki, Allah və rəsulunu sevir, Allah və rəsulu da onu sevir." Səhəri gün həzrət Peyğəmbər (s) Əlini yanına çağırdı. Əlinin gözləri ağrıyırdı. Peyğəmbər (s) mübarək ağzının suyundan Əlinin gözlərinə çəkdi və bayrağı ona verdi. Allah-taala Əliyə qələbə nəsib etdi.

3.Mübahilə ("De ki, biz də övladlarımızı, siz də övladlarınızı çağıraq.")[1] ayəsi nazil olarkən Peyğəmbər (s) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb, "xudaya, bunlar mənim əhlimdir", buyurdu.[2]

Bu rəvayəti nəql etdikdən sonra vəhhabi mə'mura dedim: "Sizin kitablarda bu məzmunda rəvayətlər çoxdur. Həmin rəvayətlərdə Həzrət Əlinin (ə) məqamı və cihadı təsdiq olunur. Həmin rəvayətlərdə mə'lum olur ki, Müaviyə və Ali-Mərvan Peyğəmbərin (s) xəlifəsini və səhabələrini ardıcıl şəkildə lə'nətləmişlər. Əgər şiələr Müaviyə və Ali-Mərvanı lə'nətləyirsə, bunun kökünü onların özündə axtarmaq lazımdır." Söhbətin bu yerində müsahibim əlindəki "Məfateh"i bağlayıb, dedi: "Əbu-Bəkr fəzilətlidir, yoxsa Əli? Dedim: "Bu məsələni Allah-taala Qur'anda bəyan edib: Allah malları və canları ilə vuruşanları evlərində oturanlardan üstün tutmuşdur."[3] Başqa bir ayə: "Allah sizlərdən iman gətirənləri

---

[1] "Ali-İmran", 61
[2] "Səhih Müslüm", səh. 1041, hədis 2404.
[3] "Nisa", 95

və alimləri yüksək yüksək dərəcəli etmişdir."[1] Həzrət Əlinin (ə) mücahidliyi və elmi məqamı hamıya mə'lumdur. Həmin iki ayəyə əsasən Əlini (ə) başqalarından üstün tuta bilərik." Müsahibim Bilal və başqalarının adından nəsə demək istəyirdi ki, sözünü kəsdim və dedim: "Mən Allah və onun rəsulunun buyuruqlarını danışıram, sən isə Bilal və başqalarından. Zəruri dəlillər gətirildi, sənin üçün höccət tamam oldu. Allah qarşısında heç bir üzrün olmayacaq!"

**Sual 39:** Nə üçün Peyğəmbər (s) Əhli-beytini qəbul edənlər "şiə", başqaları isə "sünni" adlandırılır?

**Cavab:** "Şiə" sözü ərəbcədən tərcümədə "ardıcıl" deməkdir. Şiələr inanırlar ki, həzrət Peyğəmbər (s) öz imam və canişinini tə'yin etmişdir. Peyğəmbər (s) be'sətin, yə'ni peyğəmbərliyə çatmasının üçüncü ilinədək insanları İslam dininə gizli şəkildə də'vət etmişdir. "Ən yaxın qohumlarını qorxut" [2] ayəsi nazil olduqdan sonra o Həzrət (s) qırx nəfərədək yaxın adamlarını də'vət edib buyurmuşdur: "Allah taala mənə əmr etmişdir ki, sizi İslama də'vət edim. Sizlərdən kim bu işdə mənə yardımçı olar ki, mənim qardaşım və canişinim olsun?" Oradakılar hamısı boyun qaçırdısa da, hamıdan kiçik olan Əli ayağa qalxıb ərz etdi ki, mən bu yolda sənə köməkçiyəm. Həzrət Peyğəmbər (s) əlini onun boynuna salıb buyurdu: "Bu, mənim qardaşım və sizin aranızda canişinimdir. Onun sözünü eşidin, əmrinə itaət edin." Bu hədisi əksər sünni alimləri, o cümlədən, İbn Cərir, İbn Əbuhatəm, İbn Mərdəveyh, Əbu-Nəim, Sə'ləbi nəql etmişlər. "Ən yaxın qohumlarını qorxut" ayəsinin təfsirində "Məcməül-bəyan", "Əl-mizan", "Burhan", "Nurus-səqəleyn" kitablarında eyni məzmunlu hədis nəql olunmuşdur. Həzrət Peyğəmbər (s) münasib fürsətlərdə müxtəlif bəyanlarla

---

[1] "Mücadilə", 11

[2] "Şuəra", 214

Həzrət Əli (ə) və onun on bir övladının imamlığını xəbər vermişdir.

Hicrətin onuncu ili həcc mərasiminin sonunda Qədir-Xum adlanan yerdə yüz iyirmi min nəfərin qarşısında həzrət Peyğəmbər (s) Allaha həmd-sənadan sonra buyurmuşdur: "Mən tezliklə sizi tərk edəcəyəm. Sizə iki əmanət qoyuram: Allahın kitabı və ailəm." Bu vaxt camaat gördü ki, Həzrət Peyğəmbər (s) Əlinin əlindən tutub qaldırdı və uca səslə buyurdu: "Müsəlmanlara münasibətdə onlardan daha layiqlisi kimdir?" Cavab verildi ki, Allah və Onun rəsulu. Həzrət (s) buyurdu: "Hər kəsin mövla və rəhbəri mənəmsə, Əli də onun mövlası və rəhbəridir. Pərvərdigara, onun dostlarını dost, düşmənlərini düşmən tut." Xütbə başa çatdıqdan sonra bu ayə nazil oldu:" Bu gün dininizi kamil etdim, sizə olan ne'mətimi tamamladım və sizin üçün İslamı din olaraq bəyəndim."[1] Bu hədis bir çox sünni alimləri tərəfindən nəql olunmuşdur. "Mənzilət" və sair hədislərdə də imamların (ə) xalqa rəhbərliyi bəyan olunur. «Səqəleyn» və başqa bu kimi hədislərdə xalqa Qur'an və Əhli-beytə (ə) üz tutmaq tapşırılır. Bütün deyilənləri əsas götürərək, şiələr Həzrət Əli (ə) və onun on bir övladının imamlığını və rəhbərliyini qəbul etmişlər. İmamlara "ardıcıl" olduqları üçün onlar "şiə" adlandırılmışlar.

Şiələr öz e'tiqad, əxlaq və əməl məsələlərini Qur'ani-kərim, Əhli-beyt yolu ilə nəql olunmuş Peyğəmbər (s) sünnəsindən götürmüşlər. Şiələr həmin böyük şəxsiyyətlərə müraciət edir, onlara tabe olurlar. "Səqəleyn" hədisinə əsasən, dini hökmləri yalnız Əhli-beyt (ə) yetərincə bilir. Şiələr Əli (ə) və onun on bir mə'sum övladının ardıcıllarıdırlar.

Həzrət Peyğəmbər (s) hələ öz sağlığında Əli (ə) ardıcıllarını "şiə" adlandırmışdır. O, Əliyə (ə) işarə ilə buyurur: "And

---

[1] "Maidə", 3

olsun canım əlində olana, həqiqətən, bu və bunun şiələri qiyamət günü feyzə çatanlardır."[1]

Amma sünnə əhli Peyğəmbər (s) Əhli-beytinə itaət etmir, düşünürlər ki, yalnız Peyğəmbər (s) sünnəsinə əməl etmək lazımdır. Ona görə də bu təbəqə "sünni" adlandırılmışdır.

Bəli, beləcə, sünnilər mö'təbər mənbələrindəki tapşırıqlara baxmayaraq, Peyğəmbərin (s) öz Əhli-beyti haqqındakı göstərişlərinə e'tinasızlıq göstərərək, yalnız sünnəni əsas götürürlər. Hansı ki, "Səqəleyn" hədisi kimi bir tapşırıq sünnənin əsas göstərişlərindəndir. Mərhum Ayətullah Üzma Bürucerdi buuyrmuşdur: "Səqəleyn" hədisini otuz dörd Peyğəmbər (s) səhabəsi nəql etmişdir. On iki imamçı şiə alim və mühəddislərindən savayı, yüz səksəndən çox sünni alimi və mühəddisi bu hədisi öz kitablarında qeyd etmişdir."[2]

Sünnə əhlinin özünün də mö'təbər hesab etmədiyi bə'zi kitablarda "Əhli-beyt" kəlməsi "sünnə" kəlməsi ilə əvəz olunmuşdur."[3] Bu dəyişikliklər əməvi hakimlərinin tə'siri altında baş vermişdir. Amma onlar da mübahisə zamanı heç cür inkar edə bilmirlər ki, mö'təbər mənbələrdə məhz "Əhli-beyt" kəlməsi işlədilmişdir.

### *BİR MÜBAHİSƏ*

Bir vəhhabi mənə e'tiraz edərək dedi: "Peyğəmbərin (s) vəfatından sonra müsəlmanlar toplaşıb, yekdil olaraq Əbu Bəkri xəlifə seçdilər. Siz şiələr isə müsəlmanlarla razılaşmır, Əbu-Bəkrin xəlifəliyini qəbul etmirsiniz." Dedim: "Öməri xəlifəliyə kim tə'yin etdi?" Dedi: "Öməri xəlifəliyə Əbu-Bəkr tə'yin etdi və ixtilafın qarşısını aldı." Dedim: "Maraqlıdır, demək, Əbu-Bəkr həzrət Peyğəmbərdən (s) daha düşüncəli imiş? Siz iddia edirsiniz ki, Peyğəmbər (s) özünə xəlifə tə'yin etmədi. Belə çıxır ki, Əbu-Bəkr daha ağıllı oldu və özünə

---

[1] "Əl-mizan", c. 20, səh. 341
[2] "Camiu-əhadisiş-şiə", c. 1 səh. 29
[3] "Müstədrəki-hakim Nişaburi", c. 1, səh. 93

canişin seçdi! "Tarixul-qəvim"də nəql olunur ki, Peyğəmbərin (s) cənazəsi üç gün yerdə qaldı və müsəlmanlar xəlifə tə'yinatı ilə məşğul oldular. Xəlifə tə'yin olunmasının çox mühüm bir iş olmasına e'tiraz etmirəm. Mən sizin məntiqinizə təəccüb edirəm. Necə olur ki, Əbu-Bəkr və Ömər kimi adamlar bu məsələni mühüm hesab edir, amma Allah və Onun Rəsulu (s) xalqı başlı-başına buraxıb, ixtilafa şərait yaradır?! Sizin bu iddianız Əbu Bəkri Peyğəmbərdən (s) ağıllı hesab etmək deyilmi?" Vəhhabi dedi: "Mən sizin dediklərinizdən xəbərsizəm. Amma onu bilirəm ki, şiələr Peyğəmbərin (s) xəlifəsini qəbul etmirlər." Dedim: "Peyğəmbərdən (s) sonra kimin hakim olması məsələni həll etmir. Birinci qəbir gecəsi müsəlmandan soruşdular ki, Peyğəmbərdən (s) sonra sənin hakimin kim oldu? Bəlkə bu barədə danışaq? Aydınlaşdıraq ki, həzrət Peyğəmbərdən (s) sonra müsəlmanlar kimə itaət etməli idilər? İnsanlar öz dini hökmlərini kimdən öyrənməli idilər? Bu gün dini vəzifəmizi kimdən öyrənməliyik? İnsanlar Peyğəmbərdən (s) sonra onun Əhli-beytinə, yoxsa biganələrə üz tutmalı idi? Dedi: "Peyğəmbərin (s) səhabələrindən seçilməli idi. Əbu-Bəkr və Ömər də əshabdan idi."

Dedim: "Axı sizin mö'təbər mənbələrdə bildirilir ki, Peyğəmbər (s) özündən sonra müsəlmanların Qur'an və Əhli-beytə üz tutmasını tapşırdı. Demədi ki, "Əli elmin qapısı" ola-ola Əbu-Bəkr və Ömərə müraciət edilsin. Əbu-Bəkr və Ömər çətin şər'i məsələlərlə qarşılaşdıqda Əlinin (ə) qapısını döymürdülərmi?"

Müsahibim dinləyicilərin artdığını görüb dedi: "Biz hamımız müsəlman qardaşlarıq, belə məsələlərə görə çəkişməməliyik." Beləcə, xudahafizləşib uzaqlaşdı.

**Sual 40:** Nə üçün şiələr Əhli-beytin düçar olduğu müsibətlərə, həzrət Zəhranın yaşantılarına ağladığı halda sünnə əhli bu hadisələrə biganə yanaşır?

**Cavab:** Əvvəlki söhbətlərimizdən mə'lum oldu ki, şiələr Əhli-beyt ardıcıllarıdır. Belə ki, onların Əhli-beyt ağrılarına şərik olub ağlamaları təbii sayılmalıdır.

Amma sünnə əhlinin biganəliyi, vəhhabilərin hətta öz yaxın adamlarına ağlamaqdan çəkinməsi onların əsas götürdüyü bə'zi rəvayətlərlə bağlıdır. "Səhih Buxari"də nəql olunur ki, Ömər ibn Xəttab əsa ilə vurmaqla, daşlamaqla ölüyə ağlayanlara mane olurmuş. [1] Başqa bir rəvayətdə deyilir: "Ömər meyitə ağlamağın qarşısını alaraq, Peyğəmbərdən (s) belə bir dəlil gətirdi: "Qəbirdəki meyit dirilərin növhəsi hesabına əzab çəkir."[2]

Vəhhabilər bu iki-üç rəvayəti əsas götürərək, ağlamağı haram hesab edir və ölənlərin arasında fərq qoymurlar. Fitri hisslərin bu şəkildə qarşısının alınması təəccüb doğurur. Bə'zən Bəqi qəbiristanlığında övladını itirmiş vəhhabinin göz yaşlarını necə əzabla saxlamasına şahid olmuşam. Amma belə bir inam bir neçə səbəbə görə məzəmmət olunmalıdır:

1.Göz yaşları mərhəmət, sevgi, mehribanlıq nişanəsidir. İnsanın ağlaya bilməməsi onun daşürəkliliyinə dəlalət edir. Həzrət Peyğəmbər (s) buyurur: "Dörd şey bədbəxtlik əlamətidir: gözün quruluğu, daşürəklilik, dünyaya hərislik, günahda israr."[3] Ey Əbuzər ağlaya bilən ağlamalı, ağlaya bilməyən qəmlənməlidir. Həqiqətən, daş qəlb Allahdan uzaqdır, amma siz anlamırsınız."[4]

Yaşlı gözü tə'rif, quru gözü məzəmmət edən rəvayətlər çoxdur. "Səfinətül-bihar" kitabına müraciət edə bilərsiniz.

2.Ağlamağın fəziləti haqqında, Əhli-beytin ağrılarına şərik olmağın savabı barədə rəvayətlər çoxdur. İmam Hüseynə (ə) ağlamaq isə ən fəzilətli hüznlərdəndir.

---

[1] "Səhih Buxari", kitabul-cənaiz, səh. 209, hədis 1304.
[2] "Səhih Müslüm", kitabul-cənaiz, səh. 359, hədis 927-928.
[3] "Səfinətül-bihar", maddə buka
[4] "Biharül-ənvar", c. 77, h, 79

3.Həzrət Yə'qubun oğlu Yusifdən ayrılığa görə kor olanadək ağlaması Qur'anda xəbər verilir.[1] Vəhhabilərin mö'təbər kitablarından olan ibn Kəsirin təfsirində Yə'qubun ağlamaqdan kor olduğu bildirilir.

4."Səhih Buxari" və "Səhih Müslim"də həzrət Peyğəmbərin (s) ağladığı vaxtlar sadalanır:

–Oğlu İbrahim vəfat edəndə;[2]

–Sə'd ibn Übadəni yoxlayan vaxt;[3]

–Anasının qəbrini ziyarət edərkən.[4]

5."Səhih Müslim"də nəql olunur: "Ömər öldükdən sonra Ayişə dedi: And olsun Allaha, Ömər səhv edib dedi ki, Peyğəmbər (s) "Allah ölüyə göz yaşına görə əzab verər" demişdir. Əslində Peyğəmbər (s) belə buyurmuşdur: "Allah ailəsinə göz yaşlarına görə kafirə əzab verər."[5]

Elə həmin mənbədə İbn Abbas Ömərin sözlərini rədd edir. Aişə və İbn Abbas tərəfindən bir çox rəvayətlərdə bildirilir ki, Ömər Peyğəmbərin (s) sözlərini anlamamışdır.[6]

6."Səhih Buxari"də nəql olunur: "Cə'fər Təyyar və Zeydin ölüm xəbəri çatmamış Peyğəmbər (s) bu işdən xəbərdar olub ağladı".; "Aişə deyir: "Rəsulullah (s) ölüm yatağında olarkən Fatiməni çağırdı, onunla astadan söhbət etdi. Fatimə ağladı. Sonra Fatiməyə nə dedisə, Fatimə gülümsündü."

"Həzrət Peyğəmbər (s) oğlu İbrahim vəfat edərkən ağladı. Ətrafdakıların təəccüb etdiyini görüb buyurdu: "Bu mərhəmət ağlayışıdır..."[7]

"Səhih Buxari"də nəql olunur: Həzrət Peyğəmbərin (s) ölüm xəbəri çatdıqda Əbu-Bəkr onun hücrəsinə daxil olub, özünü cənazənin üstünə atdı və həzrəti öpüb ağladı.[1]

---

[1] "Yusif", 74

[2] "Səhih Buxari", kitabul-cənaiz, səh. 208, hədis 1303.

[3] Həmin mənbə

[4] "Səhih Müslüm", kitabul-cənaiz, səh. 413, hədis 976.

[5] "Səhih Müslüm", kitabul-cənaiz, səh. 397, hədis 929.

[6] Həmin mənbə

[7] "Səhih Buxari", kitabul-cənaiz, səh. 208, hədis 1303

"İbn Abbas deyirdi: "O qədər ağladı ki, gözünün yaşından yer islandı."[2]

Digər bir sünni kitabında nəql olunur: "Ölüyə ağlamaq, qəmlənmək caizdir. Bir şərtlə ki, Allahın qəzəbinə səbəb olacaq sözlər danışılmasın, ölü haqqında yersiz və yalan tə'riflər deyilməsin."[3]

7.Onlara məxsus tarix kitablarında bildirilir ki, Mədinə əhli həzrət Peyğəmbərin (s) ölümünə şiddətlə ağladı: " Peyğəmbər (s) dünyasını dəyişəndə xalq heyrətə gəldi və çox ağladı. Fatimə (s) ağladı... Ömər ağladı... Aişə deyir: "Peyğəmbərin (s) ruhu çıxanda onun başı dizlərim üstəydi. Sonra onun başını yastığa qoydum. Qadınlarla birgə sinəmə və üzümə döydüm."[4] Elə həmin mənbədə Əbu Bəkr və Ömərin ağladığı bildirilir.

Rəvayətlərdən birində nəql olunur!

Həzrət Peyğəmbərin (s) azançısı Bilal Peyğəmbərin (s) vəfatından sonra azan vermədi. Əbu Bəkr nə qədər tə'kid etdisə də, Bilal qəbul etməyib, Şama yola düşdü. Bir gecə yuxuda həzrət Peyğəmbər (s) ona buyurdu: "Ey Bilal, bizə cəfa qıldın və bizim dairədən çıxdın. Bizim ziyarətimizə gəl." Bilal yuxudan oyanıb, Mədinəyə üz tutdu. Həmin vaxt həzrət Fatimə (s) dünyasını dəyişmişdi. Bu xəbəri eşidən Bilal nalə çəkib dedi: "Peyğəmbər (s) təninin parası nə tez ona qovuşdu." Sonra Bilaldan azan verməsini istədilər. Bilal e'tiraz etsə də, ondan əl çəkmədilər. Nəhayət, Bilal azan verdi. O, "əllahu əkbər" deyəndə bütün xalq fəryad çəkib ağladı. Bilalın "əşhədu əlla ilahə illəllah" səsi ucalanda xalq hönkürtü vurdu. Bilal "əşhədu ənnə muhəmmədən rəsulullah"deyəndə Mədinədə ağlamayan qalmamışdı... Bilal azanını qurtaranadək camaat Peyğəmbər (s) vəfat etdiyi gün

---

[1] Həmin mənbə, kitabul-məğazi, səh-757, hədis 4452.
[2] Həmin mənbə, kitabul-cuziyyə, səh-527
[3] "Səlatül-mumin", əl-Qəhtani, səh. 1307
[4] "Tarixül-qəvim", c. 1, səh. 168-203.

ağladığı kimi ağladı. Sonra Bilal dedi: " Sizə bir müydə verim: "Peyğəmbərə (s) ağlayan gözü atəş yandırmaz..." Bilal yenidən Şama getdi. İldə bir dəfə Mədinəyə gəlib azan verərdi.[1]

Qur'an ayələrində və sünnilərin öz mö'təbər kitablarından nəql edilən rəvayətlərdən mə'lum oldu ki, yaxın adamın itkisinə qəmlənib ağlamaq nəinki pis deyil, bə'zən Bilalın dediyi kimi müstəhəbdir. Aydın olur ki, Ömər və oğlu Abdullahın qadağalarının heç bir şər'i əsası olmayıb. Xüsusi ilə şiələrin Bəqidə ağlamasına qarşı vəhhabilərin e'tirazı Qur'an və Peyğəmbər (s) sünnəsindən xəbərsizlik əlamətidir.

### *MÜBAHİSƏ*

Bəqi qəbiristanlığında bir vəhhabinin ağlayan şiələrə məsxərə etdiyini gördüm. Məni görüb səsini bir az da qaldırdı. Yanında dayanıb bu ayəni oxudum: **"Ey iman gətirənlər! Bir qövm digərinə məsxərə etməməlidir. Olsun ki, məsxərə edilənlər məsxərə edənlərdən daha üstündür."**[2] Üzünü mənə tutub dedi: "Bu göz yaşları, ah-nalə İslamdan deyil. Əsil dini burada öyrənməlisiniz." Dedim: "Şiələr Qur'an, Peyğəmbər (s) və onun Əhli-beytindən öyrəndikləri dinə əməl edirlər. Əslində biz iranlılar həqiqi dini Mədinədən öyrənirik, siz vəhhabilər isə bütpərəstliyi İran atəşpərəstliyindən. Bilirsənmi ki, sizin ən mö'təbər iki kitabınızın müəllifləri əslən iranlıdır? Məhəmməd ibn İsmail Buxari Özbəkistanda, Müslüm ibn Həccac isə Nişapurda anadan olmuş farslardır. Bəli, siz əqidənizi iranlılardan, biz isə "Səqəleyn" hədisindən götürmüşük.

Dedi: "Buxari və Müslüm də Peyğəmbərin (s) sünnəsini yazmışlar. Biz Qur'an və sünnəyə əməl edirik." Dedim: "Sizin qəbul etdiyiniz bu kitablarda nəql olunur ki, Peyğəmbər (s) buyurmuşdur: "Allahın kitabı və Əhli-beyti

---

[1] "Tarixül-qəvim", səh. 202

[2] "Hucurat", 11

sizin üçün əmanət qoyuram." Həzrət (s) bir yerdə də olsun belə buyurmayıb ki, Qur'an və sünnəni əmanət qoyuram. Əgər şübhə edirsənsə, həmin mənbələri araşdıra bilərik. Elə həmin mənbələrdə bildirilir ki, Peyğəmbər (s) öz anasının qəbiri üstündə ağladı, Peyğəmbər (s) vəfat edəndə Mədinə əhli, hətta Əbu Bəkr və Ömər göz yaşı axıtdı. Əgər şiə rəvayətlərinə inanmırsınızsa, heç olmaya, öz mənbələrinizdəki rəvayətlərə inanın. Heç olmaya, Qur'ana tabe olub, məsxərə etməyin." Dedi: "Siz burada kimin üçün ağlayırsınız?" Dedim: "Peyğəmbərin (s) qızı Fatimənin, Bəqidə dəfn olunmuş dörd imamın və bu gün onların təhqirlərlə qarşılaşan ziyarətçilərinin məzlumiyyətinə ağlayırıq. "Səhih Buxari"də Ayişədən belə nəql olunur: Fatimə (s. ə.) atası Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkrdən (özünə düşən) irs istədi. Əbu Bəkr onun istəyini rədd etdi və Fatiməni qəzəbləndirdi; Fatimə (s) atasından sonra 6 ay yaşadı. Dünyadan köçdüyü günədək Əbu Bəkrlə danışmadı...

Məgər Fatimənin istəyini rədd etmək, onu qəzəbləndirmək, onu hər şeydən məhrum etmək zülm deyilmi?!"

Dedi: "Siz şiələr Əbu Bəkrə qarşı ədavət göstərir, onu Əlidən aşağı tutursunuz. Hansı ki, Əbu Bəkr və Ömər Əlidən daha fəzilətlidir." Dedim: Peyğəmbər (s) təninin parası olan Fatiməni incidənləri, Fatimənin küsdüyü şəxsi dostmu sayırsınız? Şiələr nəinki Əlini, bütün Peyğəmbər (s) ailəsini hamıdan fəzilətli sayırlar. Əslində siz də belə düşünürsünüz. Əgər belə olmasaydı, namazın təşəhhüdündə Peyğəmbər (s) ailəsinə yox, Əbu Bəkr və Ömərə salam göndərərdiniz. Məgər cümə namazlarında əvvəlcə Əhli-beytə, sonra isə səhabələrə salam göndərmirsinizmi? Əli (ə) Əhli-beytdən, Əbu Bəkr və Ömər isə səhabələrdəndir. Deməli, siz də Əlini (ə) onlardan fəzilətli bilirsiniz. Əslində Qur'anı qəbul edən hər bir şəxs Əlinin (ə) fəzilətini təsdiq etməlidir. Çünki mö'təbər kitabınız olan "Səhih Müslim"də belə bir rəvayət

var: **"De ki, biz də övladlarımızı, siz də övladlarınızı... çağıraq"**[1] ayəsi nazil olanda həzrət Peyğəmbər (s) Əlini, Fatiməni, Həsən və Hüseyni çağırıb dedi: "Pərvərdigara bunlar mənim Əhli-beytimdir."[2] Bu mübarək ayədə Allah-taala Əlini (ə) Peyğəmbərdən (s) sayır. Peyğəmbər (s) hamıdan fəzilətlidirsə, ondan olan da hamıdan fəzilətlidir. Qəbul etməlisiniz ki, Peyğəmbərdən (s) sonra Əli (ə) hamıdan üstün olmuşdur."

Söhbətin bu yerində iki mə'murun yaxınlaşdığını görən həm söhbətim vəziyyəti öz xeyrinə görüb, sərt şəkildə dedi: "Aşkar de görüm Əbu Bəkr fəzilətlidir yoxsa Əli?" Dedim: "İlk qəbir gecəsində bu barədə yox, tövhid barədə soruşulacaq." Mə'murlar mübahisəni davam etməyə qoymadılar.

**Sual 41:** Nə üçün sünnilər cümənin sübh namazında birinci rəkətin gedişində səcdəyə gedib qalxır və sonra surənin ardını oxuyurlar?

**Cavab:** Sünnə əhli "Səhih Buxari" və "Səhih Müslim"dəki bir rəvayətə əsasən, namazda vacib səcdəsi olan surənin oxunmasını caiz hesab edirlər.[3];[4]; Onlar adətən, cümənin sübh namazında səcdəli surə oxuyur, səcdə ayəsinə çatdıqda səcdəyə gedir, sonra qalxıb, namazı davam etdirirlər. Şiə fiqhinə görə isə vacib səcdəsi olan dörd surəni vacib namazlarda oxumaq olmaz. Əgər şiələr sünnilərlə birlikdə namaz qıldıqda onlar kimi səcdəyə gedərlərsə, vacib ehtiyata görə namazı təzələməlidirlər.

### *İKİ YADDAŞ*

1.Adətən, cümə günü sübh namazının birinci rəkətində sünnilər vacib səcdəsi olan surə oxuyurlar. Möhtərəm

---
[1] "Ali-İmran", 61
[2] "Səhih Müslüm", fəzailu-Əliyyibni Əbi Talib, səh. 1041, hədis 2404.
[3] Səhih Buxari, Kitabul əzan, hədis 766 və 768.
[4] "Səhih Müslim", Kitabul-məsacid, hədis 578

ruhanilər cümə axşamları ziyarətçilərə bu barədə mə'lumat versələr, yaxşı olar. Ziyarətçilər sünnə əhlinin bu namazına onlar səcdə edib qalxdıqdan sonra qoşula bilərlər. Belə olsa, namazı təzələməyə ehtiyac qalmaz.

2.Sünnilərin səcdəli ayəyə görə səcdəyə getməsindən xəbərsiz olan şiələr bə'zən qiraətdən sonra rükuya gedirlər. Əgər səhv etdiklərini anlayıb yenidən rükuya getmək üçün qalxsalar, namazın rüku artdığından namazları batil olar. Bu halda namazı məsələn qiblədən dönməklə pozub onlar ayə səcdəsindən qalxdıqdan sonra yenidən təkbirətül-ehram deyib, namaza qoşulmaq olar.

## *BİR SÖHBƏT*

Bir cümə günü sübh namaz qılanlardan birinin səcdə ayəsinə görə səcdəyə getmək əvəzinə rükuya getdiyini gördüm. Namazdan sonra mə'lum oldu ki, bu şəxs Misir sünnilərindəndir. Ondan soruşdum ki, nə üçün pişnamaza namazda çoxlu müsafirlərin olduğu və xəbərsizlikdən onların namazlarının batil olduğu xəbər verilmir? Dedim: "Bundan əlavə, uzun surələr oxumaqla camaat namazını uzatmaq İslama, Peyğəmbər (s) sünnəsinə ziddir? "Səhih Buxari"də deyilir:" Rəsulullah (ə) camaat namazını qısa və yüngül qılardı. Həzrət (s) buyurur: "Camaatın imamı (pişnamaz) iqtida edənlərin halını nəzərə almalıdır. Axı mö'minlər arasında qocalar, uşaqlar, xəstələr, zəiflər, işə tələsənlər var."[1] Həmin mənbədə nəql olunur: "Həzrət Peyğəmbərə (s) xəbər verildi ki, filan pişnamaz namazı uzadır. Həzrət (s) narahat olub, müsəlmanlara xitabən buyurur: "Sizin bə'ziləriniz camaatı cəm namazdan uzaqlaşdırırsınız, qaçırırsınız. Pişnamaz dayanan şəxs namazı qısa və yüngül qılmalıdır."

Digər bir rəvayətdə oxuyuruq: "Həzrət Peyğəmbər (s) buyurur: "Mən namazı uzun qılmaq istəyirəm. Amma uşaq

---

[1] "Səhih Buxari", kitabul- əzan, h. 702 və Səhih Müslim, Kitabus-səlat, hədis 466.

hıçqırtısı eşidib, namazı qısa qılıram. Çünki ananın əziyyət çəkməsi mənə pis gəlir."[1]

Bə'zən uşaqların ağlayış səsi məscidi bürüyür. Elə olur ki, uşaq çox ağladığından nəfəsi təngiyir. Amma pişnamaz bu səsləri eşitmirmiş kimi namazı uzadır. Belə münasibət mərhəmətsizlikdir. Bə'zi namaz qılanlar isə qocalıqdan və xəstəlikdən əziyyət çəkirlər."

Müsahibim dedi: "Dediklərиniz doğrudur. Mən üç gündür ki, ziyarətə gəlmişəm. Görürəm ki, bunlar bir yolu tutub gedirlər. Əgər söylədiyiniz rəvayət olmasaydı da, əxlaqa görə hamını nəzərə almaq lazım gələrdi. Biz yalnız Peyğəmbərin (s) ziyarəti və ümrə üçün gəlmişik. Yoxsa insan belə proqramlardan nə qədər uzaq olsa, bir o qədər yaxşıdır. Mənə sübut olub ki, onlar başqa məzhəblərə mənfi münasibətdədirlər və onların tabe olmasını istəyirlər. Onlar ziyarətçilərlə qaba davranır, Bəqi qəbiristanlığının qapılarını bağlayırlar. Qəbiristanlıqda hərbiçilər keşik çəkirlər. Sanki ziyarətçilər onlarla savaşa gəlib." Gördüyü səhnələr onu çox narahat edirdi. Dedim: "Gəl İrana, Qumda və Məşhəddə müqəddəs yerləri ziyarət et. Gör bu ziyarətgahdakı mə'murlar şiə ilə sünni arasında fərq qoyurlarmı?!" Bir az söhbətdən sonra soruşdu: "Siz nə məqsədlə əba və əmmamə geyirsiniz?" Dedim: "Bu libas bizim məs'uliyyətimizin nişanəsidir. Dinə aid sualı olanlar bizi bu libasla tanıyır və yaxınlaşıb şər'i məsələlərini soruşurlar. Əslində xüsusi libas təkcə ruhanilərə aid deyil. Hər bir sahədə çalışanların özünəməxsus libası olur. İnsanlar polisi polis, həkimi həkim libası ilə tanıyırlar." Müsahibim məndən təqiyyə haqqında soruşdu. Dedi ki, bizdə təqiyyə inamı şiələrin eyibi sayılır.

---

[1] "Səhih Buxari", kitabul-əzan, h. 707

## TƏQİYYƏ

Müsahibimin cavabında dedim:

Təqiyyə budur ki, insan canını və abrını düşməndən qorumaq üçün bir iş görsün. Təqiyyə düşməndən qorxunun sipəridir. Bu xüsusiyyəti təkcə şiələrə aid etmək düzgün olmazdı. Əslində bütün insanlarda belə bir xüsusiyyət vardır. Hətta heyvanlarda da belə xüsusiyyətlər müşahidə edilir. Düşmənin diqqətindən yayınmaq üçün hərəkətsiz dayanan canlılar çoxdur. İlkin İslamda müsəlmanlar müşriklərin və kafirlərin şərindən qorunmaq üçün təqiyyədən istifadə etmişdir. İbn Kəsir **"qəlbi imanla sabit olduğu halda məcbur edilən şəxs istisna olmaqla..."** [1] ayəsini təfsir edərkən deyir: "Bu ayə o şəxsin haqqındadır ki, qəlbən başqa fikirdə olduğu halda, məcburiyyət qarşısında qalıb müşriklərin fikrini təsdiq edir. Bu ayə Əmmar Yasir haqqında nazil olub. Düşmənin əzab-əziyyətinə dözməyən Əmmar dildə Peyğəmbəri (s) inkar etmək məcburiyyətində qalmışdır. Sonra həzrətin yanına gəlib, vəziyyəti danışmış və həmin ayə nazil olmuşdur."

Digər bir rəvayətdə belə nəql olunur: Həzrət Peyğəmbər (s) Əmmara buyurdu: "Əgər müşriklər sənə yenə əziyyət versələr, yenə də bizi inkar et, onları çaşdır. Qoy elə düşünsünlər ki, onlarla həmfikirsən. Bu yolla özünü qoru."[2] Deyilənlər sünnə əhlinin ən mö'təbər təfsirində nəql olunmuşdur. Pakistanda, Əfqanıstanda tarix boyu şiələr qətlə yetirilib. Əgər həmin yerlərdə şiələr Əmmar Yasir kimi təqiyyə etməsəydilər, onların aqibəti nə olardı? Məgər Amerikada baş vermiş çox şübhəli 11 Sentyabr hadisəsindən sonra sünnə əhli əqidəsini gizlətmirmi?! Amerikada və Avropada müsəlmanlara qarşı bu günkü aqressiv

---

[1] "Nəhl", 106

[2] Misbahul-munir, səh-746

münasibətdən təqiyyədən savayı hansı yolla qorunmaq olar. Bu gün həmin ölkələrdə yaşayan müsəlmanlar saqqalını qısaltmaq, adını dəyişməklə haqsız münasibətdən qorunmağa məcburdur. Hətta amerikayönümlü bə'zi müsəlman ölkələrində insanlar müsəlman qiyafəsində görünməməyə çalışırlar. Hansı ki, əksəriyyəti şiələrdən ibarət olan İranda istənilən məzhəblərə və dinlərə qarşı Amerika və Avropaya nümunə olası dözümlü münasibət mövcuddur. Hərə istədiyi şəkildə ibadət edir, kimsə kimsənin işinə qarışmır.

Mədinədə isə vəziyyət bam başqadır. Şiələr bu şəhərdə müşrik və kafir sayılır, addım başı təhqir olunurlar. Məsələn, şiə fiqhində xalçaya səcdə caiz deyil. Ona görə ki, şiələr daşa, torpağa, həsirə səcdə edirlər. Onların bu işinə olduqca qaba münasibət göstərildiyindən bə'zi şiələr öz fəqihlərinin icazəsi ilə vəhdəti qorumaq və təfriqədən uzaq olmaq üçün xalçaya səcdə edirlər. Hansı ki, bu iş yalnız təqiyyədir."

Misirli həmsöhbətim dedi: "Doğrudur, mən də onların rəftarına şahid olmuşam. Onlar başqa məzhəblərin fiqhini nəzərə almır, dözümsüzlük göstərirlər..."

**Sual 42:** Şiələr sünnə əhlinin namazını düzgün hesab etmədiyi halda, nə üçün onların camaat namazında iştirak edirlər? Bu işə görə bə'zi sünnilər elə hesab edirlər ki, şiələr onları haqlı sayır...

**Cavab:** Şiələr bu işdə mə'sum imamlardan nəql olunmuş bir rəvayəti əsas götürürlər: "Onların cəmində iştirak edin, onlarla namaza durun.." Belə namaz üçün böyük savab və'd edilir. Bu işdə məqsəd vəhdəti qorumaq, təfriqənin qarşısını almaqdır.

Bunu haqqın e'tirafı kimi yozanların nəzərində: Əvvəla, şiələrin bu namazlarda iştirakı İslam düşmənləri qarşısında birliyi qorumaq məqsədi daşıyır. İkincisi, həzrət Peyğəmbər (s) hicrətin ikinci ilinədək üzü Beytül-müqəddəsə namaz qıldı. Yəhudilər bunu yəhudiliyin haqq tanınması kimi yozduqda belə bir ayə nazil oldu: **"İndi üzünü Məscidül-**

**Harama tərəf çevir.”**[1] Beləcə, yəhudilərin iddiası puça çıxdı. Sünnə əhlinin yozumu da həmin bu yozumu xatırladır. Başqa bir ayəyə nəzər salaq: **“Söylə ki, ey kitab əhli, sizinlə bizim aramızda eyni olan kəlməyə tərəf gəlin, Allahdan başqasına ibadət etməyək, ona şərik qoşmayaq...”**[2]

### *NƏSİHƏT*

Məscidün-nəbidə arxamda ərəb libasında olan bir gənc farsca danışırdı. Soruşdum ki, haralıdır? Dedi ki, Özbəkistandandır. Gəlişinin məqsədini soruşdum. Bildirdi ki, Mədinədə təhsil almağa gəlib. Söhbət əsnasında mə'lum oldu ki, İranda olub və iranlılar şiə olduğu üçün orada təhsil almaq fikrindən çəkinib. Dedim: “Qumda sünnilərə məxsus mədrəsələr var. Orada sünnilər azad təhsil alır, öz fiqhlərinə uyğun ibadət edirlər. Gərək qalıb təhsil alaydın. Əsil həqiqətlə tanış olardın. Müsəlman yerində dövrə vurmamalı, daim həqiqət axtarışında olmalıdır.” Dedi: “"Səhih Müslim" və “Səhih Buxari” ən düzgün kitablardır.” Bu kitablara əməl edirik.

Dedim: “Əgər sünnə əhli həmin kitablara əməl etsəydi, bizim kimi, Əhli-beytə itaət edərdi. Gör, "Səhih Müslim"də nə nəql olunub:

Rəsulullah (s) buyurdu: “Aranızda iki əmanət qoyuram: Allahın kitabı və Əhli-beytim.”[3]

Müsahibim dedi: “Əbu-Bəkr və Ömər böyük şəxsiyyətlərdir, bir çox ölkələri fəth edən onlar olub.” Dedim: “Onların şəxsiyyəti öz yerində, amma İslam öz həqiqəti və Qur'anın bərəkəti hesabına aləmə nüfuz edib. Fatehliklə dinin nüfuzu ayrı-ayrı məsələlərdir. Sizin həmin iki mö'təbər kitabda Peyğəmbər (s) Əbu-Bəkr və Öməri yox, öz Əhli-beytini əmanət tapşırıb.”

---

[1] “Bəqərə”, 144
[2] “Ali-İmran”, 62
[3] "Səhih Müslüm", h. 2408

Dedi: "Mən dəqiq bilmirəm, amma ustadlarımız bildirirlər ki, şiələr şirkə yol verir, Peyğəmbərin (s) qəbri kənarında əllərini dua üçün qaldırır, Peyğəmbərdən (s) nə isə istəyirlər, imamlara nəzir edir, "ya Əli", "ya Hüseyn" çağırırlar. Bütün bunlar şirk sayılır. Axı onlar sizin zahiri əməllərinizə görə hökm verirlər."

Dedim: "Bütün müsəlmanlar qəbul edirlər ki, Peyğəmbər (s) belə buyurub: "Əməllər niyyətə görədir."[1] Məgər sizin ustadlar şiələrin niyyətindən xəbərdardırlarmı?! Bilirlərmi ki, şiələr qəbir kənarında dua üçün əl açarkən kimi çağırırlar?! Xəbərləri varmı ki, şiələr hansı niyyətlə nəzir edir?!

Dedi:" Şübhəsiz ki, onlar şiələrin niyyətindən xəbərsizdir."

Dedim: "Yəqin ki, sizin ustadlar mələklərin Adəmə səcdəsini görsəydilər, onları müşrik, şeytanı isə haqlı sayardılar. Mələklərə "Adəmə səcdə edin", deyə əmr əmr etdikdə boyun qaçıran İblisdən savayı hamısı səcdə etdi."[2]

Yəqin ki, onlar Yə'qub və yoldaşlarının həzrət Yusifə səcdə etdiyini görsəydilər, onları şirkdə ittiham edərdilər.[3]

Axı bu səcdələr zahirən insan qarşısında idi. Peyğəmbərin (s) qəbri kənarında dua üçün əl açmağı şirk sayanlar, insan qarşısında səcdəni, şübhəsiz ki, daha böyük şirk hesab etməlidirlər."

Müsahibim məni mədrəsələrinə də'vət edib, orada çıxış etməyimi məsləhət gördü. Dedim: "Onlar bizim sözləri dinləməyə, bizimlə söhbət etməyə razı olmurlar. Əgər siz icazə ala bilsəniz, mən orada həvəslə danışaram."

Dedi: "Mən belə bir təklifə cür'ət edə bilmərəm. Əgər sizinlə söhbət etdiyimi də bilsələr, məni dərsdən ixrac edərlər. Amma mələklərin Adəmə, Yə'qubun Yusifə səcdəsi haqqında daha ətraflı bilmək istərdim. Əgər mümkünsə, bu məsələni bir az geniş açıqlayın."

---

[1] "Səhih Müslüm", kitabul-cihad, h. 1907
[2] "Bəqərə", 34
[3] "Yusif", 100

Dedim: “Bəli, Mədinə mədrəsələri ilə Qum mədrəsələri arasındakı fərq odur ki, burada elmi mübahisələrin keçirilməsini təklif etmək belə qorxuludur. Amma Qum mədrəsələrində istənilən bir mövzuda azad söhbət edə bilərsiniz.

O ki qaldı səcdə mövzusuna, səcdə tə’zim məqsədi ilə insanın alnını yerə qoymasıdır. Səcdədə məqsəd tə’zim olduğundan yalnız Allaha səcdə etmək olar və Ondan qeyrisinə səcdə etmək haramdır.

Şiə fiqhinə görə mələklər Adəmə yox, Allaha səcdə etmişlər. Adəm isə, sadəcə, qiblə olmuşdur. Həzrət Yə’qubun da səcdəsi eyni mahiyyəti daşıyır. Yə’qub həzrət Yusifə (ə) əta olunmuş mülkə görə Allah-taalaya şükür üçün səcdə qılır. Bütün bunları nəzərə alaraq, bir səhnəni zahirən müşahidə etməklə kimsəni müşrik adlandırmaq olmaz. Şiələr yalnız Allaha ibadət edir, Onun üçün nəzir boyun alır, Ondan qeyrisindən bir şey istəmirlər.”

Müsahibim bir daha onların mədrəsəsində çıxış edib, bütün bu həqiqətləri açıqlamağımı arzuladı. Nə etməli ki, mədrəsə məs’ulları belə müzakirələrdən və söhbətlərdən qaçırlar. Təəssüf! Müsahibim ah çəkdi və dedi: “Dua edin ki, bir daha rastlaşaq.”

Qeyd: Mələklərin və Yə’qubun səcdəsi haqqında deyilənlər “Ürvətül-vüsqa”dan idi. Lakin bə’zi alimlər belə hesab edirlər ki, mələklərin səcdəsi Adəmə, Yə’qubun səcdəsi Yusifə ehtiram məqsədi ilə həyata keçmişdir.

Bu məsələni belə izah edirlər: səcdə iki qisimdir: bəndəlik səcdəsi və tə’zim səcdəsi. Tövhid əqidəsi ilə zidd olan bəndəlik səcdəsidir. Müşriklər bütlərə ibadət məqsədi ilə səcdə qılırdılar. Tə’zim səcdəsi isə tövhidə zidd sayılmır. Bu səcdədə məqsəd səcdə edilənə ehtiram göstərilməsidir.

İlahi əmr əsasında səcdə vacib və ya müstəhəb ola bilər. Allah-taalanın əmrinə əsasən, mələklərin Adəmə səcdəsi vacib olmuşdu. Yə’qub və yoldaşlarının həzrət Yusifə (ə)

səcdəsi isə caiz səcdə idi. Səcdə qadağan edildikdə onun icrası küfr və şirk yox, haram və günah sayılır. Necə ki, İslamda tə'zim səcdəsi qadağan edilmişdir.

Bəli, mələklərin Adəmə səcdəsi Allah əmri sayəsində mümkün olmuşdu. Mələklər bu səcdələri ilə Adəmə yox, Allah əmrinə itaət etmişdilər. İbn Kəsirin təfsirində də eyni mə'na açıqlanır.

**Sual 43:** Mədinədə Bəqi qəbiristanlığında tablolar asılıb. Bu tablolarda nə yazılıb və onları asmaqda məqsəd nədir?

**Cavab:** Bəqidəki tabloların mətni:

"Rəsulullahın (s) göstərişlərindən:

1.Qəbir ziyarətlərinin məqsədi ibrət götürülməsidir. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Qəbirləri ziyarət edin. Həqiqətən, onlar sizə ölümü xatırladır."

2.Rəsullullah (s) qəbirə tərəf namaz qılınmasını və qəbirlərin başında əyləşməyi qadağan etmişdir. O, buyurmuşdur: "Qəbirin başında oturmayın və qəbirlərə tərəf namaz qılmayın."

3.Rəsulullah (s) ölüləri çağırmağı, onlardan xeyir, eləcə də zərərin dəf'ini istəməyi qadağan etmişdir. Allah-taala buyurur ki, Onun əvəzinə çağırılanlar nə özlərinə, nə də sizə kömək edə bilməz. Həzrət Peyğəmbər (s) buyurur: "İstəyəndə Allahdan istə, kömək axtaranda Allahda axtar."

Əvvəla, qeyd etməliyik ki, bu tablolar sünnə əhlinin yox, vəhhabilərin bid'ətidir.

İkincisi, onların hədəfi təkcə şiələr yox, bütün qeyri-vəhhabi müsəlmanlardır.

Üçüncüsü, belə tablolar Ühüd və sair qəbiristanlarda da asılmışdı.

Dördüncüsü, onların məqsədi dünyanın müxtəlif ölkələrindən gəlmiş, Bəqidə imamlara, Ühüddə şəhidlərə və sair övliyalara məhəbbətli müsəlmanlara eyib tutmaqdır. Vəhhabilərin nəzərincə, ziyarət yalnız onların tabloya yazdığı bir neçə cümlədən ibarətdir. Onların fikrincə, ziyarətnamə

oxumaq, ağlamaq, qəbir kənarında əyləşmək Peyğəmbər (s) sünnəsinə ziddir və bid'ət sayılır. Onlar demək istəyirlər ki, Bəqi imamlarını, Ühüd şəhidlərini, ilahi övliyaları çağırmaq, "ya Əli", "ya Hüseyn" demək ölünü çağırmaqdır və həzrət Peyğəmbər (s) məhz bu çağırışları qadağan etmişdir. Onların nəzərincə, insanın Allahla öz arasında övliyaları vasitə seçməsi, onlara ağız açması şirkdir.

Vəhhabilərin rəhbəri İbn Baz deyir:

"Həzrət Peyğəmbərə (s), başqa peyğəmbərlərə, salehlərə təvəssül etmək, onları vasitə seçmək bid'ət və şirk səbəbidir. Çünki Peyğəmbər (s) səhabələri belə işlər görməmişlər."[1]

Ölüdən nəsə istəmək dindən çıxma səbəbidir. Peyğəmbəri (s) təvəssül etmək İslamdan çıxmağa səbəb olmasa da, bid'ətdir."[2]

Qəbir kənarında duanı müstəhəb saymaq, bu duanı məsciddəki duadan fəzilətli bilmək bid'ətdir."[3]

Əvvəlki söhbətlərimizdə bu iddiaların cavabı verildi. Kimsə meyitdən nəsə istəmir. Övliyalara təvəssül edib, onları vasitə seçmək isə bid'ət və haram deyil. Əksinə bu işin caizliyi barədə xeyli dəlil var. Şiə fiqhinə görə övliyaları vasitə seçmək caiz sayılır. Sünni mənbələrində də bu münasibəti təsdiq edən rəvayətlər kifayət qədərdir. Məsələn:

Quraqlıq illərində Ömər ibn Xəttab yağış istəyi ilə Peyğəmbərin (s) əmisi Abbasa təvəssül etdi və dedi: "Xudaya, biz sənə və Peyğəmbərimizə (s) təvəssül edirdik, bizə su göndərirdin. İndi sənə və Peyğəmbərin (s) əmisinə təvəssül edir və su istəyirik." Bu duadan sonra Abbasa təvəssül bəhrəsini verdi və Allah yağış nazil etdi. [4] Bu hədis "Səhih Buxari"də iki yerdə nəql olunmuşdur. İddia edən olsa ki, Ömər diriyə təvəssül etmişdir, şiələr isə ölüyə təvəssül

---

[1] "Töhfətul-ixvan", səh. 20
[2] "Məcmuətül-fətavi", Ben Baz, c. 13, səh.285
[3] Həmin mənbə
[4] "Səhih Buxari", fəzaile əshab, səh. 626, hədis 3710

edir, belə cavab verməli olarıq: Allahın övliyaları hər zaman diridirlər və eşidirlər. Hətta vəhhabilər də qəbul edirlər ki, qəbir əhli ziyarətçinin salamını eşidir və onun cavab verə bilməsi üçün Allah ona ruhunu qaytarır. "Ölülər ziyarətçinin salamını eşidir və Allah onların ruhunu qaytarır ki, salamın cavabını versinlər."[1]

Soruşmaq lazımdır ki, Ömər özü Allaha üz tuta biləcəyi halda, nə üçün Abbası vasitə seçdi? Məgər Ömərin bu hərəkəti vəhhabilərin tablodakı qeydlərinə zidd deyil?

Əlbəttə ki, vəhhabilərin iddiaları kökündən yanlışdır. İnsan ictimai varlıq olduğundan daim başqalarının köməyinə ehtiyac duyur. Çörəkçi dərziyə, dərzi həkimə, həkim tacirə ehtiyaclıdır. Əgər vəhhabilərin qeydlərini zahiri mə'nasına görə qəbul etməli olsaq nə həkimə, nə dərziyə, nə də çörəkçiyə müraciət etməməliyik. Hansı ki, insanlar bir-birlərinə kömək üçün ağız açırsa, onları müşrik hesab etmək axmaqlıq olar. Tabloda yazılanlar, şəksiz ki, bütə ibadət edən müşriklərə şamil olunmalıdır.

İbn Kəsir öz təfsirində deyir:

**"Sizin Allahdan başqa üz tutduqlarınız nə özlərinə, nə də sizə kömək edə bilərlər"**[2] ayəsi bütlərə ibadət edən müşriklərə aiddir. Müşriklər bütlərə ibadət edir və onlardan kömək istəyirdilər...

Sünnilər və vəhhabilər arasında mö'təbər sayılan bu təfsirdən aydın olur ki, ayədə "çağırmaq" yox, "ibadət etmək" nəzərdə tutulur. Aydın məsələdir ki, heç bir müsəlman ölülərə və Allahın övliyalarına ibadət etmir. Vəhhabilərin həmin ayəni müsəlmanlara aid etməsi və onları övliyalara ibadətdə suçlaması misilsiz bir bid'ətdir.

Şirk odur ki, insan Allaha yox, bir başqasına görə ibadət etsin, namaz qılsın, oruc tutsun, həccə getsin, nəzir boyun

---

[1] "Səlatul-mumin", əl-Qəhtani, səh. 1392
[2] "Ə'raf", 197

alsın. Dünyada vahid Allaha sitayişi ilə seçilən müsəlmanlara qarşı bu sayaq ittihamlar çirkin böhtandan savayı bir şey deyil.

Əgər bir müsəlman "ya peyğəmbər", "ya Əli", "ya Həsən", "ya Hüseyn" deyə çağırırsa, bu çağırış ibadət yox, təvəssüldür. Qur'an ayələrindən də mə'lum olur ki, belə bir iş caizdir: "Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər (s) də onlar üçün əfv istəsəydi, şübhəsiz ki, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər."[1]

## *ONLAR ZİYARƏT SƏFƏRİNİ BİD'ƏT SAYIRLAR*

Xatırlatmalıyıq ki, vəhhabilər müsəlmanların həzrət Peyğəmbər (s), Bəqi imamları (ə), Ühüd şəhidləri və sair övliyaları ziyarət məqsədi ilə səfərə çıxmasını caiz bilmir və Peyğəmbərdən (s) o belə bir rəvayət nəql edirlər: "Məscidül-Həram, Məscidün-nəbi və Məscidül-əqsadan savayı bir yerə səfərə çıxma."[2]

Bu hədisi doğru hesab etsək, deməliyik ki, ziyarət, səyahət, yaxınları yoxlamaq, elm öyrənmək, cihad məqsədi ilə səfərə çıxmaq olmaz. Hansı ki, müxtəlif ayə və rəvayətlərdə bu işlər caiz sayılır, bə'zən müstəhəb, bə'zən isə vacib hesab olunur. Demək, həmin rəvayət doğru deyil və həzrət Peyğəmbər (s) belə bir göstəriş verməmişdir.

Ya da uyğun göstərişi zahiri mə'nasına görə yox, xüsusi bir izahatla qəbul etməliyik. Rəvayətdə məqsəd bu ola bilər ki, həmin üç məscidə səfər başqalarından daha fəzilətlidir. Amma bu o demək deyil ki, başqa səfərlər caiz deyil. Əgər bu izahat qəbul edilməsə, həmin rəvayəti qəbul etməmək məcburiyyətində qalırıq. "Ey iman gətirənlər, Allaha, Peyğəmbərə (s) və özünüzdən olan ixtiyar sahiblərinə itaət

---

1 "Nisa", 64

2 "Səlatul-mumin", əl-Qəhtani, səh. 1392

edin. Əgər bir iş barədə mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə (s) həvalə edin. Bu daha xeyirli və daha yaxşı olar."[1]

Şiə mənbələrində həzrət Əlidən (ə) oxşar məzmunda bir hədis nəql olunmuşdur.[2] Amma həmin hədisdə "Məscidül-əqsa" əvəzinə "Məscidi-Kufə" ifadəsi işlədilmişdir. Həmin rəvayətdən belə bir nəticə əldə olunur ki, həmin üç məscidə səfər şər'ən fəzilətlidir. Amma bu rəvayət başqa səfərlərin caiz olması üçün dəlil ola bilməz!

**Sual 44:** Nə üçün biz "şiələr" həsir səccadə üzərində namaz qılırıq, onlar isə...?

**Cavab:** Məscidun-Nəbidə (Peyğəmbər məscidində) səcdəgahı həsir olan bir səccadə üzərində namaz qılırdım. Yanımda əyləşən bir gənc Qur'an oxuyur və gözaltı mənə baxırdı. Namazdan sonra həsiri göstərərək dedi: "Bu nədir? Nə üçün xalçaya səcdə etmirsən?" Mən: "Sualınıza cavab verirəm, amma mənim də iki sualım var. Cavab verməniz lazımdır". – dedim

Gənc:

– Sualınıza cavab verməyə hazıram.

– Sizin kitablarınızda – "Əhli-sünnə" qaynaqlarında – qeyd olunur ki, Allahın rəsulu (s) həsir səccadə salar və üstündə namaz qılardı[3]. Biz, Peyğəmbərin (s) bu növ xalçalar üzərində namaz qılmadığına, bunlara səcdə etmədiyinə əminik. Ən azı ona görə ki, o zaman, bu xalçalar olmayıb. Bu xalçalar, təqribən, əlli il bundan qabaq, neftdən hazırlanmışdır. Bütün bunları nəzərə alaraq, tam əminliklə demək olar ki, həsirə səcdə etmək tamamilə düzgün, xalçaya səcdə etmək isə, nəinki şübhəli, əksinə bid'ətdir. Təbii ki, hər bir bid'ət azğınlığa və cəhənnəmə açılan bir qapıdır.

---

[1] "Nisa", 59

[2] "Vəsailüş-şiə", kitabus-səlat, b, 44 h. 16; b. 46, h. 1

[3] Tarixut-təqvim liməkkəti və beytullahil-kerim, Məhəmməd Tahir Kürdi əl-Məkki, c. 3, 6-cı hissə, səh. 348.

Sözlərim onun üçün gözlənilməz olan gənc, əlini xalçanın üstünə qoyub, əsəbi görkəm alaraq dedi:

– Xalça üstünə səcdə edin və doğru yolla gedin. Behiştin yolu həmin doğru yoldur.

– Həsirə səcdə etməyin nə eybi var? Bunun harası doğru deyil? Həzrət Peyğəmbərin (s) səcdə etdiyi həsirə səcdə etmək doğru deyilmi?

O, həsirə baxır və susurdu. Çünki həsirə səcdə etməyin doğru olmadığını deyə bilmirdi. Bu arada mən sözümə davam etdim.

– Həsirə səcdə etmək Peyğəmbərin (s) sünnəsi və onun getdiyi yoldur. Ona görə də bu əməlin düzgünlüyünə heç bir şübhə yoxdur. Xalçaya səcdə etmək isə, ən azı şübhəlidir. Biz heç bir şəkk-şübhəsi olmayan əməli həyata keçiririk. Biz Peyğəmbərin (s) gördüyü işi görürük. Biz şiələr, fiqhimizi, ibadətlərimizin keyfiyyətini Allah kitabından, Peyğəmbərin (s) və onun Əhli-beytinin (ə) kəlamlarından alır və onların buyruqlarına uyğun olaraq əməl edirik.

"Səqəleyn" hədisini (həzrət Peyğəmbərin (s) "iki mühüm əmanət" – Qur'an və Əhli-beytlə bağlı vəsiyyətini) oxuyub dedim:

– Biz şiələrin hədis kitablarında belə bir rəvayət qeyd olunmuşdur:

Hişam ibn əl-Həkəm adlı bir şəxs, (Əhli-beytdən olan) İmam Sadiqə (ə) dedi: "Mənə nəyə səcdə etməyin düzgün olub, nəyə düzgün olmadığını de". Həzrət: "Səcdə yalnız torpağa və torpaqdan cücərən, lakin yeməli, geyinməli olmayan şeylərə olmalıdır". – deyə buyurdu. Hişam ibn əl-Həkəm o həzrətə dedi: "Sənə fəda olum, bunun səbəbi nədir?" Həzrət cavabını açıqlayaraq buyurdu: "Səcdə, Tanrı qarşısında acizlik, təvazökarlıqdır. Yeməli, geyinməli əşyalara səcdə etmək düzgün deyil. Çünki dünyaya bağlı kimsələr – dünyapərəstlər – yedikləri, geyindikləri əşyalara bəndəlik edirlər. Allah bəndəsi isə səcdə edərkən Allaha

ibadət edir. Buna görə də alını məğrur dünyapərəstlərin məhəbbət bəslədiyi əşyaların üzərinə qoymayı düzgün deyil".

Bu rəvayəti dedikdən sonra gənc, başını aşağı salıb fikrə daldı. Ona dedim:

– İndi iki sualım var. Birincisi budur ki, nə üçün bu xalçalara səcdə edirsiniz? Bir halda ki, "Səhih-Buxari"də [1] yazılır: Həzrət Peyğəmbər (s) buyurdu:

"Yer mənim üçün səcdəgah və pak olaraq yaradıldı".

Bundan başqa, "Səhih-Müslim"də [2] yazılır: Həzrət Peyğəmbər (s) səcdə edərkən alnını torpağa qoyardı".

İkinci sualım budur ki, nə üçün namazın "salam"larını dedikdə üzünüzü qiblədən çevirirsiniz? Halbuki, Allah-taala Qur'anda Peyğəmbərə (s) buyurur:

**"Üzünü Məscidül-hərama tərəf çevir! (Ey müsəlmanlar!) Harada olsanız (namaz vaxtı) üzünüzü oraya döndərin!"**[3]

O, ilk sualıma cavab olaraq dedi:

– Xalça yerdəndir. Onlara səcdə etmək yerə səcdə etmək sayılır. Bunun (yerə səcdə etməklə) heç bir fərqi yoxdur.

İkinci sualıma isə belə cavab verdi:

– Bizim – əhli-sünnə – fiqhində sübuta yetirilmişdir ki, namazın sonunda salam verərkən üzü sağ və sol tərəfə çevirmək lazımdır. Səbəbini isə bilmirəm.

– Birincisi, xalça yer deyil. Bu xalçalar neftdən düzəldilib. Əgər biz şiələr kimi həsirə və yaxud məscidin döşəməsinə səcdə etsəydiniz mütləq düzgün olardı. İkincisi, Qur'an, üzünüzü "Məscidül-həram"a – Kə'bəyə doğru tutmağı tapşırmışdır. Siz isə Quranın buyruğunun əksinə əməl edir və üzünüzü "Məscidül-həram"a deyil, "Məscidül-həram"dan döndərirsiniz. Təbii ki, bu, namazın batil olmasına gətirib çıxarır.

---

[1] Təyəmmüm kitabı, bab 1, hədis 355.
[2] Səlat kitabı, "Mütabəətül-imami vəl-əməlü bə'dəh" babı, hədis 474.
[3] Bəqərə surəsi, ayə 144.

– Biz öz fiqhimizə uyğun şəkildə əməl edirik. Mən (bütün bunların dəlillərini) bilmirəm.

– Sizin fiqhiniz olduğu kimi bizim də fiqhimiz var. Bu fiqh sizin fiqhinizdən fərqli olaraq, Əhli-beytə (ə) əsaslanır. Hansı ki, Peyğəmbər (s) onları dinin qaynaqları kimi təqdim etmiş və müsəlmanlara onlara müraciət etməyi tapşırmışdır. Amma sizin fiqhiniz yadlara əsaslanır. Hansı ki, Peyğəmbər (s) onları dinin qaynaqları kimi təqdim etməmiş və müsəlmanlara onlara müraciət etməyi tapşırmamışdır.

Bu söhbətdən sonra məlum gənc fikrə daldı və bir kəlmə də danışmadı. Buna görə də onun üçün dua edərək: "Allah hamını doğru yola hidayət etsin!" – dedim və beləcə onun əlini sıxıb sağollaşdım.

Salam olsun hidayət əhlinə!

**45-ci sual və cavab:** (Xüms haqqında.) Mədinə şəhərində bə'ziləri e'tiraz və irad olaraq deyirdilər: "Siz "ruhanilər" camaatın malına və gəlirinə xüms düşdüyünü deyir və onlardan xüms alırsınız." Onlar bu məsələni bir eyb kimi, bizim zəif cəhətlərimizi göstərmək məqsədi ilə üzə vururdular. Mən aşağıdakı şəkildə, hər bir fərdin özünə uyğun olaraq cavab verirdim:

"Camaata xüms verməlarini biz yox, Allah-taala, Qur'anda bütün mö'minlərə müraciət edərək, tə'kidlə buyurur:

**"Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir (pulu qurtarıb yolda qalan yolçularındır). Allah hər şeyə qadirdir!"**[1]

Əgər siz – "əhli-sünnə" – camaatın xüms verməsini istəmirsinizsə bu ayəni Qur'andan götürün.

Xüms, sizin – "əhli-sünnənin" – ən mö'təbər kitablarında vaciblər sırasında qeyd olunmuş, xüms vermək isə din və dindarlığın bir hissəsi kimi dəyərləndirilmişdir. Belə ki, Səhih-Buxaridə "Kitabu fərzil-xüms" (Xümsun vacib olması)

---

[1] Ənfal surəsi, ayə 41.

adlı bir fəsil mövcuddur. Bu fəsildə iyirmi hissədən ibarət xüms, xüms verməyin vacibliyi, xümsün xərclənilməsi və s. mövzularda çox sayda rəvayətlər qeyd olunmuşdur. Bu fəslin ikinci hissəsi belə başlanır:

2-ci hissə. Xüms vermək dinin bir hissəsidir.

Bu hissənin başlanğıcında İbn Abbasdan belə bir rəvayət nəql edilir:

Əbdül-Qeys qəbiləsi tərəfindən gələn nümayəndə hey'əti Peyğəmbərin (s) huzuruna gəlib dedi: Ey Allahın rəsulu! Bizimlə sənin aranda "Muzərə" kafirləri var. Biz sizin yanınıza, yalnız (hamının təhlükəsizliyi tə'min olunduğu) haram aylarda gəlirik. Bizə tə'limat ver. Həm özümüz əməl edək, həm də bizimlə gəlməyən, (amma bizdən söz eşidən ) tərəfdarlarımıza öyrədək.

Həzrət Peyğəmbər (s) buyurdu: "Sizə dörd şeyi həyata keçirmənizi, dörd şeydən isə uzaq durmanızı əmr edirəm. İlk öncə, "Allahdan başqa Tanrı yoxdur!" deyərək Allaha iman gətirmənizi, namaz qılmağınızı, zəkat vermənizi, oruc tutmanızı və əldə etdiyiniz hər bir gəlirin xümsünü vermənizi əmr edirəm"[1]

Sanki, xüms alıb onu lazımı (şəriətdə müəyyən olunmuş çərçivədə) yerə xərcləmək dinə zidmiş kimi, "nə üçün xüms alırsınız?" deməyinizə gəlincə, bilməlisiniz ki, şəriət tə'limləri sizin dediklərinizin tam əksidir. Xüms, dinimizdə olduqca faydalı və təqdirəlayiq əməllərdəndir. Belə ki, Allah-taala şəxsən Peyğəmbərin (s) özünə əmr edərək buyurur:

**"(Ya Peyğəmbər!) Onların mallarından sədəqə al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan. Onlar üçün dua et, çünki sənin duan**

---

[1] Səhih-Buxari, "Kitabu fərzil-xüms" (Xümsun vacib olması kitabı) bab. 2, səh.513.

**onlar üçün bir aramlıqdır (rahatlıqdır). Allah (hər şeyi) eşidəndir, biləndir".**[1]

Bütün bunlar belə deməyə əsas verir ki, camaatdan xüms (vergi) alaraq, ondan şəriətdə tə'yin olunmuş şəkildə istifadə etmək heç də eyb deyil.

Beləcə onlara başa saldım ki, xümsün vacib olması İslamın sübuta yetirilmiş (öz həllini tapmış) zəruri məsələlərindəndir. Belə ki, onu inkar etmək Qur'anı, Peyğəmbərin (s) hamı tərəfindən qəbul olunaraq təsdiqlənən sünnəsini inkar etmək, küfrə doğru yönəlmək deməkdir. Heç bir kimsə cüz'i məsələlərində fikir ayrılığı olmasına baxmayaraq, xümsün vacibliyinə şübhə ilə yanaşa bilməz.

Onların bə'ziləri deyirdilər: "Sözügedən ayə hər bir qənimət və gəlirə aid edilə bilməz. Burada, məqsəd yalnız müharibədə əldə olunan qənimətlərdir".

Mən isə belə cavab verirdim: "Bu sözü hansı dəlilə əsaslanıb deyirsiniz? Fərz edək ki, mə'lum ayənin nəyə aid olduğuna şübhə ilə yanaşırsınız. Amma Səhih-Buxaridə qeyd olunan rəvayətə şübhə ilə yanaşa bilməzsiniz. Çünki, bu rəvayətin müharibə ilə və mühaibədə əldə olunan qənimətlərlə heç bir əlaqəsi yoxdur və Peyğəmbər (s) heç bir müqəddimə olmadan hər bir gəlirin, qazancın xümsünü ödəməyi tapşırır və bunu Allaha iman, namaz, oruc və zəkat cərgəsinə daxil edir".

Bə'zilərinə isə dedim: "Mə'lum ayədən başqa, bizim kitablarımızda Peyğəmbər (s) Əhli-beytinin çox sayda rəvayətləri qeyd olunaraq xümsün ödənilməsinin vacibliyi, onun müsbət tə'sir və faydaları haqqında ətraflı mə'lumat verilmişdir. Belə ki, rəvayətlərin bə'zisində deyilir: "Bir dirhəm, yaxud ondan az miqdarda xümsün ödənilməsindən

---

[1] Tövbə surəsi, ayə 103.

boyun qaçıran kimsə, Peyğəmbərə (s) və onun övladlarına zülm edənlər sırasındadır"[1].

Digər rəvayətdə isə deyilir: İmam Riza (ə) fars tacirlərindən birinin məktubuna cavab olaraq buyurur: "Həqiqətən, biz xüms vasitəsi ilə dinimizi möhkəmlətmək, himayəmizdə olanların və şiələrimizin ehtiyaclarını tə'min etmək, öz abrımızı düşmənlər qarşısında qorumaq imkanına malikik. Xümsü bizdən əsirgəyib özünüzü bizim duamızdan məhrum etməyin. Mə'lumatınız olsun ki, xümsünüzü ödəmək ruzinizi çoxaldar, günahlarınızın bağışlanmasına səbəb olar və axirətdə dadınıza çatar. Müsəlman, dildə deyərək ürəkdə inanmayan yox, Allahla bağladığı əhdə-peymana vəfa qılan kimsədir".[2]

Bəli, hər bir müsəlman bilməlidir ki, qazandığına aid olan xüms onun malikiyyətindən çıxmışdır. Gəlirinin bu hissəsi, artıq onun ixtiyarı xaricindədir.

Xümsünü ödəmədən öncə, bu maldan hər növ istifadə haramdır. Əgər həmin maldan istifadə edərək namaz qılınarsa, namaz batildir. Bu kimi mallar qəsb olunmuş mallar sırasındadır.

**46-cı sual və cavab:** Onların bə'ziləri soruşurdular: "Nə üçün bə'zi şiələr ya iqtida etmirlər, yaxud (iqtida edir,) sonra namazlarını təzələyirlər ?"

Mən sual verənlərin hər birinin özünə uyğun şəkildə, müxtəlif cavablar verirdim. Nəhayət, bir nəfərə belə cavab verdim :

– Mən digər ölkələrdən ziyarətə gələn, bir çox qeyri-şiələrin – "əhli-sünnənin" Peyğəmbər (s) məscidində sizə iqtida etmədiklərinin, yaxud iqtida edib sonra namazlarını təzələmələrinin şahidi olmuşam. Bunun səbəbi nədir?

---

[1] Vəsailüş-şiə, Ənfal babları, bab 3.

[2] Vəsailüş-şiə, Xüms kitabı, bab 1, Nəyin xümsü vacibdir babı, 5-ci hədis.

– Əhli-sünnənin fiqhində camaat namazının və iqtida etməyin bir sıra şərtləri var. Bu şərtlərdən biri odur ki camaat namazını qılan imamın namazı mə'mumun (iqtida edənin) məzhəbində batil hesab olunmasın. Məsələn, Hənəfi məzhəbində burundan gələn qan dəstəmazı batil etməsi, Şafe'i məzhəbində isə batil etməməsi və s. kimi ixtilaflar. Bu növ ixtilaflı məsələlərdə, öz məzhəblərinin tə'limlərinə uyğun olaraq, camaat namazı qılan imamın namazını düzgün hesab etmir və buna görə də iqtida etmirlər.

(Əl-Fiqhü ələl-məzahibil ərbəə' kitabının 1-ci cildində, "fərqli məzhəbə mənsub olanların arxasında namaz qılmaq" bölməsində bu haqda ətraflı mə'lumat verilmişdir.) Çox güman ki, sizin şahidi olduğunuz məqam bu qəbildənmiş.

– Şiə fiqhində də camaat namazı və camaat namazını qılan imamla bağlı bir sıra şərtlər tələb olunur. Şiə məzhəbinə görə sizin namazınız bir çox səbəblərə görə batildir. Misal üçün, sizin "Əhli-beyt"in haqqında imamət və vilayət prinsipini qəbul etməməniz, dəstəmaz alarkən ayaqlara məsh çəkmək əvəzinə onu yumanız, cərgələr arasındakı hədsiz fasilə qoymanız, "Bismillah" deməməniz, namazı əli bağlı qılmanız, xalçaya səcdə etməniz, namazın salamında üzünüzü qiblədən döndərməniz və s. kimi səbəblər. Bax, sizin namazlarınız şiə məzhəbi və fiqhinə görə bu və ya digər səbəblər üzündən batil hesab olunur. Ona görə də şiələr ya iqtida etmirlər, yaxud da (İslam ümmətinin vəhdəti xatirinə) iqtida edir, sonra yenidən qılırlar. Əgər iqtida edib, sonra yenidən qılmırlarsa, deməli təqiyyə edirlər".

Söhbətin bu yerində həmsöhbətim fikrə dalaraq məndən ayrıldı.

**Sual 47:** Nə üçün biz şiələr təvaf edərkən ehram libasını çiyinlərimizə atırıq. Belə ki, iki çiynimiz və qollarımız örtülür? Halbuki, əhli-sünnə kişilərinin bir çoxu təvaf zamanı ehram libasını sağ qollarının altından sol çiyinlərinə atırlar. Belə ki, sol çiyinləri örtülür, sağ çiyinləri isə açıq qalır.

Bundan başqa onlar təvaf zamanı "hərvələ" (tez-tez hərəkət) edirlər.

**Cavab:** "Mənasiki-mühəşşa" kitabında yazıldığına görə ehtiyat (müstəhəb, yaxud vacib) odur ki, ehram libasını libas deyiləcəyi şəkildə, çiyinləri və qolları örtərək çiyinə atmaq lazımdır. – Əlbəttə, qeyd etmək lazımdır ki, əks-təqdirdə təvaf batil olmur. – Bundan başqa təvaf edərkən vüqarla, aram-aram addımlamaq müstəhəbdir.[1]

Lakin əhli-sünnənin bə'ziləri kişilərin ehram libasını yuxarıda qeyd olunduğu şəkildə geyinmələrini və təvafın bir neçə dövrəsini "hərvələ" etməyi müstəhəb hesab edirlər.[2]

Çox güman ki, bu növ təvaf Həzrət Peyğəmbərin (s), hicrətin 7-ci ilində "Ümrətül-qəza"da verdiyi göstərişə əsasən edilir. Həzrət Peyğəmbər (s) "Məscidül-həram"a daxil olduğu an müşriklər məscidin ətrafından onlara baxırdılar. Peyğəmbər (s) müşriklərin müsəlmanları zəif və süst sanmamaları üçün ehram libasını sağ qolun altından çıxarıb sol çiyinə atmaqları və "hərvələ" etmələri (təvaf edərkən tez-tez addımlama) fərmanını verdi. Qeyd etmək lazımdır ki, bu növ təvaf yalnız "Ümrətül-qəza"da, düşmənlərin müsəlmanları zəif və süst sanmamaları üçün icra edilmişdir. Həzrət Peyğəmbər (s) "Vida həcci" zamanı nə belə təvaf etdi, nə də kimsəyə belə təvaf etməyi tapşırdı. İmamlar da bu şəkildə təvaf etməmiş və ümumiyyətlə bu şəkildə təvaf olunmasını məqbul hesab etməmişlər. Yalnız əhli-sünnənin bə'ziləri "Ümrətül-qəza"da icra olunan təvafı olduğu kimi qoruyub saxlamış və bu gün də həmin keyfiyyəti davam etdirirlər.[3]

---

[1] Adab və əhkame-həcc, Mərhum Gülpayqani, səh. 424.
[2] Əl-Fiqhu ələl-məzahibil-ərbəə', c. 1, həcc kitabı, təvafın vacib və müstəhəb məsələləri, səh. 655.
[3] Vəsailuş-şiə', c. 9, s. 428, həcc kitabı, təvaf babları, 29-cu bab.

**Sual 48:** Nə üçün biz şiələr miqatlarda, xüsusilə də Şəcərə məscidində ehram bağladıqdan sonra "təlbiyəni" uca səslə, bə'zən də kollektiv şəkildə oxuyuruq?

Təvaf zamanı duaları ucadan, bə'zən də qadın və kişi birgə oxuyuruq. Bə'ziləri "sə'y" zamanı da bu işi görürlər. Belə ki, bu əməlləri ilə digərlərini narahat edir və hüquqlarını tapdayırlar. Halbuki, əhli-sünnənin əksəriyyəti ehramı sakit və olduqca aram şəkildə bağlayır, təvaf və "sə'y" edirlər. Bizim bu əməlimizə görə narahat olur və öz e'tirazlarını bildirirlər. Bizim bu əməlimizin (hər hansısa bir) şər'i əsası varmı? Dua və təlbiyələri miqatda, yaxud digər məqamlarda ucadan oxumaq müstəhəbdirmi? Qadınların ehram bağlayarkən təlbiyəni naməhrəm kişilərin eşidəcəyi şəkildə ucadan deməyi düzgündürmü?

**Cavab:** Mən dəfələrlə bu məsələyə toxunmuş və demişəm ki, miqatlarda təvaf və sə'y zamanı təlbiyə və duaları səssiz deyin. Amma təəssüflər olsun ki, bə'zən diqqətsizlik, bə'zən də bu şəkildə ehram bağlamağın, duaları miqat və digər məqamlarda ucadan oxumağın bir çoxlarının işinin bir hissəsi kimi qiymətləndirildiyindən dua və təlbiyə oxumağın qayda-qanunlarına lazımınca riayət olunmur. Hər-halda bu suala, xüsusilə də qadınların təlbiyə deməsi məsələsinə diqqət yetirməli və haqqında tədqiqatlar aparılmalıdır.

Burada sözügedən sualın müxtəlif cəhətlərini araşdırır və əziz oxucuların diqqətini aşağıdakı məqamlara cəlb edirəm;

**a) Əfzəl və yaxud əhvət, miqatda təlbiyənin yavaş deyilməsidir.**

Mərhum Seyyid "Ürvətül-vüsqa" kitabında[1] təlbiyə demək haqqında müxtəlif fikirləri qeyd etdikdən sonra təlbiyənin miqatdan sonra deyilməsi ilə bağlı rəvayətlər arasındakı ortaq nöqtəyə toxunaraq yazır: "Əfzəl odur ki, Mədinə miqatında təlbiyə niyyət və iki ehram libası geyildikdə astadan deyilsin.

---

[1] Həcc kitabı, ehramın keyfiyyəti, məsələ 20.

Təlbiyəni ucadan demək isə "Beyda"ya çatana qədər tə'xirə salınsın. Beydaya (hansı ki, Hüleyfədən Məkkəyə tərəf bir mil – təqribən 2 km-lik fasilədə yerləşir) çatdıqda təlbiyə deyərək səslər ucalsın".

Mərhum İmam Xomeyni (r) "Ürvətül-vüsqa" kitabının çıxarışında "əfzəl" sözünün yerinə "bəl əhvət" – yə'ni əksinə, çox ehtiyat – sözündən istifadə edir. Mərhum Gülpayqani (r) yazır: "Onun daha fəzilətli olması aydın deyil, amma əhvət ola bilər. Tə'xirə salmağın daha fəzilətli olması isə ehtimal olunandır". (Əlbəttə, burada sözügedən ehtiyat, ehtiyat müstəhəbdir.) O, fars dilində qələmə aldığı "Mənasik" əsərinin 185-ci məsələsində yazır: "Mədinə yolu ilə həccə getmək istəyən zəvvarların təlbiyəni Beydaya – hansı ki, Zül-Hüleyfədən bir millik fasilədə yerləşir – çatana qədər tə'xirə salması daha yaxşıdır. Digər yollarla gedənlər isə təlbiyəni bir az yol getdikdən sonra deməlidirlər.

Məkkədən həccə gedənlər isə "Rəqta"ya – hansı ki, adı "Məda'" və "Rədm"dən qabaqdır – çatana qədər tə'xirə salsınlar. Lakin ehtiyat odur ki, ehram bağladığı yerdən başlayaraq təlbiyə yavaş deyilsin və yuxarıda qeyd olunduğu yerlərə çatdıqdan sonra ucadan deyilsin[1]".

Bir çox "Mənasiklər" (həcc əməlləri haqqında qələmə alınan əsərlər) ehramın keyfiyyətini və təlbiyə ilə bağlı məsələləri qeyd etməklə yanaşı İmam Xomeyninin (r) "Mənasik" əsərinə oxşar ibarələrlə yazılmışdır.

**b) Qadın təlbiyəni naməhrəm eşitdiyi halda ucadan deyə bilərmi?**

Qadınların təlbiyə deməsi və naməhrəmlərin eşitməsi ilə bağlı Ayətullah Gülpayqaniyə (r): "Qadının ehram bağladığı zaman yad bir kişinin (naməhrəmin) eşitdiyi halda ucadan deməsi icazəlidirmi? – deyə sual verilir. Ayətullah Gülpayqani (r) suala cavab verərək buyurur: "Əgər qadın, yad

---
[1] Təfsiluş-şəriət, c. 3, səh. 200.

(kişinin) eşitdiyi halda ucadan təlbiyə desə, əhvət budur ki, əməlini təzələsin".[1]

Bə'zi mərcəi-təqlidlər deyirlər: "Heç bir yerdə və heç bir şəraitdə qadının təlbiyə deyərkən səsini ucaltması istənilməmişdir".

Bə'ziləri isə deyirlər: Əgər səsləri təhrikedicidirsə ehtiyat budur ki, yavaş desinlər".

**v) Ən yaxşı dua "xuşu" ilə və gizlində olunan duadır.**

Allah-taala Qur'anda uca səslə dua oxumaq haqqında buyurur:

**"Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz!"[2]**

Həmçinin həzrət Peyğəmbərə (s) xitabən buyurur:

**"Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et!"[3]**

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

"Ən yaxşı dua və zikr gizlində edilən dua, ən yaxşı ruzi isə ehtiyacları ödəyəcək miqdarda olan ruzidir[4]".

Həzrət imam Riza (ə) buyurmuşdur:

"Bəndənin bir gizli duası yetmiş aşkar duasına bərabərdir". Yaxud "bir gizli dua Allah yanında yetmiş aşkar duadan əfzəldir[5]".

Bir hədisdə deyilir: Camaat uca səslə dua edir və zikr deyirdilər. Bunu müşahidə edən Peyğəmbər (s) buyurdu: "Ey insanlar! Özünüzə gəlin. (Fikirləşin.) Siz, eşitməyən,

---

[1] Adab və əhkame-həcc, səh. 146, 342-ci sual-cavab.
[2] Ə'raf surəsi, ayə 55.
[3] Ə'raf surəsi, ayə 205.
[4] Nurus-səqəleyn, c. 3, səh. 321.
[5] Kafi, c. 2, İxfaud-dua babı, səh. 476.

qeybətdə olan birini çağırmırsınız. Çağırdığınız kimsə eşidən, yaxın və sizinlə birlikdədir[1]".

**q) İnsanların hüququnu qorumaq Allahın hüququndan öndə durur.**

Yuxarıda qeyd olunan rəvayətlərdən göründüyü kimi yavaş və astadan dua oxumaq, uca səslə dua oxumaqdan fəzilətlidir. Bundan başqa, insanların hüququnu qorumaq uca səslə dua oxumaqdan mühümdür. Rəvayətlərdən istifadə edilir ki, insanların hüququ Allahın hüququndan öndə durur. Allah-taala uca səslə dua oxuyaraq digərlərini narahat edib əsəblərini gərginləşdirməyə razı deyil. Allahın razılığı olmayan dua ilə onun rizayərtini necə cəlb edib dərgahına yol tapmaq olar.

## *NƏTİCƏ*

Yuxarıda qeyd olunanlardan mə'lum olur ki, ehtiyat, yaxud əfzəl, miqatlarda təlbiyəni astadan deməkdir. Qadınlar təlbiyəni naməhrəm kişinin eşitdiyi halda ucadan desələr, (bir çox mərcəi-təqlidlərin fikrincə) düzgün deyil. Unutmaq olmaz ki, heç bir yerdə qadınların uca səslə təlbiyə deməsi istənilməmişdir. Bundan başqa bilməlisiniz ki, Allahın razılığı olan dua aram və gizli şəkildə, "xüzu" və "xüşu" ilə hər növ riyadan uzaq olan, digərlərinin hüququnun tapdalanması bahasına başa gəlməyən duadır. Buna görə də möhtərəm zəvvarlar hər növ səs-küydən, xüsusilə də kollektiv şəkildə dua oxumaqdan çəkinmələri, mahiyyətcə bir növ ibadət olan duanı özünü göstərmək, gözə soxmaq üçün bir vasitəyə çevirməmələri, yersiz həyəcan və çılğınlıqdan uzaq durmaları, miqatda təvaf və "sə'y" zamanı öz əməlləri ilə məşğul olmaları, vüqarla, hüzuri-qəlblə hərəkət edib dua oxumaları lazımdır. Əziz zəvvarlar müsəlmanların, əhli-sünnənin e'tirazına səbəb olan hər növ davranışdan, kollektiv

---

[1] Səhih-Müslim, Zikr, dua və tövbə kitabı, 13-cü bab, Zikr zamanı səssizliyin müstəhəb olması, 3703- cü hədis. Misbahul-munir, səh. 481.

və şüar tipli, xüsusilə də qadınlarla birgə dua oxumaqdan qəti şəkildə çəkinməlidirlər. Mən dəfələrlə (bu kimi hərəkətlərin) "Şəcərə" məscidində və təvaf zamanı başqalarının e'tirazına səbəb olmasının şahidi olmuş və imkan qədərincə xəbərdarlıq etmişəm. İndi də xəbərdarlıq edir və sözümün yerə düşməyəcəyinə ümid bəsləyirəm.

**Sual 49:** Nə üçün əhli-sünnə imam camaatları namazın salamından sonra namaz qılanlara tərəf çevrilir və bir az arxası qibləyə, üzü camaata (namaz qılanlara) tərəf əyləşirlər.

**Cavab:** Əhli-sünnə rəvayətlərində deyilir: "Həzrət Peyğəmbər (s) namazdan sonra mübarək üzünü namaz qılanlara tərəf döndərərdi.[1] "Onlar bu rəvayətə əsaslanaraq həmin əməli müstəhəb hesab edir və namazlarında ona əməl edirlər.

Əhli-sünnənin bə'zisi isə deyir: "Bu əməlin səbəbi odur ki, imam camaat imamət hüququna görə arxasını namaz qılanlara çevirir. Camaat namazı qurtaranda onun bu hüququ da sona yetir. İmamın üstünlüyü, yaxud üstünlüyə can atması fikrinin qarşısını almaq üçün imam üzünü namaz qılanlara çevirir və bir az bu şəkildə əyləşir[2]".

Amma əhli-sünnənin digər iki rəvayətində deyilir: " Peyğəmbər (s) namaz qılanlara tərəf dönüb onlar üçün söhbət etdi[3]".

Bu hədislərdən görünür ki, sözügedən əməl əhli-sünnənin bə'zilərinin dediyi məqsəd üçün olmayıb. Çünki, imam camaat ədalətli olub bu qəbildən olan xüsusiyyətlərdən uzaqlaşmalıdır.

---

[1] Səhih-Buxari, Azan kitabı, İmam camaatın namazın salamından sonra üzünü çevirməsi babı, 845-ci hədis.

[2] Səlatul-mö'min, əl-Qəhtani, c. 1, səh. 626.

[3] Səhih-Buxari, Azan kitabı, İmam camaatın namazın salamından sonra üzünü çevirməsi babı, 846, 847-ci hədislər.

**Sual 50:** Nə üçün biz "şiələr" namaz qılarkən "Həmd" surəsindən sonra "Amin!" demirik, amma əhli-sünnə deyir. "Həmd" surəsi dua şəklində deyilmi?

**Cavab:** Bütün müsəlmanlar namazda (bütün namazlarda) "Həmd" surəsini, dua şəklində olmasına baxmayaraq, dua məqsədi ilə yox, Qur'an kimi, Qur'an məqsədi ilə oxumalıdırlar. (La salatə illa bifatihətil kitab) Əhli-sünnə də bu həqiqəti qəbul edərək: "Namazın hər bir rəkətində "Fatihə" surəsini oxumaq namazın rüknlərindəndir". – deyir və belə bir rəvayət nəql edirlər ki, Peyğəmbər (s) buyurmuşdur: "Namazda "Fatihə" surəsini oxumayanın namazı batildir[1]". Deməli, onlar da "Fatihə" surəsini (namazın bir hissəsi olaraq) Qur'an məqsədi ilə oxuyurlar.

Amma "Həmd" surəsindən sonra "Amin!" deməklərinə gəlincə isə, buna cübut olaraq yalnız Əbu Hüreyrədən nəql olunan bir hədisi əsas tuturlar. Hədisin məzmunu belədir: "Həmd" surəsini deyib qurtardıqda "Amin!" deyin.

Əlbəttə, onlar "Amin!" deməyi istər camaat namazında, istərsə də tək qıldıqda, istər yavaş qılınan namazlarda, istərsə də ucadan qılınan namazlarda müstəhəb hesab edirlər. Bu fərqlə ki, asta qılınan namazlarda yavaş, ucadan qılınan namazlarda isə ucadan demək lazımdır[2].

## *QEYD*

Yuxarıda qeyd olunduğu kimi namaz qılan kimsə "Həmd" surəsini Qur'an məqsədi ilə oxumalıdır[3]. Lakin Qur'an məqsədindən əlavə sözlərin mə'nasını düşünərək dua niyyəti edib Tanrıdan hidayət də diləyə bilər. Əgər Qur'an məqsədi ilə oxumaqla yanaşı dua etmək istəyi olsa belə "Həmd" surəsindən sonra "Amin!" demək düzgün deyil. "Amin!" deyildiyi surətdə namaz batildir.

---

[1] Səhih-Buxari, 756 -ci hədis. Səhih-Müslim, 3097-ci hədis.
[2] Səlatul-mö'min, əl-Qəhtani, c. 1, səh. 253.
[3] Ürvətül-vüsqa, Qiraətin müstəhəb əlavələri fəsli, 8-ci məsələ.

İmam Sadiq (ə) buyurmuşdur: "Namazı camaatla birgə qılarkən imam camaat "Həmd" surəsini qurtardıqda "Amin!" yox, "Əlhəmdu lillahi rəbbil aləmin" de![1]"

Elə buna görə də böyük fəqih və mərcəi-təqlidlər buyururlar: "Namazı batil edən amillərdən biri "Həmd" surəsini oxuduqdan sonra bilərəkdən "Amin!" deməkdir[2]".

Əlbəttə, əgər "Amin!" sözü səhvən, təqiyyə məqsədi ilə, dua məqsədi ilə, (belə olan halda "Amin!" sözü أللهم أستجب – İlahi, qəbul et! – mə'nasında işlənir) yaxud namazın digər hissəsində deyilsə, namaza xələl gətirmir. (Namazı batil etmir.)[3]

**Sual 51:** Nə üçün biz şiələr bə'zən şam və xiftən namazlarını fasiləsiz qıldığımız zaman əhli-sünnə xiftən namazı üçün azan verdikdə məscidi tərk edirik və onlar qəzəb dolu baxışlarını bizə zilləyərək e'tiraz edirlər?

**Cavab:** Onlar adətən azan verdikdən sonra məsciddən çıxmağı haram bilirlər. Bu məsələ ilə bağlı aşağıdakı məzmunda belə bir rəvayət nəql edirlər:

"Məsciddə olan şəxsin azan verildikdən sonra (hansı namazın azanı olursa olsun) namazını camaatla qılmadan məsciddən çıxması haramdır. Əlbəttə, məsciddən çıxmaq üçün dəstəmazı təzələmək, burundan qan gəlmək və s. kimi üzrlü səbəblər olarsa, təbii ki, icazəlidir[4]".

Buna görə də mö'minlərə namaz vaxtlarında, xüsusilə də azan deyildikdən sonra, üzürlü səbəb olmadan məsciddən çıxmaq qadağandır.

**Sual 52:** Nə üçün əhli-sünnə imam camaatı bə'zi namazlarda namazın təşəhhüdünü həddindən artıq uzadır?

---

[1] Vəsailuş-şiə`, Namazda qiraət babları, 17-ci bab, 1-ci hədis.

[2] Ürvətül-vüsqa, Namazı batil edən amillər fəsli, onuncu, bilərəkdən "Amin!" demək.

[3] Ürvətül-vüsqa, Namazı batil edən amillər fəsli, onuncu, bilərəkdən "Amin!" demək.

[4] Səlatul-mö`min, əl-Qəhtani, Camaat namazı, səh. 419.

(Halbuki, biz şiələrin imam camaatları belə etmirlər.) Onlar namazın salamından sonra nə isə oxuyurlar, yoxsa heç lüzumu olmadan camaatın vaxtını alırlar?

**Cavab:** Bəli, onlar sakit oturmur, təşəhhüdü uzadırlar. Bizim və onların rəvayətlərində təşəhhüdün müstəhəb olan əlavələrini qeyd edərkən deyilir ki, namaz qılanın, – istər imam camaat, istərsə də mə'mum (iqtida edən) – namazın təşəhhüdündə rəvayətlərdə qeyd olunan və çox uzun olan məxsus duaları oxuması müstəhəbdir [1]. "Peyğəmbər məscidinin" imamı adətən, öz rəvayətlərində qeyd olunan uzun duaları oxuyur və iqtida edənləri nəzərə almır. Amma bizim imam camaatlarımız adətən iqtida edənləri nəzərə alaraq namazın vacib miqdarı ilə kifayətlənirlər.

İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə buyurulur: "Namazın dördüncü rək'ətində (təşəhhüd demək üçün) oturduqda de:

بسم ألله و بالله وألحمد لله و خيرالأسماء لله، أشهد أنّ لا إله إلاّ الله وحده لا شريك له، و أشهد أنّ محمدًا عبده و رسوله، أرسله بالحق بشيرًا و نذيرًا بين يدى الساعة، أشهد أنّك نعم الربّ، و أنّ محمدًا نعم الرسول، التّحيات لله و الصلوات الطّاهرات الطّيّبات الزّاكيّات الغاديات الرائحات السابغات الناعمات ما طاب و زكى و طهر و خلص صفا فللّه، أشهد أنّ لا إله إلا الله وحده لا شريك له، و أشهد أنّ محمدًا عبده و رسوله أرسله بالحق بشيرًا و نذيرًا بين يدى الساعة، أشهد أنّ ربّى نعم الربّ، و أنّ محمدًا نعم الرّسول، و أشهد أنّ السّاعة آتية لا ريب فيها و أنّ الله يبعث من فى القبور، الحمد لله الذّى هدانا لهذا و ما كنّا لنهتدى لو لا أن هدانا الله، الحمد لله ربّ العالمين، اللهمّ صلّ على محمد و آل محمد، و بارك على محمد و آل محمد، وسلّم على محمد و آل محمد، و ترحّم على محمد و آل محمد، كما صلّيت و باركت و ترحّمت على إبراهيم و آل إبراهيم إنّك حميد مجيد، اللهمّ صلّ على محمد و آل محمد واغفر لنا و لإخواننا الذّين سبقونا بالإيمان، و لا تجعل فى قلوبنا غلاً للذّين آمنوا ربّنا إنّك رؤوف رحيم، اللهمّ صلّ على محمد و آل محمد و أمنن على بالجنّة، و عافني من النّار،

[1] Səlatul-mö`min, əl-Qəhtani, Sifətus-səlat babı, səh. 225.

اللهمّ صلّ على محمد و آل محمد واغفر للمؤمنين و المؤمنات و لا تزد
الظالمين إلا تبارًا، (Sonra de) السّلام عليك أيّها النبيّ و رحمة الله و بركاته،
السلام على أنبياء الله و رسوله، السّلام على جبريل و ميكائيل و ملائكة
المقرّبين، السّلام على محمد بن عبدالله خاتم النبيّين لا نبيّ بعده و السّلام علينا
و على عبادالله الصالحين

Sonra salamı deyərək namazı tamamla[1]".

Buna görə biz də yuxarıda qeyd olunan "təşəhhüdü" oxuya bilərik və bu, heç də onların təşəhhüdündən qısa deyil.

ٱلَّذِينَ يَسْتَمِعُونَ ٱلْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُۥٓ ۚ أُو۟لَـٰٓئِكَ ٱلَّذِينَ فَبَشِّرْ عِبَادِ
هَدَىٰهُمُ ٱللَّهُ ۖ وَأُو۟لَـٰٓئِكَ هُمْ أُو۟لُوا۟ ٱلْأَلْبَـٰبِ

**"(Ya Peyğəmbər!) Sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyan bəndələrimə (Cənnətlə) müydə ver!. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!"[2]**

[1] Vəsailuş-şiə`, Təşəhhüd babları, 3-cü bab, təşəhhüdün keyfiyyəti, 2-ci hədis.
[2] Zümər surəsi, 17-18-ci ayələr.

## *HƏZRƏT AYƏTULLAH İŞTIHARDİNİN QEYDLƏRİ*

Bismillahir-rəhmanir-rəhim...

Hicri-qəməri 1424-cü il zilqə'də ayında, Mədinədə höccətül-islam Əli Ətayinin "Vəhhabi suallarına cavablarımız?" kitabını oxudum. İnsafla desək, bu kitabdakı sual-cavablarda həqiqətlər məzhəbi təəssübə yol verilmədən açıqlanmışdır. Ümid edirəm ki, inşaallah, Allah-taala müəllifə Əhli-beyt tərəfindən mükafat mərhəmət edəcək və o, Əhli-beyt yolunu tanımaqda tövfiq qazanacaq.

Əhli-beyt yolu ilə düşmənçiliyin kökləri dərindədir və bu münasibət tezliklə aradan qalxası deyil. Müvəqqəti çıxış yolu təkcə ixtilafı aradan qaldırmaq yox, bu elmi qüdrət və nüfuzla uyğunlaşdırmaqdır. Yadda saxlamalıyıq ki, imamların (ə) da qarşısını kəsən qüdrətsizlik oldu. Hansı ki, onlar elmin mənbəyindən qidalanırdılar.

Əllamə Hilli və Xacə Nəsirəddin Tusi şiəliyi təkcə qəbul etmiş monqol Hulaki xanla həmahənglik edib, Əhli-beyt (ə) məzhəbini bir qədər irəli apara bildilər. Ən azı qüdrət elmlə müxalif olmamalıdır.

Allah-taala həm alim, həm də qadirdir. Bu iki zatı sifət eyni vaxtda işə düşən kimi ixtilaflar aradan qalxır. Amma əgər mövcud elm ilahi olsa, mövcud güc şeytani, onda müvəffəqiyyət mümkünsüz olur.

Şeytan kimi düşmən mövcud olduğundan təkcə məram və məqsəd cəmiyyəti islah edə bilməz. Əgər İslami ölkə başçıları əl-ələ verib, dini işlərdə razılığa gəlsələr, şeytan geri çəkiləsidir. Amma bütün sə'ylər yalnız maddi istiqamətdə yönəlsə (necə ki, yönəlib), problemlər də öz həllinin intizarında qalacaq.

Mərhum rəhbərimizin də tövsiyəsi mədrəsə və universitetlər, ruhani və ziyalılar arasında yekdilliyin əldə olunması idi. Bəli, elm və güc əl-ələ verməli idi.

Olsun ki, "Allaha yardım göstərin, O da sizə yardım göstərər"[1] ayəsi məhz bu məsələyə işarədir. Yə'ni elm və güc işə düşmədən Allahın yardımı gerçəkləşmir. Bəli, bütün problemlər elm və gücün müxalifətindən yaranır...

Əgər elm və qüdrət həmahəng olsa, bir çox pisliklər aradan qalxasıdır. Ayətullah Birucirdi dövründə Ayətullah Zəncaninin qərarı ilə Suriyada bir qrup sünni alim və tələbələri ilə "mənim Əhli-beytim Nuhun gəmisi kimidir..." hədisi başlığı altında aparılan söhbət və müzakirələr nəticəsində şiələr təqiyyə vəziyyətindən çıxdı, möhür ətrafındakı mübahisələr aradan qalxdı. Hətta Suriya və İran arasında siyasi ixtilaflar həll edildi.

İki Qur'an ayəsinə əməl etmək lazım gəlir:

"De ki, Hərə öz bacarığına görə iş görər. Rəbbiniz kimin doğru yolda olduğunu daha yaxşı bilir."[2]

"Sizin öz dininiz, mənin də öz dinim!"[3]

Gəlin, İslam maarifini təbliğ edək, ümumi tövhid düşüncəsini yüksəldək. Daxili ixtilafların əsas amillərindən biri müsəlmanların əsil İslam əxlaqından xəbərsizliyidir!

---

1 "Muhəmməd", 7
2 "İsra", 84
3 "Kafirun", 6

Mündəricat


ÖN SÖZ.....3
AYƏTULLAH-ÜZMA BİRUCİRDİNİN BƏYANINDA ƏHLİ-BEYTƏ İTAƏT ZƏRURƏTİ.....4
KAMİLLİK ZİRVƏSİ VƏHDƏT İŞIĞINDA.....5
HƏM BİRLİYİN, HƏM DƏ İXTİLAFLARIN SƏBƏBKARI ALİMLƏRDİR.....6
SUAL - CAVABLAR.....7
MƏSCİDÜN-NƏBİDƏ AZAN.....12
BİR MÜBAHİSƏ.....13
YADDAŞ.....17
YADDAŞ.....20
ƏTRAFLI BİR MÜBAHİSƏ.....25
YADDAŞ.....29
İKI YADDAŞ.....31
MÜBAHİSƏ.....33
MÜBAHİSƏ.....38
DİGƏR BİR MÜBAHİSƏ.....39
KİÇİK BİR MÜBAHİSƏ.....43
GENİŞ BİR MÜBAHİSƏ.....44
BÖHTANLARIN KÖKÜ.....47
NƏ ÜÇÜN BU SÖZLƏRİ BÖHTAN SAYIRIQ?.....48
MƏSCİDÜL-HƏRAMDA DƏFN OLUNANLAR.....49
MƏSCİDÜL-HƏRAM VƏ MƏSCİDÜN-NƏBİDƏ NAMAZ.....53
BİR ŞÜBHƏYƏ CAVAB.....54
VƏHHABİLƏR NƏYİ BİD'ƏT HESAB EDİRLƏR?.....55
VƏHHABİLƏR ÖZ FİQHİNƏ ƏSASƏN YOL VERDİKLƏRİ BİD'ƏTLƏR.....55
VƏHHABİLƏRİN MƏSCİDLƏ BAĞLI BİD'ƏTLƏRİ.....58
MÜBAHİSƏ.....60
ŞİƏ FİQHİNƏ GÖRƏ SÜNNİLƏRİN BİD'ƏTLƏRİ.....62
HƏCCİ TƏMƏTTÖ' NƏDİR?.....66
ÖMƏRİN TƏMƏTTÖ' HƏCCİNİ QADAĞAN ETMƏSİ.....67
MÜAVİYƏ DÖVRÜNDƏ TƏMƏTTÖ' HƏCCİ.....69

NƏHAYƏT 2-Cİ XƏLİFƏNİN GÖSTƏRİŞİ UNUDULDU....69
İSLAM KAMİL DİNDİR....69
MÜBAHİSƏ....70
VƏHHABİLƏRİN BİD'ƏT HESAB ETDİYİ ƏMƏLLƏR......73
"SƏHİH BUXARİ"DƏN BİR RƏVAYƏT....74
VƏHHABİLİYİN BANİSİ....75
AYƏTULLAH XOYİNİN BİR HİCAZ ALİMİ İLƏ MÜBAHİSƏSİ....77
BİR SÖHBƏT....78
QISA BİR MÜBAHİSƏ....82
MÜBAHİSƏ....83
BİR MÜBAHİSƏ....87
MÜBAHİSƏ....92
İKİ YADDAŞ....94
BİR SÖHBƏT....95
TƏQİYYƏ....97
NƏSİHƏT....99
ONLAR ZİYARƏT SƏFƏRİNİ BİD'ƏT SAYIRLAR....105
NƏTİCƏ....118
QEYD....120
HƏZRƏT AYƏTULLAH İŞTIHARDİNİN QEYDLƏRİ......124



Həzrət Ayətullah əl-uzma Fazil Lənkəraninin dəftərxanası
Telefon: Qum (İran) 00982517717872
Faks: 00982517717872
E-mail: Fazel@Lankarani.org

964-96010-0-7